Xalqın qəzeti!

# Xalq qəzeti

№ 243 (30937) 15 noyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Asiya İnkişaf Bankı Azərbaycana son 26 ildə 5,5 milyard dollar maliyyə yardımı göstərib

## Prezident İlham Əliyev Asiya İnkişaf Bankının nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Asiya İnkişaf Bankının prezidenti Masato Kandanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlığa toxunuldu, birgə layihələrin uğurlu icrası qeyd edildi. 1999-cu ildən indiyədək Asiya İnkişaf Bankı tərəfindən nəqliyyat, su təchizatı, enerji, maliyyə, təhsil, səhiyyə və digər sahələri əhatə edən 145 kredit, qrant, investisiya və texniki yardım layihələri üzrə Azərbaycana 5,5 milyard dollar dəyərində maliyyə dəstəyinin göstərildiyi vurğulandı.

Asiya İnkişaf Bankının Azərbaycan dövləti ilə yanaşı, özəl sektorla da uğurlu əməkdaşlıq etdiyi qeyd olundu. Bu xüsusda neft-qaz, elektrik enerjisi, yol, dəmir yolu, kənd təsərrüfatı, su təchizatı, çirkab suların axıdılması və digər istiqamətlərdə icra olunan birgə layihələrə toxunuldu.

Söhbət zamanı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlərin regionun nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi üçün də böyük imkanlar yaratdığı diqqətə çatdırıldı.

Görüşdə Mərkəzi Asiya-Azərbaycan-Avropa marşrutu üzrə bağlantıların önəmi qeyd edildi. Həmçinin ölkəmizlə bank arasında yeni layihələrə toxunuldu, bu xüsusda dəmir yolu, metro şəbəkəsinin genişləndirilməsi və su təchizatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu.

***AZƏRTAC***



## Sülhə qarşı axına çağırış



Səhifə ⇨ 5

## Azad torpaqlarda dirçəliş fəlsəfəsi

**Azərbaycan ərazilərinin 20 faizinin 30 ilə yaxın müddətdə erməni işğalı altında olduğu dövrdə həmin ərazilərdəki şəhərlərimiz və digər yaşayış məntəqələrimiz, o cümlədən infrastruktur obyektlərimiz tamamilə dağıdılıb, milli-mədəni irsimiz məhv edilib, təbii sərvətlərimiz talan olunub, iqtisadiyyata əhəmiyyətli zərər vurulub. Eyni zamanda, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.**

*(ardı 4-cü səhifədə)*



## “Qoca qitə”nin geosiyasi düzəninin yeni görüntüsü

Səhifə ⇨ 6

## Diplomatik nümayəndəliyə hücum yolverilməzdir



**Noyabrın 14-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Volodimir Zelenski Rusiyanın raket zərbəsi nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin inzibati binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını qınayıb və bu hadisə ilə bağlı ciddi narahatlığını bildirib.

Dövlətimizin başçısı da öz növbəsində ölkəmizin Ukraynadakı səfirliyinin binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını pisləyib və bununla əlaqədar ciddi narahatlığını ifadə edib, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən diplomatik nümayəndəliklərə qarşı bu cür hücumların qəbuledilməz olduğunu vurğulayıb.

Telefon söhbəti zamanı Volodimir Zelenski ölkəmizin Ukraynaya humanitar dəstəyinə görə təşəkkürünü bildirib.

Dövlət başçıları, həmçinin ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Prezidentin “qanunsuz tapşırıqların yolverilməzliyi” barədə mesajı



Səhifə ⇨ 5

## Bu gün bizə həm də 3 tarixi faktı xatırladır



Səhifə ⇨ 7

## Azərbaycan Mərkəzi Asiyanı Avropaya qovuşduran qardaşlıq körpüsüdür



Səhifə ⇨ 8

## Azərbaycan multikulturalizmi bəşəri örnəkdir




Səhifə ⇨ 4

## İran “yeddilər”i ikiüzlülükdə ittiham etdi



Səhifə ⇨ 7

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli və "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199; 2025, № 3, maddə 227, № 9, maddə 820) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.8-ci yarımbənddə hər iki halda "icazə" sözü "İcazə" sözü ilə əvəz edilsin;

1.2. 3.1.9-cu və 3.1.10-cu yarımbəndlərdə "illik və qısamüddətli icazələri" sözləri "qısamüddətli (aylıq) və çoxtərəfli illik "İcazə" blankları" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1466 (Cild I); 2024, № 8, maddə 937) ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.0.3-cü yarımbəndə "aparılmasını" sözündən sonra "və operatorlara kvota ilə müəyyən edilmiş, xarici ölkələrin ərazisində beynəlxalq avtomobil daşımalarını yerinə yetirmək üçün elektron qaydada mübadilə edilən xarici ölkələrin "İcazə" blanklarının və əldə edilən Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli qısamüddətli (aylıq) və çoxtərəfli illik "İcazə" blanklarının (jurnallarının) elektron qaydada verilməsini" sözləri əlavə edilsin;

2.2. 5.1.10-cu yarımbəndə "uçotu" sözündən sonra "və operatorlara verilən "İcazə" blankları (jurnalları)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 noyabr 2025-ci il**

# "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245 (Cild I); 2024, № 2, maddə 147) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.11-ci bəndinə "obyektlərin" sözündən sonra "vahid" sözü əlavə edilsin.

**2** "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858 (Cild I); 2024, № 5 (I kitab), maddələr 515, 529, № 7, maddə 797; 2025, № 8, maddə 771) 5.23.1-ci yarımbəndinə "obyektlərin" sözündən sonra "vahid" sözü əlavə edilsin.

**3** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224, № 4 (I kitab), maddə 330, № 5, maddə 459, № 6, maddə 541, № 8, maddə 771) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 8-ci hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 3-cü bəndinə "obyektlərin" sözündən sonra "vahid" sözü əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2231 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 956 (Cild I) ilə təsdiq edilmiş "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin 1.1-ci bəndindən ", Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 78.2-ci maddəsinə" sözləri çıxarılsın.

**5** "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 sentyabr tarixli 3488 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1066 (Cild I) 1-ci hissəsinin "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri" abzasının sonundan nöqtə işarəsi çıxarılsın və həmin abzasdan sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 noyabr 2025-ci il**

# Azərbaycan Rusiyaya nota verib

**Noyabrın 14-də Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.**

Görüş zamanı noyabrın 14-də təqribən gecə saat 1:00-da Ukraynanın paytaxtı Kiyev şəhərinə raket və dron hücumları nəticəsində "İsgəndər" tipli raketlərdən birinin səfirliyin ərazisinə düşməsi ilə bağlı kəskin etiraz bildirilib və səfirə müvafiq nota təqdim edilib.

Son partlayış nəticəsində səfirliyin ərazisinin hasarının bir hissəsinin tamamilə dağıldığı, konstruksiyaların, xidməti avtomobillərin, inzibati binanın və səfirliyin konsulluq şöbəsinin zədələndiyi, həmçinin diplomatik nümayəndəliyin ərazisinə ciddi ziyan vurulduğu, xoşbəxtlikdən bu zərbənin insan tələfatına səbəb olmadığı qarşı tərəfə bildirilib.

Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu kimi raket hücumlarının əvvəllər də baş verdiyi xatırladılıb. Xüsusilə 2022-ci il martın 10-da Azərbaycanın Xarkovdakı fəxri konsulluğunun binasına aviazərbə nəticəsində inzibati binanın ciddi dağıntı-



lara məruz qaldığı və xidməti avtomobilin yararsız hala düşdüyü qeyd edilib.

Bununla yanaşı, 2024-cü il yanvarın 2-də Rusiya tərəfindən "Kinjal" raketi ilə həyata keçirilən hava zərbəsi nəticəsində səfirliyin inzibati binasından təqribən 35 addım məsafədə diametri təxminən 3 metr olan krater yarandığı və yer səthindən 8 metr dərinlikdə detonasiya baş vermədiyi üçün partlamamış sursat aşkar edildiyi bildirilib.

2025-ci il avqustun 28-də isə Azərbaycanın Ukraynadakı səfirliyinə təxminən 50 metr məsafədə endirilmiş hava zərbəsi nəticəsində səfirliyin inzibati binasının və konsulluq şöbəsinin, səfirin iqamətgahının zədələndiyi, həmçinin diplomatik nümayəndəliyin ərazisinə ciddi ziyan dəydiyi diqqətə çatdırılıb.

Eyni zamanda, 2025-ci il avqustun 8-18-də Odessa vilayətində SOCAR şirkətinin neft bazasına dron hücumları edildiyi, nəticədə işçilərin xəsarət aldığı, infrastruktura böyük zərər vurulduğu xatırlanıb. Bütün bu faktların raket hücumlarının məqsədli olması barədə suallar yaratdığı vurğulanıb. Eyni zamanda, bütün bu faktlara dair Rusiya tərəfinə əvvəllər rəsmi notalarla məlumat verildiyi, həmçinin Ukraynadakı diplomatik təmsilçiliklərimizin yerləşdiyi binaların koordinatlarının hələ 2022-ci ilin aprelində Rusiya tərəfinə təqdim edildiyi, koordinatların Rusiya Müdafiə Nazirliyi tərəfindən nəzərə alınacağının bildirildiyi xatırlanıb.

Görüşdə diplomatik təmsilçiliklərimizə bu kimi hücumların qəbuledilməz olduğu diqqətə çatdırılıb, Rusiya tərəfindən məsələ üzrə müvafiq araşdırma aparılması və ətraflı izahat verilməsi tələb edilib.

***XQ***

# "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda beynəlxalq konfransın açılışı münasibətilə Xankəndidə səmimi-qəlbdən salamlayıram.

Qardaş ölkələri təmsil edən xüsusi xidmət orqanlarının nümayəndələrinin bu tədbirdə iştirakı təhlükəsizlik və əməkdaşlığın gücləndirilməsinə olan ümumi baxışımızın bariz göstəricisidir.

Bugünkü tədbirin ölkələrimiz və bütövlükdə region üçün strateji əhəmiyyət daşıyan beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunması mövzusuna həsr olunması təsadüfi deyil. Son zamanlar dünyanın müxtəlif bölgələrində müşahidə olunan qarşıdurmalar beynəlxalq və regional təhlükəsizliyi ciddi şəkildə təhdid edən müxtəlif çağırışların artmasına səbəb olur. Bu mənada ölkələrimizin ərazisindən keçən, Avropa ilə Asiyanı birləşdirən geniş nəqliyyat şəbəkəsinin mühafizə olunması üçün xüsusi xidmət və təhlükəsizlik orqanları arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi böyük önəm daşıyır.

Bu gün bizim ölkələr Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin inkişaf etdirilməsində aparıcı rola malikdirlər. Azərbaycan müasir dəmir və avtomobil yolları, eləcə də hava və dəniz limanları infrastrukturuna böyük sərmayələr yatırır. Biz bu nəqliyyat və kommunikasiya xətlərini təkcə iqtisadi rifah mənbəyi kimi deyil, eyni zamanda Türk dövlətlərinin siyasi, mədəni, təhlükəsizlik və müdafiə sahələrində daha sıx inteqrasiyası üçün vacib təməl kimi görürük.

Zəngəzur dəhlizinin açılması ölkələrimiz arasında birbaşa və maneəsiz əlaqələrin qurulmasında mühüm rol oynayacaqdır. Bu layihənin reallaşması nəticəsində yükdaşıma həcminin çoxalması regionun rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıracaqdır. Bununla belə, nəqliyyat qovşaqlarımızın artan rolu onları destruktiv qüvvələrin hədəfinə çevirir. Nəqliyyat və kommunikasiya xətlərimiz beynəlxalq terrorçuluqla, transmilli mütəşəkkil cinayətkarlıqla, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə, qaçaqmalçılıqla, eləcə də kritik nəqliyyat infrastrukturunun idarəetmə sistemlərinin iflicinə yönəlmiş kibertəhdidlərlə üzləşir.

Nəhəng regional layihələrin icrasına mane olmaq məqsədi daşıyan xarici müdaxilə və sabitliyi pozma cəhdləri də xüsusi qeyd edilməlidir. Məhz buna görə də xüsusi xidmət orqanları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi həyati zərurətə çevrilmişdir. Əsas nəqliyyat obyektlərinə, marşrutlara və ümumiyyətlə dövlətlərimizə qarşı planlaşdırılan pozuculuq aktları barədə fasiləsiz və operativ məlumat mübadiləsinin aparılması və birgə profilaktik tədbirlərin görülməsi olduqca vacibdir.

Müvafiq kontekstdə tranzit xətlərimizdən istifadə etməyə cəhd göstərən terrorçu təşkilatların və cinayətkar qrupların destruktiv fəaliyyətinin qarşısının alınması üçün əlaqələndirilmiş əməliyyat tədbirlərinin hazırlanması və reallaşdırılması da prioritet fəaliyyət istiqamətləri sırasında yer almalıdır. Bu əməkdaşlıq kibertəhdidlərdən müdafiə, eləcə də nəqliyyat axınlarına nəzarət və monitorinq üçün qabaqcıl texnologiyaların tətbiqi sahəsində təcrübə mübadiləsini də əhatə etməlidir.

Nəqliyyat və kommunikasiya xətlərinin təhlükəsizliyi sahəsində əməkdaşlığımızın effektivliyi qardaş dövlətlərin iqtisadi inkişafının və uzunmüddətli sabitliyinin zəmanətidir. Əminəm ki, bugünkü tədbir və ən əsası xüsusi xidmət orqanlarının daimi birgə işi ölkələrimizin təhlükəsizliyi, sabitliyi və rifahı ilə bağlı ümdə məsələlərin həllinə kömək edəcək, xalqlarımızın dinc və firavan inkişafına töhfə verəcəkdir.

Bütün tədbir iştirakçılarını bir daha Qarabağda ürəkdən salamlayır, konfransın praktiki əhəmiyyətli nəticələrlə yekunlaşmasını arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 13 noyabr 2025-ci il**

# Xankəndidə türk dövlətləri təhlükəsizlik orqanlarının iclası



**Noyabrın 14-də Xankəndi şəhərində "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda Türk Dövlətlərinin Xüsusi Xidmət Orqanları Konfransının XXVII plenar iclası keçirilib.**



Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, tədbirdə DTX-nin rəisi general-polkovnik Əli Nağıyev, Xarici Kəşfiyyat Xidmətinin rəisi general-polkovnik Orxan Sultanov, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın müvafiq xidmət rəhbərləri, həmçinin fəxri qonaq qismində Macarıstandan olan nümayəndə iştirak edib.

Tədbiri açıq elan edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciəti səsləndirdikdən sonra plenar iclasın mövzusu ilə bağlı geniş nitqlə çıxış edib ***(Müraciətin mətni qəzetin bugünkü sayında dərc edilib)***. Müasir dövrdə beynəlxalq sabitliyə çoxsaylı təhdidlərin dünyanın nəqliyyat və kommunikasiya xətlərinin təhlükəsizliyinə təsirsiz ötüşmədiyini və türk dövlətlərinin önəmli nəqliyyat şəbəkələrinin üzərində yerləşdiyini qeyd edən xidmət rəisi bildirib ki, həmin nəqliyyat marşrutlarının təhlükəsizliyinin təmin olunması üçün sözügedən ölkələr arasında müvafiq sahədə əməkdaşlıq əlaqələrinin davamlı şəkildə möhkəmləndirilməsi, birgə səylərin hər zaman səfərbər edilməsi, məlumat mübadiləsinin daha intensiv aparılması vacibdir.

General-polkovnik Əli Nağıyev beynəlxalq nəqliyyat və kommunikasiya xətlərinin təhlükəsiz fəaliyyətinin təminatında, onların beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, qaçaqmalçılıq və sair mənfi təzahürlü hallardan qorunmasında xüsusi xidmət orqanlarının oynadığı roldan da ətraflı söhbət açıb.

Vurğulanıb ki, Uzaq Şərqdən Avropaya qədər uzanan Orta Dəhlizin vacib tərkib hissəsi olan Zəngəzur dəhlizinin reallaşdırılmasına bəzi destruktiv dairələr hər vəchlə maneçilik törətməyə çalışır və bu amil göstərilən istiqamətdə təhlükəsizliyin etibarlı təmin olunmasını mühüm vəzifələrdən biri kimi qarşıya qoyur.

Daha sonra tədbir digər iştirakçıların çıxışları və qarşılıqlı müzakirələrlə davam edib, sonda plenar iclasın yekun sənədi imzalanıb.

***XQ***

# Baş nazir Əli Əsədov Asiya İnkişaf Bankının prezidentini qəbul edib





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 14-də Asiya İnkişaf Bankının prezidenti Masato Kanda ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlığın mövcud olduğu bildirilib.

Ötən müddət ərzində Bankın Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarının inkişafına dəstək verdiyi bildirilib. Eyni zamanda nəqliyyat, su təchizatı, enerji, maliyyə, təhsil, səhiyyə və digər sahələri əhatə edən birgə layihələrin uğurla həyata keçirilməsindən məmnunluq ifadə olunub.

Azərbaycanın Asiya İnkişaf Bankının az inkişaf etmiş ölkələrə yardım göstərilməsi təşəbbüsünün iştirakçısı olduğu, ölkəmizin Bankın Asiya İnkişaf Fonduna ianələr ayırdığı diqqətə çatdırılıb.

Eyni zamanda ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühitinə toxunulub, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi dirçəlişi istiqamətində həyata keçirilən proqramlar, həmçinin bu ərazilərin investisiya potensialı barədə məlumat verilib.

Görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında cari ilin iyul ayında təsdiqlənmiş 2025-2029-cu illər üzrə Ölkə Tərəfdaşlıq Strategiyası çərçivəsində prioritet istiqamətlər üzrə əməkdaşlıq imkanları, o cümlədən metro şəbəkəsinin genişləndirilməsi, dəmiryolu infrastrukturunun təkmilləşdirilməsi, su təchizatı sisteminin yaxşılaşdırılması və ikitərəfli gündəlikdə duran bir sıra digər perspektivli layihələr müzakirə olunub.

*XQ*

# Rayon İcra Hakimiyyəti başçılarının təqdimatı

## Balakən





**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Balakən Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Natiq Nuşravan oğlu Ağayev Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.**

Zeynal Nağdəliyev təqdimatda çıxış edərək, dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

N.Ağayev ona göstərilən etimada görə minnətdarlıq edib.

## Göygöl





**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Vüqar Vahid oğlu Novruzov Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.**

Zeynal Nağdəliyev təqdimatda çıxış edərək, dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

V.Novruzov ona göstərilən etimada görə minnətdarlıq edib.

*XQ*

# YAP-ın yaradılmasının 33-cü ildönümü



**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyasının müasir dövlətçilik tariximizdə yeri və rolu" adlı toplantı keçirilib.**

Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaşzadə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 33 il bundan əvvəl - 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir dövlətçilik tariximizdə əlamətdar hadisə olduğunu qeyd edib.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ümummilli lider Heydər Əliyevin yaradıcısı olduğu partiyanın müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verdiyini söyləyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi nailiyyətləri, 2020-ci ildə qazandığı şanlı Zəfəri və 2023-cü ildə ölkəmizin suverenliyinin tam bərpa olunduğunu diqqətə çatdırıb.

Mərasimdə YAP-ın sıralarına yeni qəbul olunmuş konservatoriya əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Məslis bədii hissə ilə sona çatıb.

*XQ*



# Konstitusiya Məhkəməsində görüş



**Konstitusiya Məhkəməsində Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunan "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün Bakı şəhərində səfərdə olan Qırğızıstan Konstitusiya Məhkəməsinin sədri Emil Oskonbayev, Türkiyənin Konstitusiya Məhkəməsinin hakimi Yıldız Seferinoğlu və Taylandın Konstitusiya Məhkəməsinin hakimi Noppadon Teppitakın sədrlik etdiyi nümayəndə heyətləri ilə görüş keçirilib.**

Görüşdə sədr Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyəti, qərar qəbuletmə proseduru, ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar və tətbiq edilən yeniliklər barədə məlumat verib, məhkəmələr arasında əməkdaşlığın vacibliyini vurğulayıb. O qeyd edib ki, səfər çərçivəsində keçirilən görüşlərdə təcrübə və fikir mübadiləsi ölkələrimiz arasında məhkəmə sahəsində əlaqələrin daha da dərinləşməsinə, məhkəmə-hüquq əməkdaşlığının daha da möhkəmlənməsinə və gələcək əməkdaşlığın inkişafına mühüm töhfə verəcək.

Qonaqlar Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə bir daha öz təbriklərini ifadə edib, beynəlxalq konfransın uğurlu və səmərəli keçdiyini vurğulayıb, Konstitusiya Məhkəməsi ilə qarşılıqlı əlaqələrin inkişafında maraqlı olduqlarını qeyd edərək qonaqpərvərliyə və səmimi qəbula görə bir daha minnətdarlıqlarını bildiriblər.

Görüş zamanı geniş fikir mübadiləsi aparılıb.

*XQ*

# Berlində Zəfər Günü və Üzeyir Hacıbəylinin 140 illik yubiley mərasimi

**Azərbaycanın Almaniyadakı səfirliyi Vətən müharibəsində şanlı Zəfərin 5-ci ildönümü və dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illik yubileyi münasibətilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində "Sülh və birgəyaşayış" adlı tədbir təşkil edib.**





Tədbirdə 400-dək qonaq, o cümlədən Almaniyanın dövlət qurumlarının təmsilçiləri, xarici ölkələrin səfirləri, hərbi attaşelər, media nümayəndələri, elm və mədəniyyət xadimləri, eləcə də Almaniyada yaşayan Azərbaycan, türk və digər icmaların üzvləri iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra 8 Noyabr - Zəfər Gününə və Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunan filmlər nümayiş etdirilib.

Azərbaycanın Almaniyandakı səfiri Nəsimi Ağayev çıxış edərək, Azərbaycan tarixinin və mədəniyyətinin iki mühüm hadisəsinin qeyd olunduğunu bildirib.

Vətən müharibəsində Azərbaycan xalqının Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında sarsılmaz həmrəylik və qətiyyət nümayiş etdirdiyini deyən səfir bu çətin dövrdə dost dövlətlərin, xüsusilə qardaş Türkiyənin fəal siyasi və mənəvi dəstəyini xüsusi vurğulayıb. Çıxışında Üzeyir Hacıbəylinin 140 illik yubileyinin Azərbaycanda və ölkəmizdən kənarda silsilə tədbirlərlə qeyd olunduğunu vurğulayan səfir diqqətə çatdırıb ki, Üzeyir Hacıbəyli bütün müsəlman dünyasında ilk operanın yaradıcısıdır.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti professor Firəngiz Əlizadə çıxışında Zəfər Gününün Azərbaycan xalqının tarixində suverenliyin və ərazi bütövlüyünün bərpası günü, eləcə də milli birliyin rəmzi kimi xüsusi yer tutduğunu vurğulayıb. Professor milli bəstəkarlıq məktəbinin formalaşması və inkişafında, eləcə də Azərbaycan musiqişünaslarının fəaliyyətində Üzeyir Hacıbəylinin yaradıcılığının müstəsna rol oynadığını qeyd edib.

Çıxışlardan sonra konsert proqramı təqdim olunub. Konsertdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru Əyyub Quliyevin rəhbərliyi ilə Əməkdar artistlər Ramil Qasımov və İnarə Babayeva, tarzən Səxavət Məmmədov Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun və klassik Avropa bəstəkarlarının əsərlərini ifa ediblər. Musiqiçilərimizi tanınmış Berlin Filarmonik Kamera Orkestri müşayiət edib. Maraqlı konsert proqramı Müslüm Maqomayevin "Azərbaycan" mahnısının ifası ilə başa çatıb.

*XQ*

*16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür*

# Azərbaycan multikulturalizmi bəşəri örnəkdir

**16 Noyabr Beynəlxalq Tolerantlıq Günü qlobal miqyasda müxtəliflik, sosial barış və birgəyaşayış ideyalarının normativ çərçivədə yenidən xatırlandığı tarixi gündür. Ancaq bəzən nəzərə alınmayan vacib məqam odur ki, dözümlülük təhlükəsizlik, inkişaf və dövlətçilik məsələsidir. Azərbaycan modeli isə dini və etnik müxtəlifliyi idarəetmə mədəniyyətinin, milli kimlik siyasəti ilə inklüzivlik arasında strateji balansın nadir nümunəsidir. Müasir çoxqütblü sistemdə dövlətlərin öz "yumşaq güc" arxitekturasını formalaşdırdığı bir vaxtda Azərbaycanın multikulturalizm strategiyası regional və beynəlxalq müstəvidə siyasi əhəmiyyət qazanır.**



Azərbaycan multikulturalizmi haqqında danışarkən, ilk növbədə, onu dövlətçilik mədəniyyətinin uzunmüddətli tərkib hissəsi kimi anlamaq lazımdır. Azərbaycan ərazisi fərqli imperiyaların, ticarət yollarının və dini mədəniyyətlərin kəsişdiyi coğrafi məkanda yerləşdiyinə görə burada müxtəliflik həmişə sosial reallıq olub. Lakin bu müxtəliflik zamanla sosial təcrübədən dövlət idarəçiliyinin struktur elementinə çevrilib. Azərbaycanın müasir multikulturalizm konsepsiyasını fərqləndirən məhz bu transformasiyadır: müxtəliflik siyasi sistemi sabitləşdirən, milli identikliklə ziddiyyət yaratmayan və təhlükəsizliyi gücləndirən bir mexanizm kimi sistemləşdirilir.

Multikulturalizm burada dövlət tərəfindən qorunan normativ çərçivədir. Belə bir yanaşmanın əsasında hüquqi baza dayanır. Konstitusiyada din, vicdan və etnik kimlik azadlığının təmin edilməsi multikulturalizmə hüquqi status da qazandırır. Buna paralel olaraq müxtəlif dini icmaların fəaliyyətinə dövlət dəstəyi, məbədlərin və tarixi-mədəni irsin bərpası, eləcə də icmaların təşkilati və təhsil strukturlarının gücləndirilməsi bu modelin praktiki icrasını formalaşdırır.

Azərbaycan modeli Qərbdə son illər "liberal multikulturalizm böhranı" ilə bağlı aparılan müzakirələrdən fundamental şəkildə fərqlənir. Qərbdə multikulturalizm çox zaman dövlət tərəfindən sərbəst buraxılmış, prosesin öz axarında inkişaf etməsinə imkan verilmiş yanaşmanı ifadə edirdisə, Azərbaycanda müxtəliflik idarə olunan, normativ şəkildə qorunan və siyasi sistemin sabitliyinə inteqrasiya edilmiş modeldir.

Azərbaycan multikulturalizmi həm tarixi legitimlikdən, həm də müasir siyasi rasionallıqdan güc alır. Əslində bu model dövlətin özünüidarəetmə fəlsəfəsi barədə çox şey deyir: etnik-dini müxtəliflik düzgün tənzimləndikdə sosial sabitliyin və milli birliyin möhkəmləndirilməsinə xidmət edən resurs kimi qəbul edilir.

*

Dünyanın bir çox regionlarında son illər müşahidə edilən siyasi və sosial dalğalanmalar – populist hərəkatların güclənməsi, nəzarətsiz miqrasiya prosesləri, identikliklərin toqquşması və radikal qrupların fəallaşması təhlükəsizlik, idarəetmə və sosial davamlılıq problemi kimi qiymətləndirilir. Tolerantlıq böhranı faktiki olaraq dövlətlərin daxili nizamını, siyasi legitimliyini və qlobal əməkdaşlıq sistemini hədəfə alan yeni geosiyasi çağırışa çevrilib. Məhz bu fonda müxtəlifliyin idarə edilməsinə dair uğurlu və sabit modellər daha çox diqqət çəkir və alternativ yanaşmalar axtaran dünyada nəzəri və praktiki maraq doğurur.

Belə bir şəraitdə Azərbaycan modeli özünün ziddiyyət yaratmayan, zorakılığa çevrilməyən və identikliklər arasında kəskin ayrılma formalaşdırmayan strukturu ilə seçilir. Bir çox ölkələrdə multikulturalizm ya sosial parçalanma ilə nəticələnir, ya da sərt milli identiklik siyasəti müxtəlifliyi təhlükəyə çevirir. Azərbaycanda müxtəliflik normativ şəkildə tənzimlənib, siyasi sistemlə inteqrasiya edilib və sosial harmoniyanı gücləndirən idarəetmə aləti kimi formalaşdırılıb. Təbii ki, belə bir yanaşma Azərbaycan modelini liberal çoxmədəniyyətçilikdən çox, inteqrativ multikulturalizm konsepsiyasına yaxınlaşdırır; yəni müxtəliflik cəmiyyətin struktur bütövlüyünü qoruyan bir elementə çevrilir.

Dünyada tolerantlıq böhranının yaratdığı risklər – radikallaşma, sosial gərginlik, identikliklərin qütbləşməsi – bir çox ölkələrdə siyasi sistemləri zəiflədərkən, Azərbaycanda etnik-dini müxtəlifliyə əsaslanan sabitlik əks tendensiyanı nümayiş etdirir. Müxtəlifliyin dövlət nəzarətində



olması, konfessiyalar və etnik qruplarla davamlı dialoq, dini ekstremizmə qarşı preventiv mexanizmlərin işləkliyi radikallaşma üçün zəmin yaradan sosial boşluqları neytrallaşdırır.

Bundan başqa, qlobal miqrasiya axınlarının yaratdığı identiklik gərginlikləri fonunda Azərbaycan modelinin üstünlüyü burada artıq mövcud olan müxtəliflik təcrübəsinin sosial təcrübədən dövlət strategiyasına çevrilmiş olmasındadır. Yəni müxtəliflik burada cəmiyyətin tarixi və real strukturudur. Bu struktur düzgün idarə olunduğu üçün həm sosial həmrəyliyə, həm də uzunmüddətli sabitliyə xidmət edir. Bütün bu amillər Azərbaycan nümunəsini böhran yaşayan ölkələr üçün nəzəri əhəmiyyətli modellərdən birinə çevirir.




Beləliklə, Azərbaycan multikulturalizmi qlobal kontekstdə bir sıra siyasi tezisləri praktik olaraq təsdiqləyir: müxtəliflik idarə edildikdə sabitlik mənbəyinə çevrilə bilir; mədəni müxtəliflik milli təhlükəsizliyin zəif nöqtəsi deyil, onun sosial dayağı rolunu oynaya bilir; etnik-dini harmoniya isə yalnız sosial bərabərlik ideyası deyil, eyni zamanda iqtisadi inteqrasiya və regional əməkdaşlığı təşviq edən strateji kapitaldır.

*

Azərbaycanın multikulturalizm siyasəti ölkənin beynəlxalq mövqelərini formalaşdıran strateji identiklik xəttinə çevrilərək, diplomatik dialoqun, təhlükəsizlik arxitekturasının və "yumşaq güc" siyasətinin mərkəzinə yerləşir. Bakı Prosesi mədəniyyətlərarası dialoqu tənzimləyən ən geniş platformalardan birinə çevrilərək, Azərbaycanın bu sahədə qlobal "normayaradan" rolunu möhkəmləndirir.

Postmünaqişə dövründə bu siyasətin strateji çəkisi, xüsusilə artır. 44 günlük müharibədən sonra formalaşan yeni regional düzən mədəni irsin bütöv şəkildə bərpasını Azərbaycanın siyasi mesajına çevirir. Bərpa edilən ərazilərdə müsəlman və qeyri-müsəlman dini məkanlarının eyni dövlət diqqəti ilə yenilənməsi regiona hansı identikliklə qayıdılacağının siyasi deklarasiyasıdır. Xüsusilə, Xarıbülbül musiqi festivalının Şuşada keçirilməsi Azərbaycanın multikulturalizm modelinin həm tarixi, həm siyasi, həm də mədəni refleksiyasını daha da gücləndirir. Xarıbülbül festivalı bir tərəfdən ölkədə mövcud olan multikultural həyat tərzinin mədəniyyət sahəsində təcəssümü kimi çıxış edir, digər tərəfdən isə Prezident İlham Əliyevin tolerantlıq ənənələrinin qorunmasına və inkişafına verdiyi prioritetin uzaqgörən strategiya olduğunu nümayiş etdirir.

Azərbaycanın tolerantlıq siyasəti, eyni zamanda, milli təhlükəsizlik sisteminin önəmli dayağı kimi çıxış edir. Dünyada etnik-dini parçalanmaların dövlətlərin təhlükəsizlik sistemini zədələdiyi bir zamanda Azərbaycan müxtəliflik əsasında birləşdirən model tətbiq edir. Burada identikliklərin toqquşması deyil, bir-birini tamamlaması müşahidə olunur və bu, ekstremizmin yaranmasına imkan verməyən sosial mühit formalaşdırır. Dövlətlə dini icmalar arasında əməkdaşlıq mexanizmi preventiv təhlükəsizlik aparatının əsas elementlərinə çevrilərək, radikallaşmanın strukturlaşmasına qarşı institusional sədd yaradır. Belə bir sintez milli təhlükəsizliyi etnik və dini təbəqələşmənin təsirlərindən qoruyan immun sistem kimi fəaliyyət göstərir və Azərbaycana regionda nadir üstünlük qazandırır. Multikulturalizm Azərbaycanda diplomatiyanın dilinə çevrilmiş "yumşaq güc" resursu, postmünaqişə sabitliyinin əsas mexanizmi və milli təhlükəsizlik strategiyasının ideoloji dayağıdır.

Son olaraq qeyd edək ki, Beynəlxalq Tolerantlıq Günündə Azərbaycanı dünyaya təqdim etdiyi mesajla göstərir ki, tolerantlıq doğru institusional mühitdə təhlükəsizlik, diplomatik təsir və sosial inkişaf üçün çoxtərəfli kapitala çevrilə bilər. Sürətlə qütbləşən dünyada tolerantlıq siyasətinin beynəlxalq müstəviyə də ixrac olunması Azərbaycanın yumşaq güc diplomatiyasını formalaşdıran ən uğurlu strateji istiqamətlərdən biridir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azad torpaqlarda dirçəliş fəlsəfəsi



**(əvvəli 1-ci səhifədə)**

2020-ci ilin payızında 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olunduqdan, ölkəmizin ərazi bütövlüyü bərpa edildikdən sonra irimiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. Ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamında qeyd edildiyi kimi, iğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış ölkəmizin 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. Dövlət proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb.

*

Sözsüz ki, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin mərkəzində, ilk növbədə, təhlükəsizlik mühiti dayanır. Minalardan və partlamamış hərbi sursatlardan təmizlənmə prosesi olmadan nə məskunlaşma mümkündür, nə də digər sahələrdə davamlı inkişafdan danışmaq olar. Elə buna görə də Azərbaycan dövləti regionun tam humanitar təhlükəsizliyini təmin etməyi strateji prioritet kimi müəyyənləşdirib. Bu, təkcə insanların geri dönüşünə şərait yaratmır, həm də yeni iqtisadi ekosistemin formalaşmasını sürətləndirir.

Paralel şəkildə yol-nəqliyyat infrastrukturu, enerji və kommunikasiya xətlərinin qurulması artıq Qarabağ və Şərqi Zəngəzuru ölkənin ümumi inkişaf xəritəsinə tam şəkildə inteqrasiya edir. Yeni avtomobil və dəmir yolları, hava limanları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları regionun gələcək iqtisadi modelinin konturlarını müəyyənləşdirir. Ənənəvi kənd təsərrüfatı fəaliyyəti ilə yanaşı, aqrar sənaye, müasir suvarma sistemləri, logistika, xidmət və ticarət sektorlarının inkişafı həm məşğulluğu artırır, həm də bərpa olunan ərazilərin iqtisadi dəyərini yüksəldir.

Qarabağ və Şərqi Zəngəzurda icra olunan yenidənqurma və şəhərsalma layihələri bu bölgələrin gələcək inkişaf modelini müəyyən edən strateji addımlardır. Azad edilmiş ərazilərdə tətbiq olunan müasir urbanizasiya yanaşması yalnız infrastrukturun bərpasını deyil, eyni zamanda, insanların yüksək həyat keyfiyyətinə sahib olduğu tamamilə yeni yaşayış mühitinin formalaşdırılmasını hədəfləyir. Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində sosial xidmətlər şəbəkəsinin genişləndirilməsi, əhalinin ehtiyaclarına uyğun bazanın yaradılması və maddi-texniki təminatın gücləndirilməsi dövlətin regiona yanaşmasının kompleks xarakter daşıdığını göstərir. Hazırda öz yurduna qayıdan ailələr üçün məşğulluq imkanlarının genişləndirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi xüsusi prioritet kimi müəyyənləşdirilib. Paralel olaraq səhiyyə və təhsil infrastrukturu ən qabaqcıl standartlara uyğun bərpa olunur, yeni xəstəxana və məktəblər inşa edilir. Bu, sakinlərin uzunmüddətli sosial rifahının təmin olunmasına xidmət edən əsas sütunlardandır. Mədəniyyət ocaqlarının, idman komplekslərinin və ictimai məkanların yenidən qurulması isə bölgənin sosial həyatını canlandırır, cəmiyyətin inteqrasiyasına və insan kapitalının inkişafına mühüm töhfə verir. Bütün bu addımlar bölgənin gələcəyinin yalnız bərpa deyil, dayanıqlı inkişaf üzərində qurulduğunu bir daha təsdiqləyir.

*

Son beş ildə azad edilmiş ərazilərdə görülən işlərin miqyası həm ölkə daxilində, həm də xaricdə böyük maraqla izlənilir. Bütün prosesin mərkəzində Prezident İlham Əliyevin işlərə şəxsi nəzarəti və ardıcıl fəaliyyəti dayanır. Qarabağ və Şərqi Zəngəzur bölgəsinə tez-tez səfər edən dövlətimizin başçısının proseslərə bilavasitə rəhbərliyi, diqqət və qayğısı olmadan bu layihələrin heç biri indiki tempdə həyata keçə bilməzdi. Prezident İlham Əliyev 5 il ərzində işğaldan azad olunmuş ərazilər üzrə 500-dən çox tədbirdə iştirak edib, müxtəlif təyinatlı yüzlərlə layihənin təməlini qoyub. Mühüm strateji əhəmiyyət kəsb edən Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanları, minlərlə kilometrlik yol-nəqliyyat infrastrukturu və sosial təyinatlı layihələr daxil olmaqla, çoxsaylı obyektlərin açılışını edib. Bura, həmçinin yeni yaşayış massivlərinin salınması, enerji infrastrukturunun qurulması və sosial obyektlərin istifadəyə verilməsi də daxildir. Xüsusilə, Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanlarının açılması region üçün dönüş nöqtəsi oldu. Hava limanları bölgəni ölkənin logistik xəritəsinə tam şəkildə inteqrasiya edir.

Yol-nəqliyyat infrastrukturu ilə yanaşı, tunellər, körpülər və dəmir yolu xətləri bölgədə həyatın ritmini tam dəyişib. Sosial obyektlərin – məktəb, xəstəxana, idman və mədəniyyət mərkəzlərinin açılışı isə məskunlaşma prosesinin dayanıqlılığını təmin edir. Dövlətimizin başçısının hər dəfə açılış mərasimində verdiyi mesajlar göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda quruculuq sadəcə bərpa deyil, yeni bir inkişaf modeli formalaşdırmaq məqsədi daşıyır. Bu, prosesin yalnız başlanğıcıdır və qarşıdakı illərdə bölgənin tamamilə çiçəklənmiş bir məkana çevriləcəyi heç bir şübhə doğurmur.

Azad edilmiş ərazilərdə həyata keçirilən sosial-iqtisadi siyasət bir məqsədə xidmət edir: regionu qısa zamanda dayanıqlı inkişaf məkanına çevirmək. Bunun üçün dövlət həm yerli, həm də xarici investorlar üçün əlverişli biznes mühiti formalaşdırır, sahibkarlığa geniş güzəştlər təqdim edir. Vergi və gömrük imtiyazları, subsidiyalar, kredit dəstəyi, investisiya təşviqi mexanizmləri bölgəyə kapital axınını sürətləndirmək üçün kompleks şəkildə tətbiq olunur. Bu siyasətin ən mühüm istiqamətlərindən biri sənaye zonalarının yaradılmasıdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında formalaşdırılan sənaye və ixtisaslaşmış istehsal zonaları artıq ilk nəticələrini verməkdədir. Burada fəaliyyət göstərən müəssisələr həm yerli məşğulluğu artırır, həm də bölgənin iqtisadi dövriyyəyə real şəkildə qayıtmasına şərait yaradır. Hər yeni müəssisə, hər yeni istehsal sahəsi regionun gələcək inkişafına əlavə dəyər gətirir. Bu səylərin praktiki nəticələri artıq görünür. Hazırda 50 min nəfərdən çox insan azad edilmiş ərazilərdə yaşayır, işləyir və təhsil alır. Bu, həm infrastrukturun hazır olmasının, həm də iqtisadi imkanların genişlənməsinin göstəricisidir. Qarabağ və Şərqi Zəngəzurun bərpası təkcə tikinti və infrastrukturdan ibarət deyil; burada paralel şəkildə yeni iqtisadi həyat, yeni biznes mühiti və yeni inkişaf fəlsəfəsi formalaşır.

***Səxavət HƏMİD***
***XQ***

### *Ekspert rəyi*



**İlyas HÜSEYNOV,**
**politoloq**

İşğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı tikinti-quruculuq və inkişaf proqramı Azərbaycanın regional siyasətində yeni mərhələ formalaşdırır. Bu prosesin əsas özəlliyi ondan ibarətdir ki, dövlət quruculuq işlərini təkcə fiziki infrastrukturla məhdudlaşdırmır, paralel şəkildə sosial, iqtisadi və institusional sahələrdə tam inteqrasiya modelini tətbiq edir. Minalardan təmizləmə, yol-nəqliyyat infrastrukturunun qurulması, hava limanlarının istifadəyə verilməsi və şəhərsalma layihələri regionun təhlükəsiz və funksional məkan kimi formalaşmasının əsas baza mərhələsidir. Eyni zamanda, sosial xidmətlərin genişləndirilməsi, səhiyyə və təhsil müəssisələrinin tikintisi, mədəni və idman obyektlərinin bərpası əhalinin uzunmüddətli rifahını təmin edən əsas amillərdir. Bütün bunlarla yanaşı, sənaye zonalarının yaradılması, investisiya təşviqi paketləri və sahibkarlığa verilən güzəştlər azad edilmiş ərazilərin iqtisadi cəlbediciliyini ciddi şəkildə artırır. Artıq 50 min nəfərin burada yaşayaraq fəaliyyət göstərməsi bu siyasətin real nəticələr verdiyini göstərir.

# Prezidentin "qanunsuz tapşırıqların yolverilməzliyi" barədə mesajı

## *Sosial ədalətə maneçilik yaradan bütün hallar aradan qalxmalıdır!*

**Prezident İlham Əliyevin noyabrın 12-də Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edərkən səsləndirdiyi fikirlər ibrətamiz mahiyyət daşıyır. Dövlət başçımızın vaxtilə mərkəzdən icra hakimiyyəti orqanlarına qanunsuz tapşırıqların verilməsinə dair diqqətə çatdırdıqları məqamlar düşünmək üçün əsas yaradır. Əslində, təkcə düşünmək yox, eyni zamanda, nəticə çıxarmaq lazımdır. Çünki Prezident mövqeyində qəti və kompromissizdir.**



Bəli, Prezident İlham Əliyevin haqqında söz açdığı məsələ kifayət qədər ciddidir. Nəzərə alaq ki, ölkəmizin lideri mövzunu sosial ədalətin təminatının vacibliyi müstəvisində qabartmışdı. Bu o deməkdir ki, həm mərkəzdən qanunsuz tapşırıqlar verənlərin, həm də onları yerinə yetirənlərin hərəkət və davranışları sayəsində pozulan məhz sosial ədalət olub. Bunun isə istənilən dövlət və cəmiyyət üçün mənfi nəticələri labüddür. Hansı mənfi nəticələr, məsələnin üzərində dayanacağıq. Hələlik tarixə qısa ekskurs edək.

...Osmanlı dövrünü yada salaq. Bilirik ki, nəhəng imperiyanın bəzi vəzirləri özlərini dövlət içərisində dövlət kimi görürdülər. Orta əsrlərin kardinal Rişelye zamanında saraya yaxın adamların hüquqa zidd əmrlər verməklə "məşhurlaşmalarından", qanunsuz həbslərindən, mülkləri müsadirə etmələrindən, siyasi rəqiblərin sıxışdırılması kimi əməllər törətmələrindən də xəbərdarıq. Keçmiş SSRİ dövründə Lavrenti Beriyanın təhlükəsizlik orqanları vasitəsilə "arzuolunmaz şəxslərə" təzyiq cəhdlərindən də həmçinin. Bu kimi misalların sayını çoxaltmaq, müxtəlif ölkələrin timsalındakı mənfi nümunələrdən söz açmaq mümkündür. Amma...

Ümumən, tarix göstərir ki, qanunsuz tapşırıq verən yüksək rütbəli məmur tipi, demək olar, eyni təmayüldən qaynaqlanır. Ən başlıca təmayül şəxsi marağın dövlət marağından üstün tutulmasıdır. Mövcud trayektoriyada siyasi məqsəd rəqibləri sıradan çıxarmaqla öz mövqeyini möhkəmləndirməkdir. Əlbəttə, mövqenin güclənməsinin bilavasitə maddi gəlir tərəfi də var. Nəzərə alaq ki, qanunsuz tapşırıqlar, korrupsiya, tender maxinasiyaları vasitəsilə şəxsi mənfəət əldə etməyi hədəfləyirlər. Ona görə Prezident İlham Əliyev vurğulayıb: "Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər".

Nəzəri baxımdan yanaşsaq, qanunsuz tapşırıq verənlər, bir qayda olaraq, dövlət təhlükəsizliyi, dövlət ərkanı kimi amilləri bəhanəyə çevirirlər. Yerlərdəki kiçik ranqlı məmurlara gəldikdə belələri, bir növ, autoproteksiya halı yaşayırlar. Yəni yuxarı rəhbərlikdən gələn qeyri-qanuni göstərişləri yerinə yetirməklə, özlərini qorumaq instinktlərini işə salır, həyatda qalma strategiyasını seçir, iyerarxik təzyiq halları – əmri verən şəxsin mövqeyinin icraçılar üçün soruşulmazlığı mühitində mütiləşir, vəzifə məsuliyyətlərini unudur və ya ikinci plana atırlar.

Prezident İlham Əliyev bütün bunlardan xəbərdardır və ona görə bildirir ki, yerlərdəki bəzi məmurlar məcbur olub qanunsuz hərəkətləri icra ediblər. "Onların, əlbəttə ki, üzərinə düşən məsuliyyət tamamilə başqa yanaşmanı tələb edirdi. Ancaq, eyni zamanda, o da həqiqətdir ki, bəzi hallarda bax, bu qanunsuz əməllərin təməlində harınlamış, acgöz, gözü doymayan mərkəzdə oturan məmurların göstərişləri olub. Amma yenə də deyirəm, sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək", - deyən dövlətimizin başçısı qəti şəkildə bunu da vurğulayıb: "Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək".

Əvvəldə bildirdik ki, yerlərdəki vəzifəli şəxslərə mərkəzdən qanunsuz tapşırıq verilməsinin ciddi fəsad doğuran tərəfləri var. Bu baxımdan dövlət və cəmiyyət üçün zərərlər üzərində dayanmaq mümkündür. Əlbəttə, ilk növbədə, hüquq sisteminə dəyən ziyanı vurğulamalıyıq. Bu sistemin zəifləməsi fonunda vətəndaşların dövlət hakimiyyətinə inamı da azalır. Məsələyə iqtisadi baxımdan yanaşsaq, mövcud trayektoriyada da itkilərin olduğunu görə bilərik. Qanunsuz tapşırıqlar nəticə etibarilə dövlət aktivlərinin talanması, xarici investorların qorxması, resursların səmərəsiz istifadəsi kimi mənfi durum doğurur. Məhz buna görə dövlətimizin başçısı vurğulayır: "Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi".

Bəs bu kimi halların qarşısı necə alınmalıdır? Gözlərimiz önündə Prezident İlham Əliyev tərəfindən həyata keçirilməkdə olan struktur və kadr islahatları canlanır. Dövlətimizin başçısı diqqəti keçmişin mənfi stereotiplərinin aradan qalxmasına çəkməklə vəzifəyə yeni təyin etdiyi şəxslərə bildirir ki, "Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək".

Onu da bildirək ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahat proqramları çoxşaxəlidir. Bu proqramlar cəmiyyətdəki müstəqil institutların, o cümlədən müstəqil məhkəmə hakimiyyətinin, hüquq-mühafizə sisteminin, dövlət auditi orqanlarının gücləndirilməsini, şəffaflığın artırılmasını, mövcud xüsusda büdcə xərclərinin, tenderlərin, sahə statistikasının ictimaiyyət üçün əlçatanlığının təminatını məqsəd seçir. Habelə, müstəqil media və vətəndaş cəmiyyəti institutlarının aktivliyinin artırılması da daimi hədəflər sırasındadır.

Sonda bir daha Prezident İlham Əliyevin Naxçıvanda özünün yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edərkən səsləndirdiyi sosial ədalət prinsipi barədə söz açaq. Əslində, dövlətimizin başçısı bildirdiyi fikirlərlə idarəçiliyin bu prinsipin daha da möhkəmlənməsinə xidmət kasuzunu vurğuladı. Eyni zamanda, mərkəzdən qanunsuz tapşırıqların olmayacağına əminlik yaratmaqla, belə hallara qarşı barışmaz mövqe nümayiş etdirməklə, özünü sosial ədalətin başlıca hamisi elan etdi, öz idarəçilik baxışının sadəlik, təvazökarlıq kimi əlahiddə motivlərini açıqladı. Deməli, qalır Prezidentin müəyyənləşdirdiyi xətt üzrə çalışmaq. Ümid edək ki, yüksək vəzifəyə təyin olunmuş hər bir şəxs ölkə başçısının etimadını doğrultmaq üçün səylə çalışacaq. Əslində, başqa yol da yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sülhə qarşı axına çağırış

## *Erməni lobbisi reallıqdan qopub, xəyali cəbhələrdə mübarizə aparır*

**Beynəlxalq münasibətlər sisteminin dərin transformasiya keçirdiyi, köhnə münaqişələrin həll olunduğu və yeni güc mərkəzlərinin formalaşdığı dövrdə bəzi siyasi qüvvələr hələ də məğlubiyyət psixologiyası ilə yaşamaqda davam edir. ABŞ-dakı erməni diasporunun lobbi təşkilatı olan Amerika Erməni Milli Komitəsinin (ANCA) rəhbərliyi ilə Azərbaycana qarşı başladılan yeni təbliğat kampaniyası məhz həmin tarixi reallıqlardan qopmağın və siyasi iflasın ən bariz nümunəsidir.**

Donald Trampın Yaxın Şərq sülh planı çərçivəsində Qəzza zolağında vəziyyətin sabitləşdirilməsi üçün Azərbaycan sülhməramlı qüvvələrinin cəlb edilməsi ilə bağlı beynəlxalq səviyyədə müzakirə olunan təşəbbüsü erməni lobbisinin növbəti anti-Azərbaycan isteriyası dalğası üçün bəhanəyə çevrildi. ANCA-nın tələsik şəkildə 18 qeyri-hökumət təşkilatından ibarət koalisiya formalaşdıraraq Azərbaycanın həmin potensial missiyada iştirakına qarşı çıxması ilk baxışda Yaxın Şərqdəki mürəkkəb proseslərə müdaxilə cəhdi kimi görünsə də, əslində, Cənubi Qafqazda biabırçı məğlubiyyətlə üzləşən təxribatçı qüvvələrin mübarizəni tamamilə fərqli coğrafiyaya ixrac etmək və Azərbaycanın artan beynəlxalq nüfuzuna kölgə salmaq üçün göstərdiyi miskin cəhddir. Həmin kampaniya məntiqi əsaslarının absurdluğu, arqumentlərinin zəifliyi və hədəflərinin qeyri-reallığı ilə erməni diasporunun ideoloji böhranının dərinliyini və müasir geosiyasi reallıqları anlamaqda acizliyini nümayiş etdirir.

Bu məsələnin mahiyyətini dərindən anlamaq üçün, ilk növbədə, Azərbaycanın adının Qəzza ilə bağlı sülhyaratma prosesində hallanmasının səbəblərini və bunun arxasında dayanan strateji məntiqi bilmək lazımdır. Tramp administrasiyasının irəli sürdüyü Sülh Planının ikinci mərhələsi HƏMAS-ın silahsızlaşdırılması və girovların qaytarılmasından sonra Qəzzada təhlükəsizliyin təmin edilməsi üçün beynəlxalq sabitləşdirmə missiyasının yerləşdirilməsini nəzərdə tutur. Həmin missiyada iştirak edəcək kontingentin tərkibi son dərəcə həssas məsələdir. Tərəflər arasında etimad yaratmaq üçün seçiləcək ölkələr həm neytral statusa həm də çətin mühitdə sülhü qorumaq üçün kifayət qədər peşəkar hərbi hazırlığa və təcrübəyə sahib olmalıdırlar. Məhz həmin kriteriyalar baxımından Azərbaycan unikal və əvəzolunmaz namizəd kimi önə çıxır. Azərbaycan Ordusu Kosovo, İraq və Əfqanıstandakı sülhməramlı missiyalarda illərlə fəaliyyət göstərərək NATO standartlarına uyğun peşəkarlıq və etibarlılıq nümayiş etdirib.



Bundan daha vacib amil isə Azərbaycanın unikal geosiyasi mövqeyidir. Müsəlman dünyasının fəal üzvü olan, eyni zamanda, İsrail dövləti ilə strateji tərəfdaşlıq səviyyəsində yüksək münasibətlərə malik Azərbaycan Qərb ölkələri və ərəb dünyası arasında körpü rolunu oynamaq qabiliyyətinə malik nadir ölkələrdəndir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Fələstin məsələsinə beynəlxalq hüquq çərçivəsində verdiyi ardıcıl dəstək onun ərəb dünyasındakı mövqelərini gücləndirib. Eyni zamanda, İsraillə hərbi-texniki və təhlükəsizlik sahəsindəki dərin əməkdaşlığı, Təl-Əvivin Bakıya olan etimadının göstəricisidir. Məhz bu balanslı və çoxşaxəli xarici siyasət Azərbaycanı Qəzza kimi münaqişə ocağında tərəflər arasında etimad yarada biləcək ideal vasitəçiyə və sülh qarantına çevirir. ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri admiral Erik Kuperin bir neçə həftə əvvəl Bakıya səfəri və Prezident İlham Əliyevlə apardığı danışıqlara da həmin kontekstdə yanaşmaq zəruridir. Yaxın Şərqdəki əməliyyatlara birbaşa məsul olan CENTCOM rəhbərinin səfəri Bakını geniş regionda təhlükəsizliyin təminatında mühüm tərəfdaş kimi gördüyünü təsdiqləyir.

Erməni diasporunun kampaniyası məhz Azərbaycanın həmin müsbət və konstruktiv imicini hədəfə alır. ANCA və onun ətrafında cəmləşən təşkilatların "Politico" kimi nüfuzlu nəşrdə dərc etdirdikləri bəyanatın arqumentasiyası absurdluluq həddində primitivdir, beynəlxalq hüquq və sülhməramlılıq fəaliyyətinin təməl prinsipləri haqqında elementar məlumatsızlıqdan, yaxud həmin prinsipləri qəsdən təhrif etmək cəhdindən xəbər verir. Onların əsas iddiası ondan ibarətdir ki, Azərbaycanın İsraillə sıx hərbi və kəşfiyyat əməkdaşlığı guya "qaçılmaz maraq toqquşması" yaradır və Bakının Qəzzada neytral tərəf kimi çıxışını qeyri-mümkün edir. ANCA-nın bəyanatında yer alan "Bakı atəşkəsin pozulması halında qərar qəbul edib zərbə endirəcək, yoxsa, əslində, İsrail Müdafiə Ordusunun etibarlı tərəfdaşı kimi çıxış edəcək?" sualı siyasi təxribat olmaqla yanaşı, həm də dərin cəhalətin təzahürüdür.

Birincisi, dünyada heç bir sülhməramlı missiyanın mandatı atəşkəsi pozan tərəfə qarşı "zərbə endirmək" kimi cəzalandırıcı tədbirləri nəzərdə tutmur. Sülhməramlıların funksiyası tərəflər arasında bufer zonası yaratmaq, atəşkəs rejiminə monitorinq aparmaq, humanitar yardımın çatdırılmasına kömək etmək və etimad quruculuğu tədbirlərini dəstəkləməkdən ibarətdir. Onlar gücdən yalnız özünümüdafiə və ya mandatlarının icrasına birbaşa maneə yaradıldığı müstəsna hallarda istifadə edə bilərlər. ANCA-nın qəsdən ortaya atdığı həmin saxta dilemma Qərb ictimaiyyətini çaşdırmaq və Azərbaycan Ordusunun potensial fəaliyyətini qeyri-insani kontekstdə təqdim etmək məqsədi güdür.

İkincisi, Qəzzada hər hansı sülhməramlı missiyanın yaradılması son dərəcə hipotetik məsələdir. Potensial iştirakçılardan biri olan İndoneziyanın qüvvələrin yalnız BMT Təhlükəsizlik Şurasının mandatı əsasında yerləşdirilməsində israr etməsi məsələnin nə qədər qəliz olduğunu göstərir. Hazırkı geosiyasi şəraitdə Təhlükəsizlik Şurasının daimi üzvləri arasında mövcud olan dərin ziddiyyətlər fonunda belə qətnamənin qəbul edilməsi demək olar, mümkün deyil. Bundan başqa, rəsmi Bakı son dərəcə məsuliyyətli və aydın mövqe nümayiş etdirərək bildirib ki, Azərbaycanın missiyada iştirakı yalnız Qəzzada tam və dayanıqlı atəşkəs rejimi qurulduqdan sonra mümkün ola bilər.

Diasporun digər arqumenti ermənilərlə fələstinlilər arasındakı "ənənəvi yaxınlıq" iddiası isə siyasi manipulyasiyanın nümunəsidir. Tarixi-dini bağlara və Qüdsdəki erməni icmasına istinad edilərək yaradılmağa çalışılan mənzərə Ermənistan dövlətinin Fələstin məsələsindəki real siyasəti ilə heç bir əlaqəyə malik deyil. Ermənistan heç vaxt Fələstin xalqının hüquqlarının müdafiəsində fəal rol oynamayıb, onlara əhəmiyyətli siyasi və ya humanitar dəstək göstərməyib. Bunun əksinə olaraq, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi ardıcıl olaraq Fələstin dövlətinin beynəlxalq hüquq əsasında tanınması və Fələstin xalqının öz müqəddəratını təyinetmə hüququnu dəstəkləyən mövqedən çıxış edib. ANCA-nın həmin sentimental və reallıqdanuzaq arqumenti, sadəcə olaraq, Yaxın Şərqdəki ərəb ictimaiyyətinin rəğbətini qazanmaq və Azərbaycanı guya "ərəb işinə xəyanət edən" tərəf kimi göstərmək məqsədi daşıyan yöndəmsiz cəhddir.

Bütün bu arqumentlərin belə nəticəyə gəlmək olar ki, erməni diasporunun əsl məqsədi Fələstin xalqının taleyi və ya Qəzzada sülhün bərqərar olması ilə bağlı deyil. Onların hədəfində birbaşa Azərbaycan dövləti və onun beynəlxalq aləmdəki mövqeləri dayanır.

Əsas hədəflərdən birincisi Azərbaycanın beynəlxalq reputasiyasına xələl gətirməkdir. 44 günlük Vətən müharibəsindəki Zəfərdən və bütün ərazilər üzərində suverenliyin tam bərpasından sonra ölkəmiz beynəlxalq hüququ öz gücü ilə təmin edən, etibarlı və proqnozlaşdırılabilən tərəfdaş kimi imicini möhkəmləndirib. Onun sülhməramlı missiyaya potensial namizəd kimi nəzərdən keçirilməsi də həmin imicin təzahürüdür. Erməni diasporu isə illərdir Azərbaycanı "təcavüzkar" kimi təqdim etməyə çalışır. Azərbaycanın beynəlxalq sülhyaratma prosesində iştirakı yalançı təbliğat maşınını tamamilə darmadağın edir. Məhz buna görə də onlar Azərbaycanın istənilən müsbət beynəlxalq təşəbbüsdə iştirakının qarşısını almağa çalışırlar. Həmin destruktiv fəaliyyət birbaşa məğlubiyyətin əvəzini çıxmaq cəhdindən irəli gəlir.

Kampaniyanın ABŞ-da aparılması və "Politico" kimi Vaşinqton isteblişmentinin (idarə və yaxud təsisatı) yaxından izlədiyi nəşrdə məqalə dərc etdirilməsi təsadüfi deyil, çünki digər mühüm hədəf ABŞ-Azərbaycan münasibətlərinə xələl gətirməkdir. Əsas məqsəd ABŞ-ın siyasi dairələrində Azərbaycanın guya etibarsız və qərəzli tərəfdaş olduğu barədə rəy formalaşdırmaqdır. Xüsusilə, admiral Kuperin səfərindən sonra dərinləşən hərbi-siyasi dialoq fonunda diaspor müsbət dinamikanı pozmağa cəhd göstərir. Bütün siyasi təxribatların arxasında dayanan sonuncu, lakin mühüm səbəb isə maliyyə və siyasi kapitalı qorumaq instinktidir. Erməni lobbi təşkilatlarının fəaliyyəti birbaşa maliyyə ianələrinə və siyasi dəstəyə bağlıdır. Qarabağ münaqişəsinin bitməsi ilə onların "Azərbaycan təhlükəsi" adı altında vəsait toplamaq imkanları kəskin şəkildə məhdudlaşıb. Buna görə də onlar daima gərginlik və münaqişə görüntüsü yaratmağa, yeni "cəbhələr" açmağa çalışırlar ki, mövcudluqlarını və maliyyə axınlarını təmin edə bilsinlər.

ANCA-nın rəhbərlik etdiyi anti-Azərbaycan kampaniyası erməni diasporunun siyasi düşüncəsinin nə qədər köhnəldiyini, reallıqdan uzaqlaşdığını və destruktiv mahiyyət daşıdığını göstərən növbəti hadisədir. Azərbaycanın beynəlxalq sülhyaratma prosesində potensial iştirakına qarşı çıxmaqla regionda sülh və sabitliyin bərqərar olmasına qarşı çıxdıqlarını nümayiş etdirirlər. Lakin onların cəhdləri əvvəlcədən uğursuzluğa məhkumdur. Çünki müasir beynəlxalq münasibətlər dövlətlərin real gücü, strateji mövqeyi və etibarlı tərəfdaşlıqları ilə müəyyən olunur. Erməni diasporunun səs-küylü, amma məzmunca boş kampaniyası Azərbaycanın beynəlxalq statusunu zəiflətməyəcək, əksinə, düşmənlərinin nə qədər aciz vəziyyətə düşdüyünü göstərərək, ölkənin uğurlarının əhəmiyyətini bir daha vurğulayacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Elektoratın yanılmaq şansı yoxdur

## *Ermənilərin seçimi indiki rəhbərliyin deyil, dövlətin taleyini həll edəcək*

**Seçim və yolayrıcı. Ermənistanda gələn ilin iyununda keçiriləcək parlament seçkilərini elektorat üçün məhz bu cür xarakterizə etmək olar. Bu zaman seçim ya indiki iqtidarın sülhə və əməkdaşlığa aparan düzxətli yoluna dəstək, ya da daşnak-revanşist “eks”lərin təklif etdikləri bu yoldan geriyə sərt dönüş arasında edilməlidir. 7 iyun seçkilərinin hay cəmiyyəti və dövləti üçün ölüm-qalım məsələsi olacağı şəksizdir. Buna taleyüklü seçkilər də deyə bilərik. Sülhə gedən yoldan çıxmağın, yaxud geriyə dönüşün Ermənistana nələri yaşadacağını təsəvvürə gətirmək belə çətindir.**

Seçkilərə 7 ay qalmasına baxmayaraq, Ermənistanda siyasi atmosferin xeyli yüksəldiyi göz qabağındadır. İqtidar və yekcins olmayan müxalif düşərgə arasında qarşılıqlı ittihamlar, hədə-qorxular, kompromatlar savaşı hay cəmiyyətinin gündəmini zəbt edib. Baş nazir Nikol Paşinyan Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyanın Qarabağ münaqişəsi və Azərbaycanla sülh münasibətləri ilə bağlı son açıqlamalarına sosial şəbəkə platformalarında münasibət bildirib. Qeyd edib ki, onların sözləri Qarabağ məsələsinin Ermənistanı “ən yaxın ağaca” bağlamaq istəyən müəyyən qüvvələrin əlində alət olduğunu təsdiqləyir. Paşinyanın fikrincə, “xalqların hüquqları” və “tarixi ədalət” kimi məfhumlar, sadəcə olaraq, əsl məqsədlərini gizlədənlərdən ötrü “tüstü pərdəsi” rolunu oynayıb. Baş nazir vurğulayıb ki, müharibədən əvvəl aparılan bütün danışıqlar və təkliflər münaqişənin həllinə deyil, “ipi qısaltmağa”, yəni respublika üzərində kənar nəzarəti gücləndirməyə yönəlib. O, bu siyasətin son məqsədinin erməni dövlətçiliyinin məhv edilməsi olduğunu deyib. Paşinyan söz verib ki, onun dediklərini təsdiqləyən danışıqların sənədləri ilin sonunadək dərc olunacaq. Koçaryan və Sarkisyanı ölkəni “Lenin, Partiya, Qorbaçov” ruhunda yazılmış “KQB ssenarisi”nə qaytarmağa cəhddə ittiham edən baş nazir əminliklə “amma seçkidə gözlədikləri nəticə sıfıra bərabərdir”, – deyib.

Beləliklə, seçkilər yaxınlaşdıqca müxalifət nümayəndələri – revanşizm xəyalından əl çəkmək istəməyən, İkinci Qarabağ müharibəsinin nəticələrini tanımayan, mahiyyət etibarilə Azərbaycanla Paşinyanın başçılıq etdiyi indiki hakimiyyətin sülh müqaviləsi imzalamasında maraqlı olmayanlar arasında düşmənçilik ritorikası güclənməkdədir. Fikrimizcə, qarşıdakı seçkilərin əsas sualları bunlardır: bu gün elektoratın çoxluğu hansı tərəfdədir? Erməni seçicinin rəğbəti keçmiş prezidentlər Koçaryan və Sarkisyana doğru dəyişə bilərmi? Paşinyan revanşistlərin təzyiqlərinə tab gətirməyi, seçkilərdə qalib gəlməyi, baş nazir postunu qoruyub saxlamağı bacaracaqmı?

*

**Politoloq, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin baş müşaviri Tofiq Abbasov** XQ-yə açıqlamasında bil-



dirdi ki, Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca, daxili siyasi mübarizənin gərginləşəcəyi danılmazdır: “Şübhəsiz ki, kompromatlardan, ifşaedici üsullardan və müəyyən şəxslərlə xarici təsir mərkəzləri arasında gizli əlaqələrdə ittihamlardan istifadə olunacaq. Lakin mənim fikrimcə, hazırda üstünlük açıq şəkildə Nikol Paşinyanın tərəfindədir, çünki o, vəziyyətə nəzarət edir və təhlükəsizlik qüvvələrinin loyallığına arxalanır. Bəli, orduda əvvəlki prezidentlərin dövründə formalaşmış müəyyən klaster hələ də mövcuddur, amma komanda heyətinin əksəriyyəti Paşinyana güvənir. Onlar başa düşürlər ki, o, dövlət üçün həqiqi suverenliyə aparan birbaşa yolu açır. Baş nazir Koçaryan və Sarkisyanın Ermənistanı faktiki olaraq zəncirdə saxladığını iddia edərkən haqlıdır. Təsadüfi deyil ki, Paşinyan “mifik Ermənistan” erasının arxada qaldığını, real, həyat qabiliyyətli ölkə modelinin qurulmasının məqamının yetişdiyini vurğulayır. Bu, təkcə siyasi strategiya deyil, həm də Ermənistanı müstəqil və özünəinamlı görmək istəyən vətəndaşların əksəriyyətinin ümidi, arzusu, gözləntisidir”.

Politoloq hesab edir ki, Ermənistan cəmiyyətində revanşist əhval-ruhiyyənin qalması şübhəsizdir: “Amma “Qarabağı itirmək olmaz, Qarabağı qaytarmaq lazımdır” - deyən Koçaryan və Sarkisyanı təkrarlayanların nə qədəri dediklərinə özləri də inanır? Qarabağ sadəcə itirilməyib, o, heç vaxt erməninin olmayıb. Şübhəsiz ki, keçmiş liderlərin – Ermənistanın iki eksprezidentinin revanşist ritorikası əhalinin bir qismini, xüsusən də siyasi seçiminə qərar verməyənləri hələ də çaşdırır. Bununla belə, bu, mümkün deyil. Ermənilər Azərbaycanın daxilində yenidən peyda olsalar belə, bu, yalnız Qarabağda doğulanlar və ya bölgənin yerli sakinləri olacaq. Mən əminəm ki, Nikol Paşinyanın dözümlülüyü seçkilər yaxınlaşdıqca, daha da artacaq. Bütövlükdə, o, öz siyasətini ağıllı şəkildə strateqləşdirir”.

Etiraf etmək lazımdır ki, bu gün Paşinyan nisbətən real və praqmatik inkişaf yolu seçmiş yeganə erməni siyasətçisi olaraq qalır. Sadəcə olaraq, Zəngəzur dəhlizi nə qədər tez işə düşsə, onun mövqeyi bir o qədər möhkəmlənəcək. T.Abbasov onu da vurğuladı ki, Paşinyan siyasi iradə nümayiş etdirib, bu məsələləri yarı yolda qoymasa, özü və ölkəsi üçün ancaq faydası olacaq: “Axı Ermənistan hələ iqtisadi cəhətdən sabit ölkə deyil və obyektiv olaraq regional inteqrasiyaya ehtiyacı var. Təsadüfi deyil ki, Prezident İlham Əliyev dəfələrlə İrəvanı birgə infrastruktur və nəqliyyat layihələrində daha fəal iştirak etməyə çağırıb. Bu, Ermənistan üçün nəzərəçarpacaq iqtisadi fayda verə bilər. İnanıram ki, Nikol Paşinyan revanşist qüvvələrin təzyiqlərinə tab gətirəcək və parlament seçkilərində qalib gələcək.

Onun fəaliyyət planı və prioritetləri rasionaldır və erməni xalqının maraqlarına uyğundur. Biz görürük ki, Azərbaycan Prezidenti İlham Əliyev nə qədər düşünülmüş şəkildə davranır, Qazaxıstan və Rusiyadan Ermənistan yüklərinin tranziti üçün yolun açılmasına göstəriş verir. Nikol Paşinyan da bunu yüksək qiymətləndirdi, çünki buna məhəl qoymamaq mümkün deyildi. Bakının bu addımı Paşinyanın mövqeyini gücləndirir və eyni zamanda, milli biznesə fürsət verir. Ermənistanda dövlət və özəl qurumlar tranzitin açılması sayəsində yeni imkanlar əldə edirlər. Növbəti gediş Ermənistanın əlindədir. Təsadüfi deyil ki, İlham Əliyev İrəvana “ev tapşırığını yerinə yetirməli” olduğunu xatırladıb. Axı, avqustun 8-də Vaşinqtonda paraflanan çərçivə sazişi bir çox cəhətdən kapitulyasiya aktının davamıdır: əsas öhdəliklər Ermənistanın üzərinə düşür. Azərbaycan 2020-ci ildən bütün öhdəlikləri yerinə yetirib, Ermənistan isə daim akademik möhlətlərlə sürünən tələbə kimi borclu qalıb”.



Bəli, Paşinyanın bu öhdəlikləri yerinə yetirməklə ölkəsinin, onun kabinetinin, iqtisadiyyatının gələcəyini müəyyənləşdirəcəyini yaxşı bildiyini deyən ekspert tamamilə haqlıdır. İndi, necə deyərlər, top Ermənistanın meydançasındadır. Yəni hər şey ondan asılıdır. Rəsmi İrəvan bundan ağılla istifadə etməli, ona yaradılan fürsəti düzgün dəyərləndirməli, simasını itirməkdən çəkinməli və Ermənistanın həqiqətən də sülhə hazır olduğunu nümayiş etdirməlidir.

*

Ermənistanda seçkilər yaxınlaşdıqca, “şimal qonşusundan” sifariş almağa adət etmiş müəyyən qüvvələr siyasi vəziyyəti öz xeyrinə dəyişməyə çalışırlar. Sadəcə olaraq, onların başqa çıxış yolu qalmayıb. Daxili resurslardan və real müttəfiqlərdən məhrum olan sərgərdan müxalifət, necə deyərlər, köhnə skeletləri şkafdan çıxarmaqla məşğuldur. Hesab edirik ki, elektorat bir daha öz nüfuzunu və ictimai etimadını itirmiş keçmiş siyasi liderlərin arxasınca getməyəcək. Ermənistanı bütün müstəvilərdə dalana dirəmiş Sarkisyanı və Koçaryanın əkdiklərini biçməyə məcbur olan Nikol Paşinyan ölkəsini həmin dalandan çıxarmağa çalışır. Reallıq da onu deyir ki, son 30 ildə Ermənistan cəmiyyəti dəfələrlə təcrid olunduğu və özbaşına buraxıldığı bir vaxtda ölkəni postsovet keçmişinə qaytarmaq istəyən revanşist qüvvələrə müqavimət göstərib.

Bu gün Ermənistanın qonşuları ilə münasibətləri normallaşdırmaqla beynəlxalq birliyin tamhüquqlu üzvü olmaq, blokadadan çıxmaq və yeni, həqiqətən də maraqlı həyata başlamaq şansı var. Vətəndaşların əksəriyyəti “təhlükəli döngəyə” deyil, daha çox bu yola boylanır. Qarşıdan gələn seçkilər, çox güman ki, revanşizmə və Kremlin dəstəklədiyi tarixin təkərini geri çevirmək cəhdlərinə son qoyacaq.

2026-cı il iyunun 7-də erməni seçicisi təkcə revanşizm və praqmatizm arasında deyil, ən vacibi, qaranlıq keçmişlə işıqlı gələcək arasında seçim etməli olacaq. Onun bu tarixi seçimində yanılmayacağına inanmaq istərdik.

***İmran BƏDİRXANLI***
***XQ***

# “Qoca qitə”nin geosiyasi düzəninin yeni görüntüsü

## *FCAS Avropanın müdafiə arxitekturasını necə dəyişəcək?*




**Avropanın strateji avtonomiyası son illərin ən çox müzakirə olunan siyasi tezisinə çevrilib. Ukraynada davam edən müharibə, Şərqi Avropada qeyri-müəyyənlik, NATO daxilində siyasi və hərbi yükün bərabər bölüşdürülməsi ilə bağlı mübahisələr “qoca qitə”ni öz təhlükəsizlik çətirini yenidən qurmağa məcbur edir. Bu çərçivədə Fransa, Almaniya və İspaniyanın birgə həyata keçirdiyi “Gələcəyin Döyüş Aviasiya Sistemi” (FCAS) layihəsi qitənin müdafiə qabiliyyətinin yenidən formalaşdırılması baxımından həlledici addım kimi qiymətləndirilir.**

Yada salaq ki, danışıqlar Fransada siyasi böhran səbəbindən bir müddət səngimişdi. Növbəti həftələrdə planlaşdırılan nazirlər səviyyəsində görüşlər üç ölkənin sənaye və siyasi fərqliliklərini aradan qaldırmaqla layihənin növbəti mərhələsinə keçidi təmin edəcək. Həmin mərhələdə “uçan nümayişçi” modelin hazırlanması nəzərdə tutulub ki, bu da layihənin real texnoloji test mərhələsinə qədəm qoyacağından xəbər verir. Görünür, Avropa İttifaqı müdafiə sahəsində qeyri-adekvat imkanlara malik olduğunun fərqinə varıb. Ümumiyyətlə, ABŞ-ın NATO çərçivəsində Avropanın təhlükəsizlik yükünü təkbaşına daşıması uzun müddət rahat geosiyasi şərait yaratmışdı. Lakin bu balansın uzunmüddətli olmayacağı əvvəldən məlum idi. Çünki Amerikanın geosiyasi diqqəti artıq Çin və Hind-Sakit okean regionuna yönəlib. Bu isə Avropanı məsuliyyəti öz üzərinə götürməyə vadar edir. Məhz bu çərçivədə FCAS irəliyə atılan ən vacib addımlardan biri hesab olunur. Layihə Avropanın müdafiə sənayesinin müxtəlif seqmentlərini vahid platforma ətrafında birləşdirməklə hərbi aviasiya sahəsində yeni nəsil texnologiyaların inkişafını hədəfləyir. Süni intellektlə idarə olunan “dron ordusu”, şəbəkə mərkəzli döyüş sistemləri, yüksək gizlənmə qabiliyyətli qırıcılar gələcək döyüş meydanının əsas elementləri hesab olunurlar.

İndiki məqamda Abbasqulu Ağa Bakıxanovun sözü ilə desək, “məsələlər məlum olmur, hər şeydə var bir əmma”. Elə FCAS-ın reallaşdırılması prosesində bir sıra əmmalar, daha dəqiq desək, fikir ayrılıqları mövcuddur. “Dassault Aviation” və “Airbus” konsorsiumu arasında liderlik mübarizəsi buna misaldır. Fransa təyyarənin əsas dizayn və idarəetmə hissələrinin nəzarətinin “Dassault Aviation”da qalmasını istəyir. Almaniya və İspaniya isə daha balanslı sənaye paylanmasının tərəfdarıdır. Hətta rəsmi Berlin son vaxtlar Fransanı layihənin texnoloji liderliyini ələ keçirməyə çalışmaqda ittiham edir. Bu mübahisə, əslində, Avropanın dərin sənaye reallıqlarının növbəti əyani göstəricisidir. Qitənin hərbi sənayesi uzun illərdir ki, parçalanmış şəkildə fəaliyyət göstərir. FCAS bu parçalanmanı aradan qaldırmaq məqsədi daşısa da, siyasi maraqlar və sənaye hegemonluğu iddiaları prosesin ləngiməsinə səbəb olur. Lakin bu ölkələrin hər biri anlayır ki, Avropa 2040-cı ildən sonra səmada özünümüdafiəyə tam şəkildə hazır olmalıdır. FCAS ətrafında gedən müzakirələr də Avropanın öz təhlükəsizliyini təmin etməkdə daha iddialı mövqeyə keçdiyini göstərir. Layihə hərbi aviasiyanın modernləşməsi ilə yanaşı, yeni geosiyasi arxitekturanın qurulmasına xidmət edir. Bununla qitə ilk dəfə olaraq qlobal təhlükəsizlik sistemində texnoloji və siyasi liderlik iddiası irəli sürür. Prosesin, eyni zamanda, Avropanın enerji, kibertəhlükəsizlik, sərhəd müdafiəsi və kosmik nəzarət sahələrində öz imkanlarını genişləndirməsi ilə paralel həyata keçirilməsi planlaşdırılıb. FCAS isə multidissiplinar müdafiə strategiyasının hava komponenti kimi Avropanın təhlükəsizlik çətirinin ən kritik sütunlarından biri olacaq.

Yeri gəlmişkən, Almaniyanın müdafiə naziri Boris Pistoriusun yaxın günlərdə Parisdə fransalı həmkarı Ketrin Votren ilə görüşü planlaşdırılır. Pistorius hələ ötən həftə jurnalistlərə bildirmişdi ki, üçtərəfli görüş üçün yeni tarix müəyyən edilməsə də, ilin sonuna qədər layihənin növbəti mərhələsi üzrə qərarın qəbulu mütləqdir. Nazir, eyni zamanda, məsələni fransalı həmkarı ilə müzakirə etdiyini və Votrenin layihəni davam etdirmək niyyətində olduğunu diqqətə çatdırıb. İspaniyanın müdafiə naziri Marqarita Robleslə keçirdiyi görüşdən danışan Votren, öz növbəsində, Fransanın hazırkı “Rafale” qırıcılarının 2040-cı ilə qədər əvəzlənməli olduğunu nəzərə alaraq layihənin irəli aparılmasının əhəmiyyətini vurğulayıb. Çünki həmin ildən etibarən qlobal güc balansının daha da dəyişəcəyi, Çin və ABŞ arasında hərbi texnologiya yarışının yeni səviyyəyə çatacağı gözlənilir. Belə olan halda, Avropa öz təhlükəsizlik boşluğunu doldurmasa, nə NATO-ya tam arxalana, nə də regional böhranlara müstəqil cavab verə biləcək.

Sonda qeyd edək ki, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen uzun illərdir Avropanın öz təhlükəsizlik sistemini gücləndirməsinin zəruri olduğunu deyirdi. O, həm Almaniyanın müdafiə naziri olduğu dövrdə, həm də Brüsseldəki fəaliyyəti boyu davamlı şəkildə bildirirdi ki, Avropa artıq sadəcə transatlantik təminata arxalanmaqla kifayətlənə bilməz. Onun “Avropa Qalxanı”, “Təhlükəsizlik Birliyi”, “Avropanın öz təhlükəsizlik çətiri” kimi tezisləri məhz bu ideyanın ətrafında formalaşmışdı. FCAS məhz bu strateji çərçivənin konkretləşmiş formasıdır. Çünki layihə həm də kontinentin təhlükəsizlik sistemini tamamilə yenidən qurmaq məqsədi daşıyır. Fon der Lyayen dəfələrlə vurğulamışdı ki, özünü müdafiə edə biləcək real hərbi gücə sahib olmadan siyasi suverenlikdən danışmaq mümkün deyil. Sözügedən yanaşma hazırda Fransa, Almaniya və İspaniyanın FCAS üzərində qarşılıqlı anlaşma axtarışları ilə tam üst-üstə düşür. FCAS layihəsinin yenidən aktivləşdirilməsi fon der Lyayenin Avropa üçün təsvir etdiyi “müstəqil müdafiə dayaqları” tezisinin vacib komponentinə çevrilir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Fransa, Almaniya və İspaniya arasında “Gələcəyin Döyüş Hava Sistemləri” (FCAS) layihəsi üzrə danışıqların yenidən aktivləşməsi Avropanın müdafiə strategiyasının kritik mərhələlərindən birinə işarə edir. Çünki FCAS Avropanın hava döyüş doktrinasını, kəşfiyyat-idarəetmə sistemlərini, pilotsuz şəbəkələrin inteqrasiyasını və ən əsası, qitənin strateji müstəqillik ambisiyasını formalaşdıran konsepsiyadır. Bu baxımdan layihə ətrafında yaranan ziddiyyətlər bütövlükdə “qoca qitə”nin təhlükəsizlik arxitekturasının hansı dərəcədə həssas durumda olduğunu açıq şəkildə göstərir. FCAS-da əsas gərginlik Fransa ilə Almaniya arasında pay bölgüsü və liderlik məsələlərindən qaynaqlanır. Fransa layihədə müəyyənedici rol tələb edir və texnoloji üstünlüyünü qorumağa çalışır. Almaniya isə öz şirkətlərinin daha geniş pay almasını və qərarların kollektiv şəkildə qəbul edilməsini istəyir. İspaniya bu qarşıdurmada balanslaşdırıcı mövqe tutur, layihənin davam etdirilməsinin vacibliyini vurğulayır və Avropanın müdafiə sənayesində öz yerini möhkəmləndirməyə can atır. Bu fikir ayrılıqları Avropa müdafiəsinin fundamental struktur problemini, yəni vahid strateji qərar mexanizminin olmamasını açıq şəkildə üzə çıxarır. Danışıqlardakı ləngimələr, idarəetmə mübahisələri Avropanın təhlükəsizliyi üçün real risk yaradır. Ukrayna müharibəsi göstərdi ki, qitə uzunmüddətli münaqişə üçün nəzərdə tutulmuş hərbi və sənaye infrastrukturuna malik deyil. Müxtəlif ölkələrin paralel silah proqramlarına sərmayə qoyması və ortaq layihələrdə razılaşmaların çətinliyi qitənin müdafiə qabiliyyətini zəiflədir. ABŞ-ın getdikcə daha çox Asiya-Sakit okean regionuna fokuslanması da Avropanın öz təhlükəsizliyini təmin etmək üçün daha çox təşəbbüs göstərməsini zəruri edir. Bu şəraitdə FCAS kimi layihələrin dayanması və ya ləngiməsi Avropanın strateji müstəqillik ambisiyalarına ciddi zərbə olar. Odur ki, danışıqların bərpa edilməsi qitənin təhlükəsizlik risklərini dərk etdiyini və onları aradan qaldırmaq niyyətində olduğunu göstərir. Fransa və Almaniya başa düşür ki, FCAS-ın çökməsi Avropa müdafiə inteqrasiyasının sütunlarından birinin dağılmasına gətirib çıxara bilər. İspaniyanın aktiv iştirakı da Avropanın bu sahədə təşəbbüskarlığını qorumağa çalışdığını təsdiqləyir.

Nəticə olaraq deyə bilərik ki, FCAS ətrafında gedən proseslər Avropanın təhlükəsizliyinin həssas durumda olduğunu açıq şəkildə göstərsə də, müzakirələrin yenilənməsi və kompromis axtarışları qitənin öz təhlükəsizlik modelini gücləndirmək üçün iradə nümayiş etdirdiyini ortaya qoyur.

*17 Noyabr Milli Dirçəliş Günüdür*

# Bu gün bizə həm də 3 tarixi faktı xatırladır

## *Bir neçə il fərqlə qeydə alınan qərarlarn noyabrın 17-nə düşməsi, sadəcə, təsadüf idi*

**Son üç-dörd onillikdə keçdiyimiz tarixi yol, yaşadığımız ağlı-qaralı günlər, ağır məhrumiyyətlərdən xilas olmaq üçün apardığımız mübarizələr, millət kimi şahidi olduğumuz qanlı və şanlı olaylar bizə daha bir neçə əlamətdar gün və bayram bəxş edib. Aşağıda bu bərədə söz açacağıq. Onu da yada salacağıq ki, həmin əlamətdar günlərin üçü məhz noyabrın 17-nə təsadüf edir.**



"Azərbaycan Respublikasının bayramları" adlı rəsmi məlumatda doqquzuncu sırada dayanan Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü noyabrın 9-da qeyd edilsə də, Prezident sərəncamı ilə noyabrın 17-də rəsmiləşdirilib. Həmin sırada 11-ci yerdə olan Milli Dirçəliş Günümüz də noyabrın 17-də qeyd olunur. Bundan başqa, milli dövlətçiliyimizin dirçəliş prosesinin hüquqi əsaslarının yaradılmasına məhz 17 noyabr 1990-cı ildə Ulu öndərimizin rəhbərliyi ilə Naxçıvandan başlanmışdır. O dövrdə Heydər Əliyevin Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqillik tariximizdə mühüm mərhələ təşkil edir. Yəni noyabrın 17-si bizim üçün bir neçə cəhətdən əlamətdardır.

Bəzi detallara diqqət yetirək. Dövlət Bayrağı Günü Prezident İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli "Azərbaycan Respublikası Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncamı ilə təsis edilib. Həmin il dekabrın 4-də Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib. Xatırladaq ki, Azərbaycanın Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Demokratik Respublikası hökumətinin iclasında qəbul edilib. 1920-ci ilin aprelində Cümhuriyyətin süqutundan sonra endirilən üçrəngli bayrağımız 70 il sonra – 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyanın qərarı ilə Naxçıvan Muxtar Respublikasında yenidən ucaldılıb.

Biz noyabrın 17-ni həm də Milli Dirçəliş Günü kimi bayram edirik. Doğrudur, Milli Dirçəliş mübarizəmiz 1988-ci ildən başlayib. Ancaq Azərbaycan rəhbərliyi həmin tarixi 1992-ci ildə rəsmi olaraq bayram kimi elan edib.

Hamının yadındadır, SSRİ rəhbərliyinin apardığı bağışlanılmaz siyasi səhvləri (sonradan həmin səhvlər 20 Yanvar soyqırımı kimi siyasi-hərbi əməliyyatlar səviyyəsinə "qaldırılmışdı"), xüsusən, iki əsr əvvəl Çar Rusiyasına, sonra isə sovet dövlətinə işğal, ilhaq nəticəsində zorən birləşdirilmiş ölkələrin əhalisi arasında milli ayrı-seçkilik siyasəti bütün xalqların səbir kasasını daşırırdı. Azərbaycan isə təkcə milli ayrı-seçkilik faktları ilə deyil, həm də ölkə ərazisinin qanunsuz olaraq başqa xalqa verilməsi kimi ədalətsizliklə üz-üzə idi. Kreml rəhbərləri, sözün həqiqi mənasında, Azərbaycan başda olmaqla, bütün türk xalqları və dövlətləri üçün monstra çevrilmişdi.

Bu etirazların kökü dərində olsa da, (Heydər Əliyev ölkəmizə birinci dəfə rəhbərlik edəndə ermənilər Kremldəki himayədarlarının köməyi ilə Azərbaycan ərazilərinin xeyli hissəsinə sahiblik etməyə çalışmış, lakin Heydər Əliyevin qətiyyəti qarşısında geri çəkilməli olmuşdular) əsas həyasızlıqlar ötən əsrin səksəninci illərinin sonuna yaxın baş verirdi. Ona görə də 1988-ci il noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında (keçmiş Lenin meydanı) Azərbaycan xalqının uzunmüddətli etiraz mitinqləri keçirilmişdi. Noyabrın 17-dən dekabrın 5-dək davam edən etiraz aksiyaları ölkənin, demək olar ki, bütün ərazilərində möhtəşəm əks-səda vermişdi.

Xalqın azadlıqsevər insanlarının və aydın düşünə bilən ziyalılarının rəhbərliyi ilə reallaşdırılan 17 noyabr mitinqinin tələbləri o zamankı siyasi ab-hava fonunda olduqca cəsarətli idi. Bildirilirdi ki, Azərbaycan hökuməti iqtisadi əlaqələri kəsəcəyi haqqında Ermənistana qəti xəbərdarlıq etməlidir. Tələb edilirdi ki, televiziya birbaşa canlı yayımla sübut etsin ki, Topxanada nə işlər görülür (xatırladaq ki, Şuşa yaxınlığındakı Topxana meşəsinin bugünkü reallıqları bütün türk dünyasının qürur mənbəyinə çevrilib).

Etirazçılar, eyni zamanda, tələb edirdilər ki, Dağlıq Qarabağ Muxtar Vilayətində partiya və sovet orqanları buraxılmalıdır. Orada Azərbaycanın hüquqi, siyasi və iqtisadi normaları bərpa edilməlidir (həmin muxtar vilayətin partiya və sovet orqanlarının əyləşdiyi, sonradan separatçı rejimə verilmiş bütün bina və obyeklər bu gün qurub–yaradan Azərbaycan xalqının ixtiyarındadır). Yəni xalqımızın 37 il bundan əvvəl – 1988-ci il noyabrın 17-də tələb etdiyi kimi, orada Azərbaycanın hüquqi, siyasi və iqtisadi normaları bərpa edilib.

Xatırlatdığımız kimi, 17 noyabr mitinqində olduqca ciddi tələblər irəli sürülürdü. Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antia–Azərbaycan siyasəti yeridən qurumun ləğv edilməsi, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyaların tətbiqi Azərbaycandan olan deputatların SSRİ Ali Soveti sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblərdən idi. Bu tələblər Azərbaycan rəhbərliyini qane edirdi, lakin hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə etirazçılar tələbləri yerinə yetirilməyincə, meydanı tərk etməyəcəklərini bildirirdilər.

Ancaq həmin tələblər arasında bir ifadə var idi ki, o zaman həmin sözü dilə gətirmək olduqca çətin idi. Mitinq iştirakçıları Azərbaycan üçün Suverenlik tələb edirdilər. Azərbaycan Prezidenti İlham Əliyev və Mill Ordumuz bütöv bir xalqın dəstəyi ilə işğal altında olan Qarabağda və ətraf ərazilərdə suverenliyimizi 2023-cü ilin sentyabrında tam bərpa etdi. Biz həm də suverenliyimizin əbədi olmasını təmin etdik.

Sonralar Qərbin SSRİ-dən zəhləsi gedən müxtəlif mətbuat vasitələrində Azərbaycan xalqının 17 noyabr 1988-ci il mitinqi və həmin siyasi aksiyanın ardınca baş verən proseslər yüksək səviyyədə təqdir olunurdu. O zaman oxumuşduq ki, "Newsweek" jurnalının 25 dekabr 1989-cu il buraxılışının üz qabığında bizim haqqımızda "Standing up for freedom People of the Year" sözləri yazılmışdı. Mətbu nəşrin həmin nömrəsini görən həmkarlarımız yazırdılar ki, jurnalın üz qabığında doğrudan da Bakının şəkli verilib və "People of the Year" (İlin xalqı) yazılıb. Amma jurnalın içində Azərbaycanın "İlin xalqı" elan olunması və ya ümumiyyətlə, Azərbaycan haqqında heç bir şey yazılmayıb.

Qərəz, bir zamanlar oxuduğum "Azadlığı heç kəsə vermirlər. Azadlığa onu sevənlər mübarizə yolu ilə nail olurlar!" – deyən ifadəsinin aqil müəllifi kim olubsa, unutmuşam. Ancaq bizi azadlığa qovuşduran mərd mübarizlərimizi, canını əsirgəməyən fədailərimizi, Vətən üçün qurban getməyə hazır olan siyasətçi, ziyalı, hərbçi və sadə azərbaycanıları heç zaman unutmayacağıq və unuda bilmərik.

Milli Dirçəliş Günün mübarək, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# İran "yeddilər"i ikiüzlülükdə ittiham etdi




## *Rəsmi Tehran "G7"nin tələblərini siyasi təzyiq sayır*

**"Böyük yeddilik" ("G7") ölkələrinin xarici işlər nazirləri İranı ABŞ ilə birbaşa danışıqlara başlamağa çağırıb. Kanadanın Ontario şəhərində keçirilən ikigünlük görüşün sonunda qəbul olunmuş bəyanatda vurğulanır ki, Tehran MAGATE ilə əməkdaşlığı tam bərpa etməli, beynəlxalq nəzarət mexanizmlərinin, o cümlədən nüvə obyektlərində yoxlamaların əvvəlki kimi davam etdirilməsinə şərait yaratmalıdır. Sənəddə xüsusi olaraq qeyd olunur: "Biz İranı ABŞ-la, eləcə də "Avropa üçlüyü" (Böyük Britaniya, Fransa və Almaniyanın) dəstəyi ilə aparılacaq birbaşa danışıqlara qatılmağa çağırırıq".**

Qeyd edək ki, bu ilin avqust və sentyabr aylarında İranla "üçlük" arasında bir sıra görüşlər keçirilib. Danışıqlarda əsas diqqət İranın nüvə proqramına yönəlib. Görüşlər zamanı "üçlük" Tehrana 3 əsas təklif irəli sürüb. Bu təkliflərdən birincisi, nüvə fəaliyyətinin tam dayandırılması, ikincisi, 400 kiloqramdan artıq zənginləşdirilmiş uranın saxlanıldığı yer barədə məlumatın açıqlanması, üçüncüsü nüvə proqramı üzrə ABŞ-la birbaşa danışıqlara başlanılmasıdır. Bildirilib ki, bu təkliflərin məqsədi həm regionda gərginliyin azaldılması, həm də İranın nüvə fəaliyyəti ilə bağlı şəffaflığın təmin edilməsidir.

Bu çağırışa İranın cavabı çox gecikməyib. İran Xarici İşlər Nazirliyi "Yeddilər qrupu"na daxil olan ölkələrin Tehrandan MAGATE ilə əməkdaşlıq tələbini sərt tənqid edib. Nazirliyin açıqlamasında deyilir ki, bu tələblər ABŞ və İsrailin bölgədə böhranın eskalasiyasındakı açıq rolunu görməzlikdən gəlməklə riyakarlığın nümunəsidir. İran tərəfi xüsusilə, Avropa ölkələrinin BMT Təhlükəsizlik Şurası vasitəsilə anti-İran sanksiyalarını bərpa etmək cəhdlərini və nüvə sazişi JCPOA-nın (İran Nüvə Proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planı) mübahisələrin həlli mexanizmlərindən sui-istifadəsini qınayıb. Nazirlikdən bildirilib ki, Qərbin çağırışları birtərəfli yanaşmadan doğur və böhranın əsas səbəblərini görməzdən gəlir. Bu səbəblər isə ABŞ-ın 2018-ci ildə JCPOA-dan çıxması və İsrailin İran ərazisinə yönəltdiyi hücumlarıdır.

Yada salaq ki, İsrailin iyunun 13-də başlatdığı hücumlar, ardınca ABŞ-ın Fordo, Natanz və İsfahan kimi strateji nüvə mərkəzlərinə endirdiyi zərbələr İranın nüvə infrastrukturuna böyük zərər vurub. ABŞ Prezidenti Donald Tramp bu obyektlərin məhv edilməsini İranın nüvə proqramının "tam ləğvi" kimi qiymətləndirsə də, İran rəsmiləri vəziyyətin belə olmadığını bildirirlər. Xarici işlər naziri Abbas Əraqçinin sözlərinə görə, İranın zənginləşdirilmiş uranının böyük qismi zərbələr nəticəsində dağılmış obyektlərin altında qalıb və hansı hissəsinin yararlı olduğu barədə dəqiq məlumat yoxdur. Əraqçi uranın zənginləşdirilməsi texnologiyasının "məhv edilmədiyini" vurğulayıb: "Müharibədən əvvəl biz onlara (zənginləşdirilmiş urana) toxunmadıq. Onların əksəriyyəti yer altındadır, daha doğrusu, demək olar ki, hamısı yerin altındadır və lazımi şərait yaradılana qədər orada qalacaqlar". O, buna baxmayaraq, uranın zənginləşdirilməsi proqramının yenidən qurulması üçün iradənin tam olduğunu vurğulayıb.

MAGATE rəhbəri Rafael Qrossinin açıqlamaları da mövcud vəziyyətin mürəkkəbliyini təsdiqləyib. O bildirib ki, MAGATE iyun ayından sonra İranda bir neçə yoxlama həyata keçirib, lakin ən mühüm nüvə obyektləri olan Fordo, Natanz və İsfahana giriş icazəsi verilməyib. Agentlikdən bildirilib ki, 60 faiz səviyyəsində zənginləşdirilmiş 400 kiloqram uranın yeri onlara məlum deyil. Bu fakt beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq yaradır. Tehran isə bunu bölgədəki təhlükəsizlik riskləri və obyektlərin hücuma məruz qalması ilə izah edib.

Belə bir şəraitdə "G7" ölkələrinin İranı MAGATE ilə əməkdaşlığı bərpa etməyə çağırması Tehranda birmənalı qarşılanmayıb. İranın mövqeyinə görə, ölkəyə qarşı sanksiyaların bərpa olunmasına yönəlmiş addımlar Qərbin öz öhdəliklərini pozduğunu göstərir və bu şərtlər altında "G7"nin Tehrana qarşı tələbləri siyasi təzyiqdən başqa bir şey deyil.

Digər tərəfdən, ABŞ-ın həyata keçirdiyi sanksiya paketi Vaşinqtonun Tehrana qarşı "maksimum təzyiq" siyasətini davam etdirdiyini göstərir. ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsinin (OFAC) İran, BƏƏ, Çin, Honkonq, Hindistan, Almaniya və Ukraynadan olan, İranda ballistik raketlər və pilotsuz uçuş aparatlarının (PUA) istehsalı üçün komponentlərin alınmasında iştirak edən 32 fiziki və hüquqi şəxsə qarşı sanksiyalar tətbiq etməsi Vaşinqtonun İranın hərbi potensialını məhdudlaşdırmaq və ölkənin maliyyə kanallarını zəiflətmək niyyətindən xəbər verir. Ağ Ev İranı qlobal maliyyə sistemindən təcrid etməyə çalışdığını gizlətmir və bu fəaliyyətini BMT Təhlükəsizlik Şurasının 2025-ci ildə yenidən sanksiyaları bərpa etmək istiqamətində mümkün qərarlarının öncədən hazırlanmış mexanizmi kimi qiymətləndirir.

Bütün bu təzyiqlərə baxmayaraq, ABŞ-ın İranla üçüncü ölkələr vasitəsilə danışıqlara dair ziddiyyətli siqnallar göndərməsi Vaşinqtonun məqsədlərinin hələ də tam aydın olmadığını göstərir. İranın xarici işlər nazirinin müavini Səid Xətibzadə bildirib ki, Tehran dinc nüvə proqramının tərəfdarı olsa da, milli təhlükəsizlik məsələlərində geri addım atmayacaq. Bu, Tehranın danışıqlar masasına yalnız real və qarşılıqlı təminatlara əsaslanan təkliflər qarşılığında qayıda biləcəyini göstərir.

Bütün bu proseslərin fonunda JCPOA-nın gələcəyi qeyri-müəyyən görünür. Sazişin əsas dayaqları olan qarşılıqlı etimad, hüquqi mexanizmlər və MAGATE nəzarəti son illər ərzində xeyli zədələnib. İranın MAGATE ilə əməkdaşlığı məhdudlaşdırması, Qərbin İrana qarşı sərtləşən mövqeyi və regionda davam edən hərbi gərginlik diplomatik həll imkanlarını zəiflədib. İran və Qərb arasında qarşılıqlı ittihamların artması göstərir ki, tərəflər arasında yaranmış etimad çatları qısa müddətdə aradan qaldırıla bilməz.

Beləliklə, bu gün Yaxın Şərq yeni nüvə qeyri-müəyyənliyi dövrünə qədəm qoyur. MAGATE-nin əsas obyektlərə giriş əldə etməməsi, zərbələrdən sonra zənginləşdirilmiş uranın taleyi ilə bağlı ortaya çıxan suallar və İranın yenidən qurmaq istədiyi nüvə potensialı regionda təhlükəsizlik balansını daha da kövrəkləşdirir. Mövcud mənzərə göstərir ki, tərəflər diplomatik iradə nümayiş etdirmədikcə, böhran siyasi bəyanatlardan kənara çıxaraq daha ciddi nəticələr doğura bilər.

İran ilə Qərb arasında qarşıdurmanın növbəti mərhələsinin hansı istiqamətdə inkişaf edəcəyi Vaşinqton və Tehranın yaxın aylarda atacağı addımlardan asılı olacaq. Vaşinqtonun nüvə proqramı üzrə danışıqları bərpa etmək çağırışına cavab olaraq İranın xarici işlər naziri əvvəlcə bildirmişdi ki, Tehran danışıqlar üçün ABŞ-dan gələcək "məntiqi, ölçülmüş və ədalətli təklif"i nəzərdən keçirə bilər, lakin uranın zənginləşdirilməsindən imtina etmək niyyətində deyil. Onun sözlərinə görə, İran dinc məqsədlər üçün nüvə razılaşmasının tərəfdarı olsa da, milli təhlükəsizlik məsələlərində güzəştə getməyəcək. Bununla belə, Tehran ölkənin nüvə silahı əldə etməyə çalışmadığı ilə bağlı mövqeyini bir daha təsdiqləyib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Asiya İnkişaf Bankı ilə əməkdaşlığın yeni hədəfləri

*Bu maliyyə qurumu Azərbaycanın modern infrastrukturuna yatırımı artırır*

**Prezident İlham Əliyevin Asiya İnkişaf Bankının prezidenti Masato Kandanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü Azərbaycanın beynəlxalq maliyyə qurumları ilə tərəfdaşlığında yeni mərhələ kimi qiymətləndirilə bilər.**



Görüş zamanı vurğulandı ki, artıq 25 ilə yaxındır Azərbaycanla Bank arasında formalaşmış əməkdaşlıq strateji inkişaf xətti kimi çıxış edir. Bu illər ərzində AİB nəqliyyat, enerji, su təchizatı, təhsil, səhiyyə və digər sahələri əhatə edən 145 layihə üzrə ölkəyə ümumilikdə 5,5 milyard dollardan çox investisiya yönəldib.

Nümayəndə heyətinin qəbulu əməkdaşlığın konturlarını da müəyyənləşdirdi. Dəmir yolu infrastrukturunun yenilənməsi, Bakı metrosunun genişləndirilməsi, eləcə də su təchizatı sistemlərinin təkmilləşdirilməsi üzrə yeni layihələrin nəzərdən keçirildiyi bildirildi. Bu istiqamətlər qarşıdakı illərdə Azərbaycan–AİB tərəfdaşlığının əsas inkişaf xəttini təşkil edəcək.

Xatırladaq ki, 1999-cu ildə AİB-ə üzv olduqdan bəri Azərbaycan və Asiya İnkişaf Bankı birgə əməkdaşlığı genişləndirib. Bu investisiyaların böyük hissəsi energetika, nəqliyyat və dövlət sektorunun idarə edilməsi sahələrinə yönəlib. Hazırda AİB-in ölkədəki portfelində əsasən nəqliyyat infrastrukturu istiqamətində 3 kredit xətti və 6 texniki yardım layihəsi fəaliyyət göstərir. Ümumilikdə, AİB və Azərbaycan strategiya xarakterli əməkdaşlıq aparır. Bank "Ölkənin Şaxələndirilməsi və İnkişafı" strategiyasına uyğun olaraq özəl sektorun inkişafını, fiskal və maliyyə idarəetməsini gücləndirməyi, eləcə də infrastruktur və insan kapitalının inkişafını prioritetlərində saxlayır.

2019–2024-cü illərdə AİB-in Azərbaycandakı layihələri funksionallığı ilə seçilir. 2024-cü ildə ölkənin əsas dəmir yolu marşrutu – Bakı–Sumqayıt–Yalama xətti – çərçivəsində 166 km rels ikili xəttin yenidən qurulması üçün 131,5 milyon ABŞ dolları ayrılıb. Eyni zamanda 2024-cü ilin payızında Azərbaycan Dəmir Yollarının rəqəmsal transformasiyası (əsas idarəetmə proseslərinin müasir İT texnologiyaları ilə təkmilləşdirilməsi) layihəsi üçün 47 milyon dollar kredit təsdiq edilib. Bu təşəbbüslər respublikanın Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizində təhlükəsizliyin, etibarlılığın və səmərəliliyin yüksəldilməsinə yönəlib.

Kənd təsərrüfatı və özəl sektorun dəstəyi də burada önəmli yer tutur. AİB son illərdə kiçik fermerlərə və kənd təsərrüfatı sahibkarlığına çıxışı asanlaşdırmaq məqsədilə maliyyə resursları ayırıb. 2021-ci ildə isə Aqrar Kredit və İnkişaf Agentliyi ("Avrora" şirkəti) vasitəsilə kənd təsərrüfatı məhsullarının bazara çıxışını təkmilləşdirən 5,9 milyon dollarlıq kredit layihəsi həyata keçirilib. Bu təşəbbüslər özəl sektorun innovativ layihələrinə dəstək verir.

Bununla yanaşı, dövlət sektorunun effektivliyi və sosial proqramlarda da Asiya İnkişaf Bankının adını görmək mümkündür. 2021-ci ildə COVID-19 pandemiyasının təsirini azaltmaq üçün Azərbaycan hökumətinin bərpa planına dəstək məqsədilə 250 milyon dollar həcmində strateji kredit verilib. Bu kredit pandemiya dövründə sosial müdafiə tədbirlərinin gücləndirilməsinə, aztəminatlı əhaliyə kömək göstərilməsinə və iqtisadi bərpanın təmin olunmasına yönəlib. Bununla yanaşı, ərzaq təhlükəsizliyi və yoxsulluğun azaldılması üçün vacib olan yeni texnologiyaların tətbiqinə texniki yardımlar da ayrılıb.

ADB–Azərbaycan əməkdaşlığı gələcəkdə daha da genişlənəcək. 2025–2029-cu illəri əhatə edən yeni Ölkə Tərəfdaşlıq Strategiyasında ADB əsasən iqtisadiyyatın "yaşıl" və şaxələndirilmiş modellərini, aşağı-karbonlu infrastrukturun qurulmasını və inklüziv inkişafa yönəlmiş layihələri prioritetləşdirir. Yeni strategiya innovasiya, yüksək əlavə dəyərli məhsul və xidmətlərin inkişafı, eləcə də peşəkar insan kapitalının artırılması kimi sahələri də nəzərdə tutur. Banl nəticələri təkcə ÜDM artımı ilə ölçmək əvəzinə, əhalinin rifahı, ətraf mühitin qorunması, gender bərabərliyi və rəqəmsal transformasiya baxımından da qiymətləndirəcək. Beləliklə, bank Azərbaycana davamlı inkişaf, iqlim dəyişikliyi ilə mübarizə və regionda inteqrasiyanın gücləndirilməsində səylərini artırmaq niyyətindədir.

***Nurlan ABDALOV***
***XQ***

# KOBİA-nın uğur modeli

*Ölkənin biznes xəritəsini dəyişən önəmli keçid*

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Avropa İttifaqının dəstəyi ilə hazırlanan "EU Business Climate Report: Azerbaijan 2024" hesabatında bütün dövlət qurumları arasında səmərəlilik üzrə birinci sırada yer alıb. Bu nəticə Azərbaycan iqtisadiyyatında KOB sektoruna yönəlmiş son illərin ardıcıl siyasətinin kağız üzərində yox, həyatda gerçəkləşməsinin mühüm göstəricisidir. İstər sahibkarlıq mühitinin modernləşdirilməsi, istər institusional xidmətlərin çevikləşdirilməsi, istərsə də regionlarda biznesin dəstəklənməsi baxımından KOBİA artıq ölkədə yeni idarəetmə mədəniyyətinin formalaşmasına rəhbərlik edən aparıcı qüvvə kimi çıxış edir.**




Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi barədə dönüş son illərdə KOBİA-nın hədəfli fəaliyyəti nəticəsində real göstəricilərə çevrilməyə başlayıb. Agentliyin tətbiq etdiyi mexanizmlər biznesə yalnız formal dəstək deyil, həm də praktik üstünlüklər gətirir. Xidmətlər daha operativ və şəffafdır, sahibkarın dövriyyəsinə, məşğulluğuna, investisiya marağına birbaşa təsir edən proqramlar genişlənir, regionlarda iqtisadi aktivlik yüksəlir, startap mühiti əvvəlki illərlə müqayisədə daha canlıdır və daha çox gənc məhz KOBİA-nın dəstəyi ilə biznes mühitinə daxil olur.

İqtisadi göstəricilər də bu ahəngdar keçidi təsdiqləyir. KOB-ların qeyri-neft sektorunun ümumi strukturunda payının artması, regionlarda biznes qeydiyyatında canlanma və bir sıra sahələrdə yerli istehsalın genişlənməsi KOBİA-nın fəaliyyətinin təsadüfi təsir deyil, sistemli nəticə olduğunu göstərir.

Təsadüfi deyil ki, bu ilin yanvar–oktyabr aylarında Azərbaycanın qeyri-neft-qaz sektoru üzrə ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz artaraq 3 milyard ABŞ dolları təşkil edib. Son 1 ildə ölkənin yeyinti məhsullarının ixrac dəyəri 19,8 faiz artaraq 962,1 milyon ABŞ dolları olub. Bundan başqa, hesabat dövründə şəkərin ixrac dəyəri 49,6 faiz, meyvə-tərəvəzin ixrac dəyəri 30 faiz, kimya sənayesi məhsullarının ixrac dəyəri 22,8 faiz, pambıq ipliyin ixrac dəyəri 8,8 faiz, alüminium və onlardan hazırlanan məmulatların ixrac dəyəri isə 3,8 faiz artıb.

İl ərzində aqrar məhsulların ixrac dəyəri 27,5 faiz artaraq 769,7 milyon ABŞ dolları, aqrar-sənaye məhsullarının ixrac dəyəri 260 milyon ABŞ dolları, bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixrac dəyəri isə 19,1 faiz artaraq 1,03 milyard ABŞ dolları təşkil edib.

Digər tərəfdən, Avropa İttifaqının KOB evləri modelini innovativ təşəbbüs kimi qiymətləndirməsi tam haqlıdır. Çünki bu model sahibkarın vaxtına qənaət edən, bürokratik yükü azaldan, biznes proseslərini sürətləndirən iqtisadi dəstək platforması kimi formalaşıb. Bu gün KOB evləri sənədləşmədən konsultasiyaya, təlimlərdən vergi və icazə məsələlərinə qədər bir çox xidməti eyni məkanda operativ şəkildə təqdim edir.

Hesabatda ən çox diqqətçəkən məqamlardan biri isə KOB dostu şəbəkəsinin roludur. Bu komanda kabinetdə oturan struktur deyil; əksinə, sahibkarla gündəlik təmasda olan, problemi yerində dinləyən, həll yolu axtaran, real sahədə çalışan dövlət xidmətinin yeni modelidir. 6 il əvvəl yaradılan bu şəbəkə qısa müddətdə regionlarda biznesin yükünü azaldan, gənc sahibkarları prosesə cəlb edən, dövlət-biznes əlaqələrini şəffaflaşdıran, sahibkarlığın inkişafına real təsir göstərən böyük bir institut kimi formalaşıb.

Regionlarda çoxsaylı sahibkar KOB dostu sadəcə məsləhət xidməti kimi yox, dayaq nöqtəsi kimi müraciət edir. Bu model dövlət xidmətinə ənənəvi yanaşmanı dəyişdirir və bizneslə əlaqələrdə daha dinamik, çevik və insan yönümlü mədəniyyəti ortaya qoyur.

***N.ABDALOV***
***XQ***

### *Ekspert rəyi*




**Eldəniz ƏMİROV,**
**iqtisadçı**

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Avropa İttifaqının (Aİ) dəstəyi ilə hazırlanan "EU Business Climate Report: Azerbaijan 2024" hesabatında effektivlik baxımından bütün dövlət qurumları arasında birinci sırada qərarlaşdı.**

İllərdir davam edən modern xidmət konsepsiyası, sahə ilə canlı işləmək prinsipi, regionlarda dayanıqlı iqtisadi aktivlik yaratmaq strategiyası bu gün öz nəticəsini ortaya qoyur. KOBİA artıq sadəcə bir agentlik deyil – ölkənin iqtisadi modernizasiyasının aparıcı simalarından biridir və bu liderlik Azərbaycanın qeyri-neft iqtisadiyyatının gələcək inkişaf xəritəsini müəyyənləşdirən əsas rol kimi qiymətləndirilir.

Azərbaycanda KOB sektoruna yönəlmiş və KOBİA tərəfindən icra edilən institusional siyasətin artıq ölçülə bilən real təsir yaratdığını və bunun beynəlxalq səviyyədə tanındığını göstərir. Son illər KOBİA tərəfindən sahibkarlıq mühitinin sadələşdirilməsi, xidmətlərin modernləşməsi və biznes-dövlət əlaqələrinin çevikləşməsi istiqamətində atılan addımlar öz praktiki nəticəsini verir.

Xüsusilə, KOB evləri modelinin Aİ tərəfindən innovativ təşəbbüs kimi tanınması təsadüfi deyil. Bu model sahibkarlara "tək pəncərə" rahatlığı ilə xidmət göstərir, bürokratik yükü azaldır, biznesin gündəlik ehtiyaclarına real cavab vermək üçün yaradılıb. Fikrimcə, hesabatın nəticələrində ən çox diqqət çəkən amillərdən biri KOB dostu şəbəkəsinin roludur. Çünki paytaxtda və regionlarda real sahədə bizneslə birbaşa təmasda olan, sahibkarın problemini dinləyən, həll yolları axtaran və həqiqətən də "dost" funksiyasını yerinə yetirən məhz bu komandadır. KOB dostu illərdir bölgələrdə gənc və peşəkar dövlət xidmətinin yeni modelini formalaşdırır.

Uzun müddətdir fəaliyyət göstərən bu KOB dostu şəbəkəsi dövlət xidmətinə ənənəvi yanaşmanı tamamilə dəyişdirərək regionlarda sahibkarlar üçün dayaq nöqtəsinə çevrilib. Bu gün əldə olunan yüksək beynəlxalq qiymətləndirmə də məhz həmin uzunmüddətli əməyin, davamlı fəaliyyətin və sahə ilə canlı iş prinsipinin məntiqi nəticəsidir.



# Azərbaycan Mərkəzi Asiyanı Avropaya qovuşduran qardaşlıq körpüsüdür

**Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında münasibətlər yüksələn xətlə inkişaf edərək yeni strateji mərhələyə qədəm qoyub. Tarixi, mədəni və mənəvi bağlarla birləşən bu ölkələr bu gün həm siyasi, həm iqtisadi, həm də nəqliyyat-kommunikasiya sahələrində qarşılıqlı etimada əsaslanan əməkdaşlıq qururlar. Regionda baş verən geosiyasi proseslər, qlobal logistika şəbəkələrinin yenidən formalaşması və yeni iqtisadi çağırışlar Azərbaycanın Mərkəzi Asiyaya inteqrasiyasını daha da aktuallaşdırıb. Bu baxımdan, Azərbaycan Cənubi Qafqazla yanaşı, bütövlükdə, Avrasiya məkanında mühüm strateji mərkəzə çevrilərək Mərkəzi Asiya ölkələri üçün etibarlı tərəfdaş rolunu möhkəmləndirir.**

Azərbaycan bu region ölkələri üçün Xəzər dənizi vasitəsilə Avropaya açılan ən qısa və təhlükəsiz yolun təminatçısıdır. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) çərçivəsində qəbul edilən qərarlar, liman infrastrukturunun modernləşdirilməsi, enerji və nəqliyyat sahəsində yeni layihələrin reallaşdırılması regiondaxili inteqrasiyanı gücləndirir. Eyni zamanda, Mərkəzi Asiya ölkələri Azərbaycanın qeyri-neft ixrac bazarını genişləndirməklə yanaşı, qarşılıqlı investisiya layihələri və sənaye kooperasiyası üçün yeni imkanlar yaradır. Son illərdə ticarət dövriyyəsinin artımı, kənd təsərrüfatı, nəqliyyat-logistika və rəqəmsal texnologiyalar üzrə əməkdaşlığın dərinləşməsi bu əlaqələrin strateji xarakter aldığını göstərir.

Azərbaycanın region üçün vacibliyinin əsas səbəblərindən biri də ölkəmizin yerləşdiyi geostrateji mövqedir. Azərbaycan Şərqlə Qərb, Şimalla Cənubu birləşdirən enerji, nəqliyyat və kommunikasiya körpüsü kimi çıxış edir. Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Mərkəzi Asiya ölkələrinin Avropa bazarlarına çıxışını təmin edən ən mühüm infrastruktur elementlərindəndir. Bundan başqa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TAP və TANAP kimi beynəlxalq enerji layihələri region ölkələrinin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarması üçün geniş potensial yaradır.

Qeyd edək ki, bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) verdiyi müsahibə də xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı iki ölkə arasında iqtisadi-ticari əməkdaşlığın hazırkı səviyyəsinin məmnunluq doğurduğunu, ticarət dövriyyəsinin sürətli artımını, birgə sənaye və logistika layihələrinin genişlənməsini və qarşılıqlı investisiya fəaliyyətinin daha da dərinləşdiyini vurğulayıb. Müsahibədə həmçinin nəqliyyat, logistika və energetika sahələrində əməkdaşlığın perspektivləri barədə mühüm fikirlər səsləndirilib.

Ölkə başçısının sözlərinə görə, bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya qurumu fəaliyyət göstərir. Bu şirkətlər sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sektorları da daxil olmaqla müxtəlif sahələrdə uğurla çalışır və iki ölkə arasında iqtisadi əlaqələrin genişlənməsinə öz töhfəsini verir.

Bildirilib ki, Azərbaycan–Özbəkistan ticarət münasibətləri də son illərdə dinamik şəkildə inkişaf edir. Təkcə 2024-cü ildə ikitərəfli əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib. 2025-ci ilin yanvar-sentyabr aylarında isə ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon dollara yüksəlib. Bu göstəricilər iki ölkə arasında ticarət əlaqələrinin sürətlə genişləndiyini təsdiqləyir.

Dövlət başçısı müsahibəsində sərmayə əməkdaşlığının da paralel olaraq gücləndiyini qeyd edib: "2023-cü ildə həm ölkələrimizin daxilində, həm də üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan ümumi kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan–Özbəkistan İnvestisiya Şirkəti yaradılıb. Yüngül sənayenin inkişafı üçün yeni imkanlar açan, ənənəvi dostluq və qardaşlıq münasibətlərini möhkəmləndirən birgə müəssisə - Xankəndidə tikiş fabriki xüsusilə diqqətəlayiqdir".

Bundan başqa, müsahibədə səslənən fikirlərdən aydın olub ki, 2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir.

Azərbaycanda yaradılmış müasir nəqliyyat infrastrukturundan bəhs edən dövlət başçısı vurğulayıb ki, ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu və doqquz beynəlxalq hava limanı ölkənin qlobal nəqliyyat-logistika qovşağı rolunu daha da möhkəmləndirir. O həmçinin qeyd edib ki, Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələri üçün əlavə faydalar yaradacaq.



**Mövzu ilə bağlı iqtisad elmləri doktoru, professor Fikrət Yusifov XQ-yə bildirdi ki, Azərbaycan son 20 ildən artıq bir zamanda beynəlxalq siyasi müstəvidə elə bir güclü mövqeyə sahiblənə bilib ki, bu gün yalnız region ölkələrinin deyil, dünya nəhəngi olan dövlətlərin strateji tərəfdaşı kimi tanınır:**

– Bu gün Azərbaycan dünyanın ABŞ və Çin kimi nəhənglərinin yaxın dostu və tərəfdaşı statusunu əldə edib. Azərbaycanla yaxın münasibətlər qurmuş istənilən dövlət bu dostluq-əməkdaşlıqdan böyük məmnunluq duyur. Azərbaycanla yaxın dostluq və qardaşlıq münasibətində olan ölkələr sırasında Mərkəzi Asiya ölkələri xüsusi yer tutur.

Yenidən qurulan dünya nizamında Mərkəzi Asiya regionunun rolu olduqca əhəmiyyətlidir. Azərbaycanın hərtərəfli strateji tərəfdaşı olan Çinin regiona təsirləri də böyükdür. Həmçinin ABŞ, Avropa Birliyi və onun aparıcı ölkələri son illər ərzində bu regionda nüfuz sahibi olmaq üçün var gücləri ilə çalışırlar.

Xatırladaq ki, ABŞ Prezidenti D.Tramp isə bütün bunların fonunda bu ayın 6-da Mərkəzi Asiya ölkələrinin başçılarını Vaşinqtona dəvət edərək, onlarla G5+1 formatında, ABŞ Mərkəzi Asiya birgə sammitinin keçirilməsinə nail oldu. Cənubi Qafqaza Zəngəzur dəhlizindən keçəcək Tramp yolu vasitəsilə daxil olan Amerika Birləşmiş Ştatları indi eyni uğurla Mərkəzi Asiya istiqamətində mövqelərini genişləndirir. Azərbaycanla strateji müttəfiqliyə doğru irəliləyən ABŞ-ın regiona bu formada gəlişi təsadüfi deyil. Vaşinqtonun Avrasiya siyasətində Cənubi Qafqaz, bu bölgədə yerləşən Azərbaycan və Xəzər dənizi xüsusi strateji əhəmiyyətə malikdir.

**Professor daha sonra qeyd etdi ki, Mərkəzi Asiya ölkələri özlərinin qərblə münasibətlərinin uğurlu davamına Azərbaycan müstəvisindən baxırlar. Bu ən doğru seçimdir:**

– Çünki Şərqlə Qərbi birləşdirən ən sərfəli sayılan Orta Dəhliz məhz Azərbaycan üzərindən keçir. Bu isə sadəcə bir yol deyil. Dünya ticarətinin inkişafında, Mərkəzi Asiya ölkələrinin Qərb dünyası ilə ticarət və iqtisadi əlaqələrinin inkişafında Orta Dəhlizin misilsiz rolu olacaqdır. Odur ki, Azərbaycan Prezidentinin üçüncü dəfə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşünə dəvət edilməsi sıradan bir məsələ deyil. Təsadüf deyil ki, son üç ildə Mərkəzi Asiya dövlətlərinin başçıları Azərbaycana təxminən 30 dəfə, Azərbaycan Prezidenti isə bu ölkələrə 13 dəfə səfər ediblər.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən Azərbaycan Prezidentinin Daşkənddə keçiriləcək Mərkəzi Asiya Dövlət Başçılarının növbəti Məşvərət görüşünə dəvət edilməsi, eyni zamanda, hər iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin daha bir təzahürüdür. İki ölkə arasında münasibətlərin inkişafında çox yaxşı bir dinamika var. Bu, həm iqtisadi müstəvidə, həm də digər bütün sahələrdə müşahidə olunur. Azərbaycan Prezidentinin dediyi kimi, "Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir.

**İqtisadçı alim sonda söylədi ki, Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın mühüm istiqamətlərindən biri də şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun yaradılması, mövcud infrastrukturun genişləndirilməsi və nəticə etibarilə tranzit imkanlarının artırılmasıdır:**

– Təbii ki, bu sırada Orta Dəhliz xüsusi əhəmiyyət kəsb edir və bu dəhliz Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit yolu qismində çıxış edir. Yaxın illər ərzində iki qardaş ölkə arasında mövcud potensialdan istifadə edərək qarşılıqlı investisiyaların həcmini artırmaq yolu ilə iqtisadi müstəvidə daha böyük uğurların qazanılacağı heç bir şübhə doğurmur.

***Musa BAĞIRLI***
***XQ***

# Ana dilinə sayğısız münasibət mənəvi cinayətdir

**Prezident İlham Əliyev bu il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxışında akademiyanın keçdiyi şərəfli yoldan və Azərbaycanda elmin inkişafında oynadığı aparıcı roldan ətraflı bəhs edib. Ölkəmizdə zamanın çağırışları müstəvisində elmin vəziyyəti, intellektual potensialın güclənməsi ilə bağlı bir çox məsələlərə toxunan Prezident, eyni zamanda, ana dilimizin saflığının qorunması məsələsini də vurğulayaraq bu sahədə vəziyyətin tam qaneedici olmadığını söyləyib.**



**Azərbaycanda Atatürk Mərkəzinin direktoru, BDU ümumi dilçilik kafedrasının müdiri, Əməkdar elm xadimi, akademik Nizami Cəfərov** Prezident İlham Əliyevin milli akademiyanın yubiley mərasimində 50 milyondan çox insan üçün ana dili olan bu mənəvi sərvətin xarici təsirlərdən qorunması zərurəti ilə bağlı qarşıya qoyduğu önəmli vəzifələr, Azərbaycan dilinin qorunmasına və zənginləşdirilməsinə göstərilən dövlət qayğısı barədə XQ-yə bildirdi:

–Dünyanın qədim və yaşarı dillərindən sayılan Azərbaycan dili ruhumuzun, mədəniyyətimizin və tariximizin daşıyıcısıdır. Ana dilimiz zaman-zaman basqılara məruz qalsa da, sınaqlara sinə gərməyi bacarıb və öz varlığını qoruyub saxlaya bilib. İlk yazılı ədəbiyyat nümunələrindən – "Kitabi-Dədə Qorqud"dan, Həsənoğlunun, Füzulinin əsərlərindən üzü bəri ana dilimiz böyük təkamül prosesi keçərək xeyli zənginləşib. Onu qorumaq həm də milli qeyrət işi sayılmalıdır.

Bildiyimiz kimi, 2001-ci il iyun ayının 18-də ümummilli liderimiz Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman verdi. Bu, çox möhtəşəm bir sənəd idi. Fərmanda Azərbaycan dilinin dövlət dili olaraq o zamana qədər keçdiyi yola nəzər salınır, təhlillər aparılırdı. Dövlət dili xalqın mənəvi sərvəti kimi təqdim olunur və müasir dövrə qədər bu yöndə görülən işlərə, ədəbi dilimizin inkişaf mərhələlərinə tarixi aydınlıq gətirilirdi. Çünki bu məsələlər bizim elmimizdə də bir çox hallarda mübahisəli idi, yəni ilk Azərbaycan dili, türkmənşəli olaraq neçənci əsrlərdən mövcuddur, hansı mərhələlərdən keçib, demokratikləşmə prosesi necə gedib, bütün bunlarda böyük tarixi şəxsiyyətlərin, cəmiyyətin və dövlətçiliyin rolu nə şəkildə bir-biri ilə əlaqədar olub – bu məsələlərə izahat verilirdi.

O zaman 10 il idi ki, Azərbaycanda latın əlifbasına keçid prosesi gedirdi, amma daha çox mətbuat hələ kirildə çıxırdı. İlk dəfə həmin sənədlə qərara alındı ki, 2001-ci il avqust ayının 1-dən hər yerdə latın əlifbasına keçilsin. Bu, çox əhəmiyyətli idi, o vaxt bəzi müxalif, eləcə də xaricdən müəyyən qüvvələr belə bir şayiə yayırdılar ki, guya Heydər Əliyev latın əlifbasını istəmir, kirilə qayıtmağı təklif edir. Amma Ümummilli lider, əlbəttə, bu ictimai-siyasi prosesləri, Azərbaycanın inkişaf yollarını, beynəlxalq əlaqələrin nə dərəcədə əhəmiyyətli olduğunu hamıdan yaxşı bilirdi və buna görə də, bax, o cür iddialar meydana çıxanda çox qısa bir zamanda yeni əlifbaya keçməyin vacib olduğunu rəsmi sənədlə təsdiq etdi. Sənəddə çox ciddi, strateji münasibət ortaya qoyuldu.

Həmin il 4 iyulda Dövlət Dil Komissiyası yaradıldı. Doğrudur, bir müddət komissiyanın faydalı iş əmsalı az oldu (sonra onun tərkibinin dəyişməsi haqqında Prezident İlham Əliyevin təşəbbüsü olub). Avqustun 9-da isə Heydər Əliyev Azərbaycan Dili Gününün təsis edilməsi barədə Sərəncam verdi. O vaxtdan bəri Azərbaycan Dili və Əlifbası Gününü hər il qeyd edirik. Bu, əvvəla, dövlət dili olaraq, Azərbaycan dili haqqında təsəvvürləri genişləndirir. Ana dilimizin nə qədər möhtəşəm bir dil olması barədə tarixdən gələn düşüncələrimizi nizamlayır, sistemə salır və eyni zamanda, uzun illər Azərbaycan dili dövlət dili olmadığına görə orfoqrafiya qaydalarının da mükəmməl olmadığını yadımıza salır. Bir də ana dilimizin dövlət dili olandan sonra hansı uğurları qazanmasına aydınlıq gətirir.

Bir amil də budur ki, uzun əsrlər boyu biz ərəb əlifbasında yazmışıq, 1922-ci ildən Azərbaycan bütün Türk dünyasında ilk dəfə latın əlifbasına keçib. Gələn il 100 illiyini qeyd edəcəyimiz Birinci Türkoloji Qurultayda Azərbaycanın təcrübəsi geniş yayılıb, rəsmiləşdirilib və digər türk xalqları tədricən latın qrafikasına keçiblər. 30-cu illərin sonlarında SSRİ-də vəziyyət dəyişib, antitürk hərəkatları başlayıb, millətçilik qadağan olunub, sovet ideologiyası bunu qəbul etməyib və çox görkəmli milli ziyalılar repressiyaya məruz qalıblar. O cümlədən də Azərbaycan və digər türk respublikalarında latın əsaslı əlifbalar aradan qaldırılıb, hamısı kiril-rus əlifbasına keçirilib. Bu da uzun müddət, yəni müstəqillik bərpa olunana qədər davam edib. SSRİ dağılandan sonra latın əlifbasına keçid hərəkatı başlayıb.

Bu gün Azərbaycan postsovet məkanında latın əlifbasına keçiddə öncüllük edir. Digər türkdilli xalqların latına keçidi ilə bağlı ölkəmizdə konfranslar, görüşlər keçirilir. İndi də Türk Dövlətləri Təşkilatı bu sahədə təşəbbüslər göstərir, bir növ mənəvi və təşkilati rəhbərlik edir. Digər ümumtürk qurumlarımız – TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türkiyədə Türk Dil Qurumu həmişə ümumtürk miqyaslı yenilənmələrə kömək edirlər.

**Müsahibimiz onu da söylədi ki, Azərbaycan dilinin inkişafına dövlət qayğısı, eyni zamanda, gənc nəslə ana dilini sevdirməyə və milli mədəniyyətimizin, ədəbiyyatımızın daha geniş arealda yayılmasına xidmət göstərir:**

–Xatırladım ki, Prezident İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 2004-cü il 12 yanvar tarixli 55 nömrəli və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli 56 nömrəli sərəncamlarına əsasən latın qrafikalı yeni Azərbaycan əlifbası ilə dərsliklərin, elmi əsərlərin, lüğət və bədii ədəbiyyat nümunələrinin çap olunması milli ədəbi dilin daha da zənginləşməsi ilə yanaşı, dilçiliyin əsaslı inkişafı baxımından da əhəmiyyətli olmuşdur. Prezidentimizin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı (2013-2020) da, digər müvafiq sənədlər də ana dilimizin inkişafına mühüm töhfələr verib.

Amma yenə də müəyyən çatışmazlıqlar mövcuddur. Bu aspektdə, möhtərəm Prezidentimizin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən tədbirdəki çıxışı əlamətdar oldu. Dövlət başçısı Azərbaycan dili ilə bağlı bəzi mühüm məsələlərə toxundu. Prezident hələ 10 il bundan əvvəl – akademiyanın 70 illiyində həmin kürsüdən Azərbaycan dili haqqında danışdığını və öz narahatlığını ifadə etdiyini xatırlatdı: "Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram".

Dövlət başçısı İlham Əliyev bildirdi ki, Azərbaycan dilində baş verən prosesləri daim izləyir. Ötən dövrdə müəyyən işlər görülsə də, hələ də narahatedici məsələlər qalmaqdadır. Həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlıların dil hüquqları ilə bağlı məsələlər diqqət mərkəzində olmalıdır. Azərbaycanın hüdudlarından kənarda milyonlarla azərbaycanlı yaşayır və onların dil hüquqları lazımınca təmin olunmur. Nəticədə, Azərbaycan dili bəzi yerlərdə yalnız məişət dili səviyyəsində qalır ki, bu da yolverilməzdir. Bu, insan hüquqlarının bir hissəsi olan dil hüquqlarının pozulması deməkdir. 50 milyondan artıq Azərbaycan xalqının dilinin bu şəkildə sıxışdırılması və ya tarixi dəyərinin inkar olunması ilə barışmaq mümkün deyil. Cəmiyyət bu istiqamətdə səfərbər olmalıdır.

Ölkə rəhbərinin alınma sözlər barədə fikirləri də aktuallıq kəsb edir. Prezident bildirdi ki, dilimizə təzyiqin bir forması da alınma sözlərlə onun süni şəkildə doldurulmasıdır. Beynəlxalq terminlərin istifadəsi başadüşüləndir, lakin dilə uyğun olmayan, kontekstdənkənar istifadə edilən sözlər Azərbaycan dilinin təbiətinə zərər verir. Bu, yolverilməz haldır. Dövlət başçısı vurğuladı ki, öz dilimizdə olan sözlərin işlənmə dairəsi genişləndirilməlidir. Bunun üçün məktəblərdə ana dilinin tədrisinə ciddi yanaşmaq vacibdir. Azərbaycan dilinin tədris olunmadığı xarici ölkələrdə də bu məsələ diqqət mərkəzində saxlanılmalıdır, çünki bu, milli mənliyimiz və milli varlığımıza bir təhdiddir. Bu təhlükə aradan qaldırılmalıdır.

Əlbəttə, bu istiqamətdə yazıçıların, alimlərin, xüsusilə dilçilərin və ümumilikdə elm adamlarının üzərinə böyük məsuliyyət düşür. Ədəbi dil, ilk növbədə, ziyalıların nəzarətində olmalıdır. Onlar dünyanın harasında yaşamasından asılı olmayaraq, Azərbaycan ədəbi dilini qorumalı, onun prinsiplərinin, qaydalarının pozulmasına yol verməməlidirlər.

Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi bir fikir artıq aforizm səviyyəsinə yüksəlib: "Öz əzəli kəlmələrimizi unudub başqa bir dildən söz almaq, o sözü işlətmək ya səhvdir, ya da təxribatdır. Hər ikisi də qəbuledilməzdir". Bu fikir yubiley tədbirində dərhal qəbul olundu və xüsusilə, ziyalılar tərəfindən yüksək qiymətləndirildi. Əgər dilimizdə hər hansı bir anlayışı ifadə edən söz mövcuddursa və bu söz tarixən işlənibsə, onun əvəzinə əcnəbi söz işlətmək ya səhvdir, ya da məqsədli addımdır. Hər iki halda, bu, yolverilməzdir. Bu fikir bizim beynimizə həkk olub əbədi qalmalıdır.

**Azərbaycan dilinin saflığının qorunması naminə ciddi addımlar atılmasının zəruriliyini qeyd edən akademik dedi ki, dilimizin qorunması prosesinə orta məktəblərdən başlamalı, ana dilinin tədrisi məhz bu ilkin dövrdən təkmilləşdirilməlidir.**

–Gənc nəsil Azərbaycan dilini mükəmməl bilməli və bu, sabahımızın sahiblərinin üstün ziyalılıq xüsusiyyətinə çevrilməlidir. Azərbaycan Respublikasında dilin qorunması qanunlar, qaydalar və xüsusi təlimatlarla tənzimlənir. Lakin ölkə hüdudlarından kənarda yaşayan ziyalılarımız da ədəbi dilimizə yönələn təhlükələri vaxtında müəyyən etməli, qiymətləndirməli və cəmiyyətə çatdırmalıdırlar. Əgər bu, siyasi və ya ideoloji təhdiddirsə, insan hüquqları prizmasından buna qarşı mübarizə aparılmalıdır.

Dərsliklərdə, kitab və məqalələrdə, eləcə də siyasətçilərin çıxışlarında Azərbaycan dilinin qorunması son dərəcə vacibdir, onun orijinallığı və xüsusiyyətləri birmənalı olaraq saxlanılmalıdır. İlk növbədə, dilçi alimlərimiz bu məsələyə müxtəlif yönlərdən nüfuz etməli, hər bir mövzunu dərindən təhlil etməli, araşdırmalarını yeniliklərlə zənginləşdirməlidirlər. Bu baxımdan, ana dilimizə, mədəniyyətimizə böyük qayğı göstərmiş ümummilli liderimiz Heydər Əliyevin, Prezident İlham Əliyevin fəaliyyətlərinin bu istiqaməti, müasir ədəbi proseslə bağlı problemlər, bir fəaliyyət proqramı kimi, dilçilərin, yazıçı və şairlərin yaradıcılıqlarına nüfuz etməlidir və onlar dilin saflığına abidə sayıla biləcək, nitq incəliklərimizi ehtiva edən örnək əsərlər ərsəyə gətirməlidirlər.

Dünyanın bir çox görkəmli dilçiləri, filosofları hər zaman xüsusi qeyd ediblər ki, dil istənilən xalqın varlığı üçün təməldir. Xalqı ifadə edən birinci əlamət onun dilidir. Biz bununla müəyyən edirik ki, danışan şəxs hansı xalqa mənsubdur. Doğrudur, bu, bəzən yalnış da ola bilir. Ancaq, əksər hallarda doğru olur. İnsanlar, ilk növbədə, öz dillərində danışırlar. Başqa dilləri öyrənsək də, nadir hallarda insanlar öz ana dillərini unudur və ya doğuşdan bilmirlər. Buna görə də dil xalqın təyinatıdır.

**Dilin yalnız ünsiyyət vasitəsi deyil, idrak, milli mənəviyyatı ifadə edən vasitə olduğunu xatırladan akademik Nizami Cəfərov bildirdi:**

–Bu barədə böyük mütəfəkkir Vilhelm fon Humboldt dəyərli əsərlər yazıb. Ondan sonra da bu məsələ daim diqqət mərkəzində olub. Bu günə qədər də dilə mənəvi vasitə, ruhi akt kimi baxmaq, dildə mistik (həmin xalqı ifadə edən) ifadələr görmək təbii səslənir. Biz çalışırıq ki, dünyanın harasında olursa-olsun hər hansı dil varsa, onu qoruyaq. Məhv olmasın. Elə 21 Fevral – Beynəlxalq Ana Dili Günü də ona görədir ki, bir zamanlar Banqladeş dili qadağan ediləndə dili qorumaq üçün əhali dinc nümayişə çıxıb. Həmin vaxt Pakistan hakimiyyəti dinc nümayişçilərə qarşı silah işlədib, insanlar həyatlarını itiriblər. Bu da göstərir ki, dil uğrunda hər bir xalq mübarizə aparır. Əgər əhəmiyyətsiz bir vasitə olsaydı, xalqlar bunun üçün mübarizə aparıb, ölməzdi.

Bir vaxtlar hərbi sistemimiz, ordumuz Azərbaycan dilində danışmırdı. Bu gün ordumuzun təmiz Azərbaycan dili var. Bunlar başqa sahələrə də aiddir. İllər öncə ümummilli lider Heydər Əliyev çox mübarizə aparsa da, ana dili müəyyən qədər şərti səciyyə daşıyırdı. Rus dilinin təsiri çox idi. Bu gün heç bir dilin qeyri-qanuni təsirindən danışmaq olmaz. Təbii ki, istənilən dilə beynəlxalq dillərin təsiri olur. Bu, olmalıdır, başqa cür mümkün deyil. Azərbaycan dilinə siyasi, inzibati mövqedən hər hansı təsirin qarşısı alınır. Hətta təbii təsirlər də nizamlanır.

Prezident İlham Əliyevin qəbul etdiyi sənədlərdə, bu barədə nitqlərində Azərbaycan dilinin xüsusiyyətlərinin qorunması və öz kökləri üzərində inkişaf etməsi ilə bağlı söylədikləri fərəhli və səfərbəredicidir. Bu baxımdan, bizim ali, yüksək orta təhsil sistemimiz, mediamız - zaman keçdikcə inkişaf edən intellektual cəmiyyətimiz ana dilinə doğma münasibəti əsas götürməli, yad təsirlərə məruz qoymamalıdırlar. Unutmamalıyıq ki, mədəniyyətin, incəsənətin, ədəbiyyatın inkişafı dil üzərində qurulur və həm də dilə təsir edir.

**Müsahibimiz sonda qeyd etdi ki, AMEA-nın 80 illik yubileyində dövlət başçısının nitqində dilin saflığının qorunması ilə bağlı verdiyi tezislər hər birimizi bu yöndə səfərbər etməlidir:**

–Unutmayaq ki, Azərbaycan xalqının vahid ədəbi dilinin əsası XVII-XVIII əsrlərdən etibarən qoyulub. Bugünkü dilimizin əsasında Şah İsmayıl Xətainin, Molla Pənah Vaqifin, Mirzə Fətəli Axundzadənin, Sabirin, Mirzə Cəlilin dili dayanır. Sonrakı dövrdə Cənubi Azərbaycanda XVII-XIX əsrlər arasında yaşayıb-yaradan şairlərin, aşıqların dili də ədəbi dilimizi təşkil edir Yəni həm Şimali, həm də Cənubi Azərbaycanın imkanları hesabına Azərbaycan ədəbi dili qərarlaşıb.

Milli varlıq nişanımız olan ana dilimizi həm ümumi danışıq dili, həm də elmi, bədii, rəsmi dil səviyyəsində qorumaq, onun zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində görülən işləri yeni səviyyəyə yüksəltmək hər birimizin müqəddəs borcudur. Bu, həm də dilimizin dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi deməkdir.

*Hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

# Əbədi şöhrətin "Yarımçıq qalmış roman"ı

**Şair, publisist, filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Yazıçılar Birliyinin üzvü Elxan Yurdoğlunun "Yarımçıq qalmış roman" kitabı 2020-ci ildə 44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarımızı azadlığa qovuşduran 3000-dən artıq qəhrəman şəhidlərimizdən birinə – leytenant Nicat Məmmədliyə həsr olunmuşdur.**

1999-cu il iyul ayının 31-də, Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində doğulan Nicat Rizvan oğlu Məmmədli orta təhsilinə Culfa şəhər 2 nömrəli tam orta məktəbdə başlamış, 2016-cı ildə Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə başa vurmuşdur. 2020-ci il ilin iyun ayında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən məzun olmuş, təyinatla Ağdam rayonunun Xındırıstan kəndində yerləşən hərbi hissədə işə başlamışdır.

2020-ci il sentyabrın 27-də işğal edilmiş ərazilərimizin azad olunması və müstəqil respublikamızın ərazi bütövlüyü uğrunda başlanan İkinci Qarabağ müharibəsinin ilk günündən leytenant Nicat Məmmədli Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərə qatılmışdır. Oktyabrın 8-də ərazidəki yüksəkliklərin düşməndən alınması uğrunda gedən ağır və şiddətli döyüşlərdə misilsiz qəhrəmanlıq nümayiş etdirərək şəhidlik zirvəsinə ucalmışdır. Oktyabr ayının 12-də şəhid-leytenant Nicat Məmmədlinin nəşi Culfa şəhərinə aparılmış və burada dəfn edilmişdir.

"Yarımçıq qalmış roman" Nicatın körpəlik və döyüş formasındakı son şəklinə qədər ömür yolunu əks etdirən fotolarla zəngin olmaqla yanaşı, maraqlı bölmələrlə də diqqəti cəlb edir. Kitabın "Şeirlərin şəhdi Şəhid" bölməsində Nicat Məmmədliyə həsr olunmuş 13 şeir çap olunub. Bu poetik nümunələrdən 5-i Nicatın anası Minayə xanıma məxsusdur. Şəhid anası "Yenə gözüm yolda qalıb" şeirində yazır:

***Çox məşhur bir bağban oldun,***
***Dərd ağacı əkib getdin.***
***Çox məşhur bir rəssam oldun,***
***Sinəmə dağ çəkib getdin.***




"Leytenant Məmmədli Nicatın iş dəftəri" bölməsinə şəhidin şəxsi qeydləri daxil edilib. Bu iş dəftərində Nicatın dünyagörüşü, maraq dairəsi, məlumatlılıq səviyyəsi, kitaba olan marağı özünü göstərir.

Kitabın sonuncu bölməsi "Şəhid anasından cənnətə məktub" adlanır. Şəhid anası Minayə xanımın oğlu Nicata ünvanladığı məktubdan ürəkgöynədən sətirlər: "Canım oğlum, dünyaya göz açmağınla həyatıma işıq saçanım! Bu dünyadan cənnətə getməyinlə işıqlı dünyamı qaranlıq edənim! Sən Vətəni, torpağı bizdən üstün tutdun!".

Kitabın adı da oxucuda maraq oyadır. Niyə "Yarımçıq qalmış roman"? Bəli, bu ad iki məna daşıyır. Həm şəhidimizin taleyinə yazılmış yarımçıq bir həyat romanı, həm də Nicat Məmmədlinin özünün hamıdan gizli şəkildə qələmə aldığı və çox təəssüf ki, tamamlaya bilmədiyi yarımçıq roman.

Şəhid-leytenant Nicat Rizvan oğlu Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Rəşadət" ordenilə təltif edilmişdir.

***Ələkbər QASIMOV,***
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

# Leyla Əliyeva Mingəçevirdə









**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 13-də Mingəçevirə səfər edib.**



Səfər çərçivəsində Leyla Əliyeva əvvəlcə Vətən uğrunda canlarını fəda etmiş şəhid qardaşlar Əhmədovların ailəsini ziyarət edib. O, şəhidlərin xatirəsini ehtiramla yad edib, anası Sevinc Əhmədova ilə söhbət edib, qəhrəman oğullarının həyatı, döyüş yolu, eləcə də ailənin qayğı və ehtiyacları ilə maraqlanıb.

Əli və İslam Əhmədov qardaşları Vətən müharibəsi zamanı eyni gündə şəhid olublar. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Əli Əhmədov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları, İslam Əhmədov isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Sonra Leyla Əliyeva Mingəçevir şəhərində yerləşən yaşlılar üçün "Yaşa" mərkəzinə gəlib. Mərkəzdə pensiya yaşında olan şəxslər müxtəlif əl işləri, dekorativ-tətbiqi sənət nümunələri və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olur, onlar üçün mütəmadi olaraq maarifləndirici və mədəni tədbirlər təşkil edilir. Leyla Əliyeva yaşlılarla səmimi söhbət edib, onların hazırladıqları əl işlərinə baxıb, məşğələlərin məzmunu və Mərkəzin gələcək fəaliyyət planları barədə məlumat alıb.

Səfər çərçivəsində Leyla Əliyeva Mingəçevir Uşaq Nevroloji Sanatoriyasını ziyarət edib. Sanatoriyada daimi əsasda 20-yə yaxın uşaq müalicə və reabilitasiya alır. Müəssisədə yaradılan şərait, tibbi xidmətin təşkili, uşaqlar üçün reabilitasiya proqramları haqqında ətraflı məlumat verilib. Leyla Əliyeva balaca pasiyentlərlə maraqlanıb, həkim və tibb personalı ilə söhbət edərək onların fəaliyyətinə uğurlar arzulayıb. Leyla Əliyeva tərəfindən Uşaq Nevroloji Sanatoriyasına ayaq və əl reabilitasiyası üçün müxtəlif avadanlıqlar, o cümlədən robotik reabilitasiya əlcəkləri, həmçinin müxtəlif terapiya cihazları hədiyyə olunub.

Sonra Leyla Əliyeva Mingəçevirdə Üzeyir Hacıbəyli adına 1 nömrəli onbirillik musiqi məktəbində olub. Məktəbdə tar, kaman, qarmon və digər siniflər üzrə tədrislə tanış olan Leyla Əliyevaya təhsil ocağının şagirdlərinin müxtəlif yerli və beynəlxalq müsabiqələrdə uğurla iştirakı barədə məlumat verilib. Bildirilib ki, 70-dən çox yaşı olan musiqi məktəbində fortepiano, violin, tar, qarmon, kamança, nağara və xanəndəlik ixtisasları tədris edilir. Mədəniyyət Nazirliyinin nəzdindəki tədris ocağı 2011-ci ildən onbirillik musiqi məktəbi kimi fəaliyyətini davam etdirir. Hazırda məktəbdə 600-dən çox şagird təhsil alır. Leyla Əliyeva tərəfindən 30-dan çox zəruri musiqi aləti – tar, kamança, qarmon, violin, royal, piano və s. tədris müəssisəsinə hədiyyə edilib.

Sonda məktəbin akt zalında şagirdlərin ifasında konsert proqramı təqdim olunub.

***XQ***



# Önəmli ekoloji aksiyalar

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Mingəçevirə səfəri çərçivəsində bir sıra ekoloji aksiyalarda iştirak edib.**



Əvvəlcə Leyla Əliyevanın iştirakı ilə Mingəçevir su anbarına 25 min sazan balığı buraxılıb. Aksiya su bioresurslarının bərpası, balıq ehtiyatlarının artırılması və su hövzələrinin ekoloji tarazlığının qorunmasına töhfə vermək məqsədi daşıyır.

Daha sonra Leyla Əliyeva Korçay Dövlət Təbiət Yasaqlığı ərazisində həyata keçirilən reintroduksiya prosesində iştirak edib. Yasaqlığa Şirvan Milli Parkının ərazisindən gətirilmiş 10 baş ceyran buraxılıb. Ceyranların Yasaqlıq ərazisinə köçürülməsində məqsəd mövcud ceyran populyasiyası arasında gen dözümlülüyünü artırmaq, müxtəlif xəstəliklərin qarşısını almaq və bu ərazidə daha sağlam ceyran nəslinin formalaşdırılmasıdır. Hazırda Korçay Dövlət Təbiət Yasaqlığında ceyranların sayı 810 baş təşkil edir.





Səfər proqramı çərçivəsində Mingəçevir şəhərində ağacəkmə aksiyası təşkil olunub. Aksiyada Leyla Əliyevanın iştirakı ilə 100 nəfər könüllü tərəfindən Eldar şamı və sərvdən ibarət 200 ağac əkilib. Eldar şamı və sərv quraqlığadavamlı, regionun torpaq-iqlim şəraitinə uyğun ağac növləri kimi ətraf mühitin mühafizəsi və yaşıllıq zolağının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, bu ekoloji aksiyalar IDEA İctimai Birliyi tərəfindən Azərbaycanda ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunması istiqamətində mütəmadi olaraq görülən işlərin tərkib hissəsidir.

***XQ***









# Avarçəkmə bazasında idmançılarla görüş







**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Mingəçevir şəhərinə səfəri çərçivəsində avarçəkmə bazası ilə tanış olub.**

Leyla Əliyevaya Kür çayı üzərində salınmış "Kür" Olimpiya Tədris-İdman Mərkəzinin fəaliyyəti, burada yaradılan infrastruktur, idmançıların hazırlıq prosesi və qazanılan nailiyyətlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, "Kür" Olimpiya Tədris-İdman Mərkəzi Avropada, eləcə də MDB məkanında bənzəri olmayan avarçəkmə bazalarından biridir.

Mərkəz avarçəkmə idman növü üzrə milli komandanın əsas hazırlıq bazalarından biri kimi fəaliyyət göstərir. Burada müxtəlif yaş qruplarına aid idmançıların peşəkar səviyyədə məşq etmələri üçün müasir standartlara cavab verən şərait yaradılıb, zəruri infrastruktur, idman avadanlıqları və təhlükəsizlik tələblərinə cavab verən sistemlər təmin olunub.

Görüş zamanı, həmçinin gənclərin sağlam həyat tərzinə cəlb olunması, avarçəkmə idman növünün daha geniş təşviqi və regionda idman infrastrukturunun gücləndirilməsi istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Leyla Əliyeva avarçəkmə üzrə məşq prosesini izləyib və idmançılarla səmimi söhbət edib.

***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# “Zaqatala qartalı”nın zirvə uçuşu



**Tarixi “Zəfər yürüşü”ndə - ölüm-qalım savaşında sinəsini sipər edib, canını Vətənə qurban verən igidlərimizdən biri də 2020-ci ilin bu günü Füzuli uğrunda gedən döyüşlərdə şəhadətə ucalmış Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) baş leytenantı Valeh Vahid oğlu Bədəlovdur.**

Zaqatalanın Aşağı Tala kəndində dünyaya göz açan Valeh uşaqlıqdan zirəkliyi ilə seçilib. Oyunlarda, yarışlarda, hərbi hazırlıq məşğələlərində öncüllərdən olub. Doğma kənddə tam orta məktəbi bitirib. Ali təhsilini Qafqaz Universitetində Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə başa vurub. 2012-ci ildə əsgərliyə yollanıb, leytenant rütbəsinə yiyələnib. 2014-cü ildə hərbi xidməti başa vurub. 2015-ci ildə yenidən ordu sıralarına qayıdıb, xüsusi təyinatlı hərbçi olmaq üçün kurs keçib.

Kursu uğurla başa vuran qəhrəmanımız 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olub. Növbəti ildə Türkiyədə xüsusi təyinatlı (“Komando”) kurslarında iştirak edib. Hərbi xidmətdə fərqləndiyinə görə medalla təltif olunub. Bakıda Milli Ordumuzun 100 illiyi və Bakının azad edilməsi münasibətilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın gəlişi şərəfinə keçirilən paradlarda döyüşçüləri ilə bərabər tribunanın önündən şəstlə keçib.

Sentyabrın 27-də Vətən müharibəsinin başlanmasına baş leytenant Valeh Bədəlov xoş bir müjdə kimi ürəkdən sevinib. “Torpaqlarımızı azad etmək şansı yarandı” – deyib dostlarına. XTQ-də bölük komandiri və kəşfiyyatçı olan Valeh ilk gün Murovdağ silsiləsinin azad edilməsinda böyük şücaət göstərib, daha sonra isə cənub cəbhəsində Füzuli və Hadrut istiqamətində strateji yerlərin alınmasında yaxından iştirak edib. Oktyabrın 7-də 30 yaşına 3 gün qalmış Cəbrayıl şəhərindən Füzuli istiqamətinə silahlı yürüş zamanı şəhid olub.

Təsəllimiz budur ki, ölümə elə-belə can verməyib peşəkar hərbçimiz. Gözəgörünməz kəşfiyyatçı olaraq, düşmənlərin başının üstünü qəfil kəsdirərək sonlarına çıxıb. Öldürərək ölüb. Yüzlərlə can alandan sonra canını verib Vətən yolunda.

Valeh hərbi xidmətindən danışmağı sevməzdi. Hətta Aprel döyüşlərində olduğunu da ailəsinə deməmişdi. Son gedişində də davaya yollandığını gizlədib. “Təlimə gedirəm”, - deyib. İstəməyib ki, doğmaları, əzizləri ona görə fikir eləsinlər, narahat olsunlar.

...Ömrünün son anları zirehli maşında düşmən üstünə irəliləyən zaman ermənilər onların getdiyi yolu güclü artilleriya atəşinə tutublar. Valeh yanındakı yoldaşına deyib ki, dur, keç içəri, burada mən otururam. Oturub, elə bu vaxt, qapı bağlanmamış yanına raket düşüb. Mərmi qəlpələrindən 8 nəfərlik maşında təkcə Valeh şəhid olub. Şah damarı qırılıbmış…



Atası Vahid kişi danışır ki, Valeh bu yolu seçəndə nə qədər elədimsə, inadından döndərə bilmədim. Evin tək oğlusan, harada deyirsən, iş tapaq sənə, təki gözümüzün qabağında ol. Yox ki, yox deyib hərbçi kimi Vətənə qulluğu seçdi. Axırda qəhrəman kimi köçdü işıqlı dünyadan. Bugünkü firavan həyata, Qarabağımızın azad olunub dirçəldilməsinə, ölkəmizin tərəqqisinə, qalib xalq kimi başımızı dik tutub gəzdiyimizə görə şəhidlərimizə borcluyuq. Fəxr edirəm ki, oğlum Valehin də adı onların sırasında ehtiramla çəkilir.

Tez-tez gəlib ailəsinə baş çəkən sadiq silahdaşları deyirlər ki, qrup komandiri Valeh olmasaydı, biz hamımız ölmüşdük. O gedəndən sonra qol-qanadımız qırıldı. Bizə qarşı nə qədər istiqanlı olsa da, döyüşə, sınağa qarşı bir o qədər soyuqqanlı idi. Əsgərlərə tapşırırmış ki, döyüş zamanı bir gözünüz məndə olsun. Mənə baxın, onda özünüzü itirməzsiniz. Biz dayanmamalıyıq, bu dəfə axıra qədər getməliyik.

Silahdaşlarından biri Cəbrayıl döyüşlərindən danışarkən bir epizodu belə nəql edib: “Valeh öyrəndiyi koordinatları arxaya çox dəqiq ötürürdü. Oktyabrın 3-ü o bizdən aralıda idi. Ayağa durub, qaça-qaça biz tərəfə gəlməyə başladı, erməni də görüb atırdı. Qışqırdıq ki, yerə yat, komutan! Yatmadı, elə qaçaraq yanımıza gəldi. Çatanda gördük ki, bir güllə şalvarını deşib keçib, bir güllə də kaskasına dəyib. Burnu belə qanamamışdı. Bizə göstərib dedi, baxın, biz bura canımız bahasına torpaqlarımızı almağa gəlmişik, heç nədən qorxmaq lazım deyil. Unutmayın ki, igiddən güllə qorxar”.

...Bacısı Vüsalə Bədəlova onun döyüş yoldaşlarından eşidib bildiklərini köks ötürə-ötürə, amma qürurla danışır: “Valeh və qrupu tapşırığa gedəndə günlərlə vuruşurdu. Onlar deyirlər ki, gündüz gizlənir, gecə hücum edirdik. Uşaqları elə yönləndirirdi, elə gizlədirdi heç kim tapa bilməsin. Deyirlər, Murovda vuruşanda Valehi gözlə görmək olmurdu, çox çevik hərəkətlər edirdi. Əbəs yerə qardaşıma “Zaqatala qartalı” adı verilməmişdi ki... O şəhid olanda nə edəcəyimizi bilmədik, hamımız, tabor komandirlərimiz belə ağladı. Deyirlər, şəhid olanda da dirsəklənib eləcə can verdi”.

Şəhadətindən sonra dövlətimiz tərəfindən Valehə “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib.

Onun haqqında bu yazını hazırlayarkən, istər-istəməz duyğularım misra-misra sıralandı:

***Valehin taleyi belə gətirdi -***
***Göylərin parlayan ulduzu oldu.***
***Yarıya çatmamış yolu bitirdi,***
***Ömrü ömürlərin sonsuzu oldu.***

Əlbəttə, Valeh kimi oğulların hekayəti bir bəndlik şeirə sığan deyil. Bu barədə romanlar, dastanlar yazılsa, yenə də azdır.

***Ə.DOSTƏLİ***
***XQ***

# Yaralı yoldaşını xilas etdi, özü isə...





**İllərlə intizarında olduğumuz qələbə müjdəsindən sonra onların ölüm xəbəri çox ağır oldu. 2021-ci il noyabrın 16-da Ermənistanın təxribatları nəticəsində Kəlbəcər və Laçın istiqamətində dövlət sərhədində baş verən döyüş əməliyyatları zamanı ordumuz 7 şəhid verdi. Şanlı tariximizi öz qanları ilə yazan bu qəhrəmanlardan biri də kiçik çavuş Natiq Əliyev idi.**

Şəhidlik yolunu seçmək bilə-bilə özünü odun-alovun içinə atmaq, ölümün gözünə dik baxmaqdır. Natiq də gözünü qırpmadan Vətən uğrunda canından keçdi, yaralı əsgər yoldaşına kömək edərkən ruhu şəhidlik zirvəsinə ucaldı.

"Onun yoxluğu ilə hələ də barışa bilmirəm... Sanki yaşamıram... Hər gün otağına girib şəkilləri ilə danışıram, ətrini paltarlarından alıram... Elə bilirəm yanımdadı, yaşayır... Yeganə təsəllim balamın müqəddəs amal uğrunda..." – cümləsinin sonunu gətirə bilməyən Ətayə ananın göz yaşları içində balası haqqında söylədiyi bu sözlər məni dərindən sarsıtdı:

– Natiq 3-cü övladım, sonbeşiyim idi. Mən ona, o da mənə bağlıydı. Uşaqlıqdan fərqli xarakteri – ağlı, zəkası, təmkini ilə seçilirdi. Məktəbdə dərslərini yaxşı oxuyurdu. Müəllimləri həmişə ondan razılıq edirdilər. Deyirdi ki, ana, mən elə övlad olacağam ki, sizin başınız uca olsun. Sözünə əməl də elədi… O, uşaqlıqdan vətənpərvər ruhda böyümüşdü. Ən böyük arzusu torpaqlarımızı işğaldan azad etmək və bu yolda vuruşmaq idi. Bu, onun el-obasına, vətəninə bağlılığından irəli gəlirdi.

**Ətayə ana oğlu ilə son söhbətini xatırladı:**

– Natiqlə noyabrın 16-da, şəhid olmamışdan 2 saat əvvəl danışmışdım. Qonşumuz həmin gün məni “müharibə yenidən başlayıb” - deyib həyəcanlandırmışdı. Təlaş içində tez-tələsik Natiqə zəng etdim. Dedi ki, ana narahat olma, hər şey yaxşıdı, salamatlıqdı. Demə, bu, balamla son danışığım imiş... Natiqin yoxluğuna alışmaq mənim üçün çətin olsa da, Vətənə, xalqa belə övlad böyütdüyüm üçün fəxr edirəm. Oğlumun son nəfəsində belə yaralı yoldaşına yardım göstərməsi üçün özünü gülləyə sipər etməsi məni qürurlandırır. Yeganə təsəllim budur.

**Oğlunun nisgilindən ürəyində problemlər yaranan şəhidimizin atası Yusif Əliyev də söhbətinə Natiqin uşaqlıq illərindən başladı:**

– Natiq uşaqlıqdan qayğıkeş idi. Orta məktəbdə oxuduğu illərdə bir dəfə də olsun ondan narazı olan müəllim, ya da sinif yoldaşı görmədik. Bu gün mən oğlumla qürur duyuram. O, möhkəm xarakteri, hərbçi qətiyyəti, vətəndaş ləyaqəti ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdən alnıaçıq, üzüağ çıxmağı bacardı.

**Qəhərdən gözləri dolan ata da oğlunun yoxluğu ilə barışa bilmədiyini dedi:**

– Evimizin hər küncündə onun xatirəsi, hər əşyasında onun nəfəsi yaşayır. İllər keçir, amma onun yoxluğuna inana bilmirəm. Oğlum şəhidlik zirvəsinə ucaldı, amma mənim gözlərim hər gün yol çəkir. Elə bilirəm ki, nə vaxtsa qayıdacaq...

Qeyd edək ki, Əliyev Natiq Yusif oğlu 1989-cu ildə Gəncə şəhərində dünyaya gəlmişdi. Əslən Qərbi Azərbaycandan idi. 1996-cı ildə Gəncə şəhəri 10 nömrəli məktəbin 1-ci sinfinə daxil olub, həmin məktəbi 2007-ci ildə bitirmişdi. 2008-ci ildə hərbi xidmətə çağırılmış, 2012-ci ildən isə Murovdağda "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdi. 2012-ci ildə hərbi xidmətdə kiçik çavuş və həkim köməkçisi (feldşer) olmuş, 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdi. 2018-ci ildə ailə həyatı quran Natiqin 2020-ci ildə qız övladı dünyaya gəlib.

Qarabağın azadlığı uğrunda Vətən müharibəsində kiçik çavuş Natiq Əliyev Laçın və Kəlbəcər istiqamətində gedən döyüşlərdə igidliklə vuruşmuşdur. 44 günlük müharibə bitdikdən sonra Kəlbəcərdə hərbi qulluqçu kimi fəaliyyət göstərmişdir. 16 noyabr 2021-ci ildə Laçın–Kəlbəcər istiqamətində aparılan antiterror əməliyyatı zamanı yaralı yoldaşını təxliyyə edərkən yaralanmış və qəhrəmancasına şəhid olmuşdur. 17 noyabrda Gəncə Şəhidlər xiyabanında dəfn edilmişdir.

Natiq Əliyev ölümündən sonra Prezident İlham Əliyevin sərəncamı ilə “Vətən uğrunda”, “Cəsur döyüşçü” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

Bu gün hər birimiz torpaqlarımızın azadlığı uğrunda canından keçmiş Natiq Əliyev kimi oğullarımızla fəxr edir, onların əziz xatirəsini daim uca tutur, ruhları qarşısında baş əyirik. Ruhun şad, məkanın cənnət olsun igid, Vətən oğlu!

***Elenora HƏSƏNOVA***
***XQ***

# Məğrur şəhid anası



**Dünya o zaman gözəldir ki, analar ağlamırlar. Anaların göz yaşları qurumayanda bəşəriyyət də rahatlıq tapmır. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə gedən oğullarına ağlayaraq xeyir-dua verən, eyni zamanda, qələbə arzulayan analarımızdan biri də Gülbəniz Heydərovadır. Zəfər yürüşünün sonunda o, şəhid oğlu Əli Heydərov üçün göz yaşlarını saxlaya bilməsə də, qələbəyə görə, ölüm-itimin dayanmasına görə sevinib.**

Suqovuşan uğrunda döyüşlərdə şəhid olan Əli Heydərov 9 fevral 2002-ci ildə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda doğulub. 2008-ci ildə Bakının Binəqədi rayonu 135 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. Orta məktəbi bitirdikdən sonra – 2020-ci ilin mayında həqiqi hərbi xidmətə yollanıb.

Hərbi qulluğunun 4-cü ayında başlanan Vətən müharibəsində əsgər kimi döyüşlərə qatılan Əli Cəbrayılın, Füzulinin, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşub və Suqovuşanda şəhid olub. “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub. Bakının Pirşağı qəsəbəsindəki Şuşa məzarlığında torpağa tapşırılıb.

Əlinin anası Gülbəniz xanımla görüşdük. Bizim borcumuzdur ki, şəhid valideynlərinin ayağına gedək, onlarla həmsöhbət olaq.

– Qızım, bilirdim ki, məni axtaracaqsan. Danışım, yaz. Qoy, xalqımız bilsin ki, biz şəhid anaları Qələbəmizin sevincindən aldığımız ruhu şəhid balalarımızın ruhuna ərmağan göndəririk. Noyabrın 8-i bütün Azərbaycan analarının Zəfər bayramıdır. Birinci dəfə sizinlə görüşəndə demişdim ki, məni yaşadan oğlum Əlinin ruhudur. Əli əsgəri xidmətə gedəndə məni də, bacısını da dostuna tapşırmışdı. Sağ olsun, bu gün də həmin dostu, oğlumun sinif yoldaşları, döyüşçülər məni yad edirlər. Balamın məzarı üstündən tər güllər heç əskik olmur. Biz anaları ruhən yaşadan xalqımızın və dövlətimizin müqəddəs Şəhid adına sonsuz ehtiramıdır. Hara gediriksə, bizi yuxarı başa keçirirlər. Başımıza saldığımız örpəyimizi şəhid balalarımız daha da dəyərli ediblər.

Şəhid anası kimi nə qədər acı yaşasam da, övladımın şəhadət məqamını alqışlayıram. Oğlumun şəhid olduğu Suqovuşana getdim. O yerləri ziyarət etdim. Balamın ruhu məni sanki salamlayırdı. Biz analar beləyik. Övladlarımızın ayağına gedirik. Artıq 5 ildir ki, mən bütün bayramları onun məzarı başında keçirirəm. Şamları elə düzüb yandırıram ki, Əlinin soyuq məzarını azca da olsa, qızdıra bilim. Zəfər Gününü də orada keçirdim. Əlinin başdaşındakı şəkli ilə xeyli söhbət elədim. Dedim ki, oğul, rahat yat. Bacınla mənim arxamda yüzlərlə sənin kimi qəhrəman dayanıb. Bizi sınmağa qoymurlar. Noyabrın 8-i bütün Azərbaycan xalqı Şəhid məzarlıqlarını gül-çiçək yağışına tutdu. Hər yan üçrəngli bayraqlarımızla bəzənmişdi. Bir daha şəhid anası olmağımla fəxr elədim...

Gülbəniz ana ilə vidalaşandan sonra özözümə düşündüm ki, görəsən, yer üzündə analarımız qədər dözümlü, mətin insanlar varmı? Bu güc Azərbaycan Ordusunun hərbi qüdrətindən su içir desəm, kimsə məni qınamaz. Çünki bu Müzəffər Orduda yetişən oğulların qüdrəti ana məhəbbətindən yoğrulub.

***Kəmalə ABDİNOVA***
***XQ***

# Tovuzun qəhrəmanlıq estafeti

**Tovuz rayonu hər zaman igid oğulları ilə seçilib. İkinci Dünya müharibəsində 3 tovuzlu – Məstan Əliyev, Mərdan Musayev və Yusif Sadıqov Berlinədək döyüş yolu keçib, qorxmazlıq və şücaətlərinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüblər. Məstan Əliyev qələbəyə az qalmış Berlində həlak olub, digərləri isə müharibədən sağ-salamat qayıdıb əmək cəbhəsində də fərqləniblər.**

İkinci Qarabağ savaşının şəhidi Hüseyn Əliyev yeniyetmə çağlarında tez-tez qəhrəmanların rayon mərkəzindəki büstlərini ziyarət edər, onların adları ilə qürur duyardı. O, müharibəyə qədər Əsrik Cırdaxan kənd məktəbində müəllimlik etmiş həmkəndlisi Məstan Əliyevin haqqında daha çox bilgi toplamışdı. Özü də böyüyəndə qəhrəmanın hünərini təkrarlamağı arzulayardı.

Sovet İttifaqı Qəhrəmanı M.Əliyev adına Əsrik Cırdaxan kənd tam orta məktəbində təhsil alan Hüseyn Əsriyin od ürəkli, dəmir biləkli gənclərinin Birinci Qarabağ müharibəsində iştirakı haqqında da çox söhbətlər dinləmişdi. Bütün bunlar onda vətənpərvərlik hisslərini gücləndirmişdi. Odur ki, qarşısına hərbçi olmağı məqsəd qoydu. Hərbi hazırlıq dərslərdə “Kalaşnikov” avtomatını elə cəld söküb yığırdı ki, müəllimlər də heyrət edirdilər. Hüseynin bu cəldliyindən xəbərdar olan məktəbin direktoru toplantıların birində “Qarabağı məhz Hüseyn kimi oğullarımız azad edəcək”, – demişdi.

Hüseyn Əliyev 2018–2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Taleyini hərb sənətinə bağlayan igid Vətən müharibəsinə qədər təlimlərə qatılaraq Quru Qoşunlarında müddətdən artıq hərbi xidmət qulluqçusu (MAHHXHQ) kimi xidmət edib.

O, 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Murovdağ silsiləsi uğrunda gedən döyüşlərdə savaşır. İlk günlər ailəsi ilə telefon əlaqəsi saxlamağa imkan tapan Hüseyndən oktyabrın 3-dən sonra heç bir xəbər gəlmir. Sən demə, itkin düşübmüş. Onun öldü-qaldısından xəbərsiz olan ailəsi, eləcə də kənd camaatı hər günü intizarla başa vurur.

Kəndə hər şəhid xəbəri gəldikcə Hüseynin atası Sahib və anası Gülbəniz övladları Kənanı və Zivəri “Qaçın, tez xəbər gətirin, görək, bu dəfə gətirilən bizim uşaqdırmı?”– deyə kənd idarəsinin qarşısındakı izdihamdan məlumat öyrənməyə göndərirlər. Yalnız 1 ay sonra onun döyüş yoldaşlarından sağ qalanlar ailəyə deyirlər ki, Hüseyn oktyabrın əvvəlində Murovdağ döyüşləri zamanı həlak olsa da, nəşi uzun müddət tapılmayıb.

Payızın sonundan Murov bəyaz qara bürünür. Axtarış işləri daha da çətinləşir, amma dayanmır. Nəhayət, 2021-ci il yanvarın 13-də Hüseynin nəşinin tapıldığı xəbəri gəlir. Əsrik Cırdaxanın sakinləri, rayon fəalları, gənclər kənd yolunda qarşılama törəni keçirirlər. 105 gün intizarla yolu gözlənilən Hüseynin nəşi yanvarın 14-də doğulduğu kəndə gətirilir və torpağa tapşırılır.

Silahdaşları 20 yaşı tamam olandan 18 gün sonra şəhid olan Hüseynin haqqında iftixarla danışırlar. Döyüşlərdə göstərdiyi hünər haqqında əfsanələr dolaşır. İndi Əsrik Cırdaxan kənd qəbiristanlığında uyuyan şəhidin ruhu sevinc içində dağlarda dolaşır. Çünki uğrunda canını fəda etdiyi torpaq azad edilib, indi orada böyük quruculuq, abadlıq işləri gedir. Yurd sahibləri doğma torpaqlarına qayıdırlar.



Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, Hüseyn Əliyev ölümündən sonra “Vətən uğrunda” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Turançılıq məfkurəsi: qardaşlıq simfoniyası

**Türkdilli xalqlar ta qədim dövrlərdən zamanın hökmü ilə geniş Avrasiya coğrafiyasının yaxın-uzaq ərazilərinə yayılaraq bu torpaqlarda özlərinə əbədi yurd yerləri qurublar. Türklər tarix yazan toplumdur, qeyrət və hünər sahibləridir. Onlar qoca tarixin ayrı-ayrı dönəmlərində 26 qüdrətli dövlət və imperiya qurublar, bəşəri mahiyyəti ilə tarixdə iz qoyan sivilizasiya yaradıblar.**



Zaman-zaman türkün birləşib güclənməsindən əndişəyə düşən düşmənlər min bir hiylə ilə türkdilli xalqlar və dövlətlər arasında nifaq salmağa çalışıblar. Acı təəssüf ki, bəzən qardaşı qardaşla savaşdırıb öz bəd niyyətlərinə nail ola biliblər. Bu gün də Böyük Turan ideyasına qənim kəsilənlər az deyil. Ancaq bu cəhdlər əbəsdir. Türk xalqlarının birlik və qardaşlıq qalası qurmaq əzmi çox güclüdür.

Bəli, çağdaş dövrün siyasi üfüqlərindən yeni Böyük Turan boylanır. Məramı xalqlar və dövlətlər arasında sülhü, sabitliyi, əmin-amanlığı bərqərar etməkdir. Türkçülüyün böyük mücahidləri Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspıralı, Əhməd bəy Ağaoğlu, Yusif Akçura, Ziya Göyalp və digər vətənpərvər ziyalılar məhz bu günü arzulayırdılar. Xoşbəxtlikdən "Dildə, fikirdə, əməldə birlik" (İ.Qaspıralı–müəllif) ideyası indi xəyallardan reallığa çevrilir.

Qlobal dünya düzənində bəşəri ədaləti özünün missiyasına çevirən, "üç dost – üç ürək"dən – Azərbaycan, Türkiyə və Pakistandan ibarət yeni güc mərkəzi formalaşıb. Xalqımızın 44 günlük şanlı savaşda qazandığı qələbənin 5-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən təntənəli hərbi paradda bu dövlətlərin əsgər və zabitləri Azadlıq meydanında birgə addımladılar. Uca Allahdan bu dostluğun əbədi olmasını arzulayırıq.

O gün paytaxtın on minlərlə sakini əllərində üç qardaş dövlətin bayraqları, ürəklərində ümid və sevgi dolu hisslərlə Dənizkənarı bulvara axışaraq paraddan keçən qalib hərbçiləri hərarətlə salamladılar. Mavigözlü Xəzər qəlbə ruh verən bu qürurverici mənzərəyə şahidlik edərək sevincə öz dəniz nəğməsini oxuyurdu. İnsanlar çox xoşbəxt və mutlu idilər. Gənc oğlan və qızlar, uşaqlar gözəl musiqi sədaları altında deyir, gülür, oynayırdılar. Bu əbədi qardaşlığın möhtəşəm simfoniyası idi!

Parad canlı olaraq bütün ölkəyə və dünyaya nümayiş olunurdu. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqımızı Tarixi Zəfər münasibətilə təbrik edərək 5 il əvvəl Milli Ordumuzun igid əsgər və zabitlərinin doğma Qarabağda hünər dastanı yazmasından fəxrlə söz açdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğann 86 milyonluq Türkiyə vətəndaşları adından Can Azərbaycana növbəti dəfə hərarətli salamlarını yetirdi. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin igid Azərbaycan əsgərinin Qarabağda qazandığı parlaq qələbənin dünyada haqqı pozulan bütün insanların qəlblərində ümid şöləsi alovlandırdığını söylədi.

O gün Dənizkənarı bulvarda sinələrini Azərbaycanın orden və medalları bəzəyən əsgər və zabitlərimizi, Vətən naminə sağlamlıqların qurban verən qazilərimizi görəndə ürəyim sevincdən köksümə sığmırdı. Onların əllərindən tutan nişanlıları, həyat yoldaşları, övladları haqlı olaraq çox qürurlu və xoşbəxt idilər. Milli hərbi geyimdə əsgər və zabitlərimizlə rastlaşan analar isə həmin an ürəklərindən dillərinə axan bu sözləri necə də şəstlə deyirdilər: "Qeyrətinizə qurban olum, balalarım!".

8 Noyabrda təkcə Azərbaycan vətəndaşları deyil, bütün Türk dünyası sevinirdi. Sosial şəbəkələrdə dünyanın bir çox ölkələrindən soydaşlarımız, eləcə də Azərbaycanın dostları xalqımızı qələbənin 5-ci ildönümü münasibətilə təbrik etməyi özlərinə borc bilirdilər. "Qarabağa aparan yol" kitabının müəllifi, işğaldan azad olunan Şuşanı dəfələrlə ziyarət edən tanınmış qazaxıstanlı şair, yazıçı-publisist Nasihə Gumarqızı özünün feysbuk səhifəsində Azərbaycan əsgərini vəsf edən status paylaşaraq sonda yazmışdı: Qarabağ Azərbaycandır! Azərbaycan Turandır!

# "Allaha əmanət, Türkiyəm!"

*Bir qrup Azərbaycan jurnalistinin 41 il əvvəl qardaş ölkəyə ilk səfəri*



**Bu günlərdə Zaqatalada yazıb-yaradan həmkarım Elmira Mehdiyeva zəng vuraraq, Vatsap nömrəmi soruşdu. Səbəbini belə izah etdi ki, 1984-cü ilin dekabrında bir qrup Azərbaycan jurnalistinin Türkiyəyə 2 həftəlik səfəri barədə "Zaqatala" qəzetində dərc olunan yol qeydlərini mənə göndərmək istəyir.**

Bu, xoş xəbər idi, axı, mən də həmin unudulmaz səfərin iştirakçısı olmuşam. Bir neçə dəqiqədən sonra Elmira xanım rayon qəzetinin bir neçə nömrəsində dərc olunan yol qeydlərinin elektron variantını mənə göndərdi. Yazı sevgi və məhəbbətlə yazılmışdı. Ürəyimdə "halal olsun!" dedim.

...Xatirələr bir anlığa məni həmin illərə qaytardı. Sözügedən səfər 1984-cü ilin 12-26 dekabr tarixlərində baş tutmuşdu. Azərbaycan jurnalistlərini təmsil edən 25 nəfərdən ibarət qrupda, səhv etmirəmsə, Elmira xanım, aramızda ən cavanımız idi. Çox saf, istiqanlı idi, hamı xətrini çox istəyirdi.

Yadımdadır ki, səfərə biz böyük həvəslə hazırlaşmışdıq. Türkiyəni ziyarət etmək o illərdə sıradan bir hadisə deyildi. Bu şansa görə özümüzü az qala bəxtəvər sanır, düzünü desəm, bir az da öyünürdük. Hətta dost və tanışlarla söhbət zamanı, bəzən yeri düşdü-düşmədi, fəxrlə tezliklə Türkiyəyə yola düşəcəyimizi söyləyirdik.

Nəhayət, arzuladığımız gün gəlib çatdı. Bakı aeroportunda bir araya gəlib Moskvaya uçduq. Ertəsi gün "İl-86" təyyarəsi isə bizi Ankara aeroportuna çatdırdı. Günorta vaxtı idi. Ankara qonaqları sulu qar ilə qarşıladı. Amma bu, bizi zərrə qədər də narahat etmirdi. Axı, əziz və doğma Türkiyə torpağına qədəm basmışdıq.

Böyük həvəslə türkcə "qonuşmaq" istəyirdik. Yerli sakinlər biləndə ki, Bakıdanıq, gəlişimizə sevinir, şirin türk ləhcəsində bizə "mutlu səyahət" arzulayırdılar. Qrupumuzun rəhbəri Azərbaycan Jurnalistlər Birliyinin sədri mərhum Hacı Hacıyev qardaş ölkə barədə dərin biliyə malik idi. Türkiyənin tarixi, mədəniyyəti haqqında böyük həvəslə söz açırdı.

Türkiyədə qaldığımız 2 həftə ərzində biz çox böyük şəhərlərdə aparıcı qəzetlərin redaksiyalarında, teleşirkətlərdə həmkarlarımızın iş şəraiti ilə tanış olduq, təcrübə mübadiləsi apardıq. Bəzi redaksiyalarda bizə müəyyən maliyyə çətinlikləri ilə üzləşdiklərini bildirirdilər. Bizim qəzetlərin dövlət tərəfindən maliyyələşdirildiyini eşidəndə xeyli təəccübləndilər.



1984-cü ilin sonlarında Türkiyə iqtisadiyyatında köklü islahatlar başlanmışdı. 1 il əvvəl baş nazir seçilən Turqut Ozalın başçılıq etdiyi hökumət milli sahibkarlığın inkişafına hər cür dəstək verirdi. Özəl sektor dirçəlməyə başlamışdı. Bir az qabağa qaçaraq deyim ki, sayın T.Ozalın iqtisadiyyatda liberallaşdırma xətti öz bəhrəsini verdi. Türkiyə onun iqtidarı dönəmində xeyli irəli getdi.

1993-cü ilin mayında T.Ozalın qəfil vəfatından sonra ölkədə yenidən iqtisadi geriləmə başlandı. Tez-tez baş nazirlər dəyişsə də, ölkəni kəskin böhrandan xilas etmək mümkün olmurdu. Yalnız 2002-ci ilin fevralında parlamentə keçirilən seçkilər zamanı gənc siyasətçi Rəcəb Tayyib Ərdoğanın lideri olduğu AKP-nin iqtidara gəlişi ilə ölkədə sürətli inkişafa start verildi.

Bu gün Türkiyə dünyanın sayılıb-seçilən ölkələrindən biridir. Qlobal siyasətdə öz sözü, çəkisi olan güclü dövlətdir. İkinci Qarabağ müharibəsinin ilk günündən son anadək Azərbaycana hərtərəfli dəstək verib. Ankara hər zaman Azərbaycanın yanındadır. Türkiyə bu gün Zəngəzur dəhlizinin açılması üçün Bakı ilə birlikdə gərgin diplomatik səylər ortaya qoyur.

Yenidən 1984-cü ildəki ziyarətə qayıtmaq istəyirəm. Uzaq yol yoldaşlığı insanları bir-birilə dostlaşdırır. Türkiyə səfərdən sonra ayrı-ayrı toplantılarda Elmira xanımla görüşəndə macal tapıb bir-iki kəlmə ilə də olsa, həmin unudulmaz günləri xatırlayır, dünyasını dəyişən səfər yoldaşlarımızı anır, qalanlara cansağlığı diləyirik.

Yeri gəlmişkən, Elmira Mehdiyeva son illər böyük həvəslə "Xalq qəzeti" ilə əməkdaşlıq edir, sakini olduğu bölgənin mədəni həyatı, ziyalıları barədə redaksiyamıza maraqlı yazılar göndərir. Bu yaxınlarda XQ-nin səhifələrində milli mədəniyyətimizin tacı olan Şuşaya səfəri barədə geniş yazısı dərc olunub.

...Təəssüf ki, həyat təkcə sevincli anlardan, xoş xatirələrdən ibarət deyil. Bəzən acı, üzücü xəbərlər də eşidir insan. Bu günlərdə Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması və 20 türk hərbçisinin həlak olması xəbəri hamımızı çox sarsıtdı. Sosial şəbəkələrdə Elmira xanım da, mən də bundan çox üzüldüyümüzü bildirdik, "Başın sağ olsun, Türkiyəm!" yazdıq.

Mahnılarını çox sevdiyim türk müğənnisi Fateh Kısaparmağın məşhur bir bəstəsi yadıma düşdü: "Allaha əmanət, Türkiyəm!". Fateh bu mahnını həyat yoldaşı Şəbnəm xanımla birlikdə böyük şövqlə oxuyur. Mənim də bu an qəlbimdə bu gözəl arzu bir dua, nida kimi səslənir: Allaha əmanət, Türkiyəm!

# Fərqanənin çağdaş xocası

**Bu günlərdə Özbəkistanın populyar "kun.az" saytında Sərvər Ziyoyev və Sərdar Məmirov adlı 2 jurnalistin imzası ilə Fərqanə şəhərində şagirdlərin dərin hörmətini qazanan bir məktəb direktoru haqqında yayımlanan yazı diqqətimi cəlb etdi.**

Orada deyilir: "Şərafəddin Xusanov Fərqanə şəhərindəki 5 nömrəli orta ümumtəhsil məktəbinin direktorudur. Şagirdlər ona bir ata kimi hörmət edirlər. Direktor demək olar ki, bütün şagirdlərin adlarını əzbər bilir. Hər gün onları məktəbin girişində qarşılayır və dərsləri ilə maraqlanır. Uşaqlar buna artıq öyrəşiblər.



Şərafəddin müəllim bununla bağlı jurnalistlərə deyib:

–Peşəmi, şagirdlərimi sevirəm. Mən onların məktəbdə atasıyam. Bunu utanmadan deyirəm, çünki bir çox valideynlər çörəkpulu qazanmaq məqsədilə ailələrindən kənarda yaşamağa məcbur olurlar. Şagirdlər məni sanki ataları kimi görürlər. Onlar səhərlər məktəbin qapısında hər dəfə mənə tərəf qaçanda, onları necə qucaqlamaya bilərəm?

Məktəbdə psixoloq var, amma direktor bir çox hallarda psixoloq rolunda çıxış edir. O, gün ərzində sinif otaqlarına baş çəkməyi çox sevir. Uşaqların dərslərə davamiyyəti ilə maraqlanır. Bu zaman şagirdlərə deyir:

–Siz mənə öz övladlarım qədər əzizsiniz. Nə bir sözünüz, hər hansı bir çətinliyiniz olsa, mənə deyin!

Direktor hesab edir ki, rəhbər olmaq heç də səlahiyyət nümayişi deyil. Əksinə, vəzifəli şəxs xalqın xidmətçisi olmalıdır. Məktəbin direktoru isə uşaqların ən yaxın dostu kimi davranmalıdır.

Şərafəddin müəllim artıq 16 ildir ki, bu məktəbdə çalışır. O, bura direktor təyin olunanda məktəbdə 500 şagird təhsil alırdı. Bu gün isə bu təhsil ocağının 2 min 500 şagirdi var. Şagird kontingentinin sayı 5 dəfə artıb. Şəhərdə çoxları övladlarının "Şərafəddin müəllimin məktəbi"ndə oxumalarını arzu edirlər.

Qeyd etmək lazımdır ki, direktorun özü də bu məktəbin yetirməsidir. 1990-cı ildən 2000-ci ilə qədər burada oxuyub. Məzun olduqdan sonra ali təhsilli bədən tərbiyəsi müəllimi işləyib, daha sonra isə direktor olub.

Yazının müəllifləri bu reportajı məktəbin 4-cü sinif şagirdi Şöhnurə Səydəliyevanın hekayəti ilə bitiriblər. Şöhnurə direktoru görən kimi qaçaraq ona sarılıb, sevinclə əlini sıxıb və məktəbin girişinə tərəf gedib. Birdən, nədənsə, narahat olaraq geri dönüb və göz yaşları içində deyib:

–Xahiş edirəm, direktorumuzu başqa məktəbə aparmayın, o, çox yaxşı insandır!



Məlum olub ki, Şöhnurənin atası bir neçə ildir ki, Avropa ölkələrinin birində çalışır və uzun illər atasına həsrət qalan uşaq Şərafəddin müəllimi ata gözündə görür. Deyilənlərə görə, bir dəfə direktorun başqa məktəbə köçürüləcəyini eşidən bu qız elə kəsilə-kəsilə ağlayıb ki, "yuxarılar" direktorun iş yerini dəyişmək planından vaz keçməli olublar.

# Türkmən səhrasında yaşıl ada

**Türkmənistandakı "Sarıqamış" gölünün şərq hissəsində salınmış "Botendağ" meşə massivi genişləndirilir. Burada minlərlə susuzluğa davamlı ağac tingləri əkilir. Bu barədə "Türkmenportal" saytı məlumat yayıb.**

Xəbərdə deyilir ki, meşə zolağını böyükməkdə məqsəd ərazidəki kəskin hava fırtınaları zamanı küləyin səhra qumunun bir yerdən başqa sahəyə daşınmasının qarşısını qismən də olsa almaqdır. Maraqlıdır ki, yuxarıda adını çəkdiyimiz "Sarıqamış" gölündən hər il min tonlarla yüksəkkeyfiyyətli xörək duzu yığılır. Onun böyük bir hissəsi ixrac edilir.



Qeyd edək ki, Türkmənistanda torpaqların suvarılmasının səmərəli təşkili daim mühüm əhəmiyyət kəsb edib. Amudərya çayından çəkilən Qaraqum kanalı minlərlə hektar torpağın canlanmasında böyük rol oynayır. Türkmənistanın başqa bir özəlliyi ondadır ki, ölkə ərazisi yeraltı sularla çox zəngindir. Türkmənlər zarafatla deyirlər ki, Allah torpağın üstündəki suyu az versə də, torpağın təkini su sarıdan bol eləyib. Yeraltı suların səthə yaxın olduğu ərazilərdə sahələr mövcuddur. Zəngin bitki örtüyü vahələrə özünəməxsus bir gözəllik verir.

Əziz oxucu, bir anlığa təsəvvür edin ki, siz Türkmənistanın Günəşin yandırıb-yaxan, ucsuz-bucaqsız səhralarında dəvə üstündə yol gedirsiniz və nəhayət, zümrüd kimi yamyaşıl vahələrin birinə gəlib çatıbsınız. Sevinəcəksiniz, deyilmi? Türkmən şairləri ilğıma bənzər belə səhnələri şeirlərində vəsf etməkdən nə doyur, nə də usanırlar.

*Səhifəni hazırladı:*
***Məsaim ABDULLAYEV***
***XQ***

*Dünəndən gələn səslər*

# 57 il əvvəl "Şuşa" kitabı erməniləri niyə qəzəbləndirmişdi?

## *Müəllifi məhvedici hücumlardan ulu öndər Heydər Əliyev qorumuşdu*

**Xalqımız ötən günlərdə Şuşanın azad edilməsi ilə işğalçı Ermənistanın quldurlaşmış hərbi bandalarını diz çökdürmüş tarixi Zəfər yürüşünün 5 illiyini ümumxalq təntənələri və möhtəşəm hərbi paradla qeyd etdi. Milli ideologiyamıza çevrilmiş azərbaycançılığın tarixi qaynaqlarından biri olmuş qədim Şuşa şəhəri azadlığına qovuşandan dərhal sonra Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın mədəniyyət mərkəzi elan edildi.**




Ümummilli lider Heydər Əliyev Şuşanın mədəniyyət tariximizdəki rolunu və mövqeyini, artıq 5 ildir ki, rəsmiləşdirilmiş bu yüksək statusunu illər öncə belə ifadə etmişdi: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Tarixi Azərbaycan torpaqlarında oyuncaq Ermənistan dövləti qurmuş imperialist dairələr və Qarabağı bu quruma birləşdirmək üçün gizli planlar qurmuş erməni millətçiləri sonrakı dövrlərdə məqsədlərinə çatmaq üçün daim Şuşanın tarixini saxtalaşdırmağa çalışmışdılar. Onlar Qarabağın mərkəzi, döyünən ürəyi, başının tacı olan şəhərin tarixini saxtalaşdırmaqla bütün vilayətin ermənilərə məxsus olduğunu qəbul etdirmək istəmişdilər.

Xankəndini Qarabağın dağlıq hissəsində "kiçik Ermənistan"ın mərkəzinə çevirmiş erməni millətçiləri, digər tərəfdən, Şuşanın inkişafını ləngitməklə, yerli əhalini müxtəlif üsullarla sıxışdırmaqla şəhərdən kütləvi surətdə köçməyə məcbur etmişdilər. Bu vəziyyət ümummilli lider Heydər Əliyev Azərbaycan rəhbərliyinə gələnədək davam etmişdir. Ulu öndər Şuşanın respublika tabeli şəhər statusunu gerçəkləşdirməklə onun yeni yüksəlişini təmin etmiş, şəhərin məhz Azərbaycan xalqına məxsusluğunu rəsmi şəkildə təsdiqləmişdir.

Azərbaycanın yurdsevər alimləri və ziyalıları da ermənilərin məkrli planlarının qarşısını kəsmək üçün Şuşanı babalarımızın əzəli Azərbaycan torpağında bina etdikləri barədə araşdırmalar aparmış, müxtəlif janrlı əsərlər yaratmışdılar. Belə dəyərli mənbələrdən biri bu yaxınlarda anadan olmasının 100 illiyi tamam olmuş görkəmli musiqi tədqiqatçısı, Əməkdar incəsənət xadimi Firidun Şuşinskinin 1962-ci ildə nəşr etdirdiyi tarixi-etnoqrafik "Şuşa" kitabı olmuşdu. Bu əsər o vaxtadək şəhər barədə yazılmış əsərləri kölgədə qoymuş, sonrakı araşdırmaların da yoluna işıq salmışdı.

Şuşanın tarixini əhatəli və dərindən araşdırmaq tədqiqatçının əsas hədəfi olmuşdu. Müəllif hələ BDU-nun tarix fakültəsində təhsil aldığı illərdə doğma Şuşanın tarixi haqqında sənədlər toplamaq üçün dövlətdən heç bir maliyyə yardımı almadan keçmiş SSRİ-nin bir sıra şəhərlərinin arxivlərində, muzeylərində tədqiqatlar aparmışdı. Firidun Şuşinski kitabda türk xalqının qatı düşməni Andranikə öz nifrətini kəskin şəkildə bildirmiş, satqın hərəkətlərinə görə qulağının kəsildiyini də xatırlatmışdı.

"Şuşa" kitabı 1968-ci ildə rus dilinə tərcümə ediləndən dərhal sonra yüksək dövlət vəzifəsini itirsə də mərkəzdə hələ də nüfuzunu və təsir vasitələrini qoruyub saxlamış, SSRİ-də kommunist libaslı daşnak lideri olmuş Anastas Mikoyana çatdırılmışdı. Kitabı oxuyandan sonra o bu əsərin ziyanlı bir nəşr kimi qadağan edilməsinə çalışmışdı. Hətta Azərbaycan rəhbərliyinə müəllifin cəzalandırılması barədə tapşırıq da verilmişdi.

Firidun Şuşinski bu barədə sonralar belə yazmışdı: "Şuşa" kitabının üstündə mənim başım nələr çəkmədi. O zaman mən ermənilərin əlindən 3 ay Şuşaya gedə bilmədim. Küçədə, hər yerdə məni daşa basdılar. Dəfələrlə evimin küçə qapısını və pəncərələrini sındırdılar, telefon xəttini kəsdilər. Bir neçə dəfə mənə sui-qəsd etdilər. Məni aradan götürmək üçün başıma pul qoymuşdular. Ermənistanın "Pioner" qəzetindən tutmuş "Kommunist" qəzetinə kimi bütün mətbuatı əleyhimə böhtanlar və söyüşlər yağdıraraq məni erməni xalqının ən mənfur düşməni kimi qələmə verirdilər".

Belə təhqirlər, hətta Livanın paytaxtı Beyrutdan da eşidilmişdi. Orada nəşr olunan "Hayastan" qəzeti də kitab müəllifi haqqında hədyanlar yazmışdı. Nə qədər acı olsa da, Azərbaycanda da bu kampaniyaya uyanlar tapılmışdı. Müəllifə "burjua-millətçi", "xalqlar dostluğunun düşməni" damğaları vurulmuş, yazılarının çapına qadağa qoyulmuşdu.

1969-cu il yanvar ayının 11-də Azərbaycan KP MK-da keçirilmiş "Şuşa" kitabının müzakirəsində göstərilmişdi: "Məsuliyyətsiz münasibət nəticəsində kitab ciddi nöqsanlarla işıq üzü görüb. Kitabda ayrı-ayrı hadisələrin və şəxsiyyətlərin qiymətləndirilməsinə sinfi yanaşma yoxdur; Qarabağ xanlarının, bəylərinin, hakimlərinin və çar hərbi rəhbərlərinin rolu ideallaşdırılır. Tarixi faktlar, hadisələr, ayrı-ayrı şəxslərin həyat və fəaliyyəti əksər hallarda Azərbaycanın bütün tarixindən təcrid olunmuş şəkildə nəzərdən keçirilir, kütlənin rolu azaldılır".

"Şuşa" kitabı Azərbaycan KP MK bürosunda daha sərt şəkildə pislənmişdi. Buna baxmayaraq, Əlövsət Quliyev, Ənvər Şükürzadə, Cəmil Quliyev, Mahmud İsmayılov, İsmayıl Hüseynov və başqaları Firidun Şuşinskinin əsərinə yüksək qiymət vermiş, müəllifə qarşı haqsız ittihamlara son qoyulmasına çağırmışdılar. Lakin bu iclaslardan bir neçə gün sonra bir qrup üzdəniraq "alim" Moskvaya və İrəvana xoş gəlməkdən ötrü "Bakinski raboçi" qəzetində "Şuşa" əsərini kəskin tənqid atəşinə tutmuşdular.

Sonralar ulu öndər Heydər Əliyev bu kitab ətrafında baş verənləri belə xatırlamışdı: "Respublikaya rəhbərlik elədiyim müddətdə də Qarabağın inkişafı üçün az iş görməmişəm. Xüsusilə, Şuşaya çox fikir verirdim. 70-ci illərin əvvəllərində biz Şuşanın daha da inkişaf etdirilməsi haqqında xüsusi qərar qəbul elədik. Xatirimdədir, mən hələ MK-nın birinci katibi seçildiyim ərəfədə Şuşa haqqında bir kitab çıxmışdı. Səhv eləmirəmsə, müəllifi Firidun Şuşinski idi. Bu kitabı çox gözümçıxdıya salmışdılar. Xüsusən, ermənilər. Təəssüflər ki, Bakıda olan ziyalılar da bu kitabın qəti əleyhinə çıxmışdılar. Mənə həmin kitabı çatdırdılar. Oxudum, gördüm ki, kitab yaxşı kitabdı. Düzdür, müəlliflə tanış deyildim, ancaq kitab yaxşı yazılmışdı... Nə isə, mən o zaman ermənilərin hücumunun qabağını aldım. Beləliklə də, həmin kitabın taleyi müsbət həll edildi və Azərbaycanda bu kitaba qarşı olan qeyri-sağlam əhval-ruhiyyə tamamilə dağıldı".

Bir neçə ay sonra Azərbaycan rəhbərliyinə gəlmiş ümummilli lider Heydər Əliyevin göstərişi ilə tədqiqatçı-alimin təqib olunmasına son qoyulmuşdu. Sonralar müəllif özü də etiraf etmişdi ki, o zaman Heydər Əliyev olmasaydı, onu dirigözlü məhv edəcəkdilər. Ulu öndər sonrakı illərdə də Firidun Şuşinskinin yaradıcılığına qayğı ilə yanaşmış, onu qərəzli hücumlardan müdafiə etmiş, yeni dəyərli əsərlər yazmasına əlverişli şərait yaratmışdı.

Təəssüf ki, bu günə qədər "Şuşa" əsəri bütöv şəkildə çap edilməyib. Bu başı bəlalar çəkmiş əsərin yeni nəşri milli-mənəvi dəyərlərimizin misilsiz hamisi Heydər Əliyevin və yubilyar müəllifin ruhunu bir daha şad edərdi.

***Aslan KƏNAN,***
***tədqiqatçı-publisist***

*Milli kino tariximiz*

# Ölməz ekran əsərləri







**Kino da insan kimidir: yaranır, yaşayır, ya xoş xatirələrlə anılır, ya da unudulub gedir. Bu il Azərbaycan kinematoqrafiyasına öz möhürünü vurmuş bir sıra ekran əsərinin yubiley ilidir. Uzun bir dövr ərzində maraqla baxdığımız, obrazlarının dediklərini, dil əzbərimiz olub zərbi-məsələ dönən sitatlarını tez-tez təkrarladığımız "ölməz" filmlərimiz az deyil.**

Yubileyi olan məşhur ekran əsərlərimizin ən "qocaman"ı yarandığı 1945-ci ildən bəri dünyanı gəzən, indi də "möhtərəm"liyini qoruyan "Arşın mal alan" filmidir. Milli mentalitetimizin parlaq inikası olan, geniş ictimai məzmunu, mənəvi-tərbiyəvi rolu və yumoristik səciyyəsi ilə nəsillər tərəfindən sevilən bu kino əsəri zamanın sınaqlarından keçərək dəyərini zərrəcə itirməyib.

Əslində, "Arşın mal alan"ın yaşı 80 deyil, daha artıqdır. Ulduzə Qaraqızının "Azərbaycan filmlərinin yaranma tarixindən" adlı 1-ci kitabında yazdığı kimi, hələ 1916-cı ildə Bakıda "Film" aksioner cəmiyyətinin təşəbbüsü ilə rejissor Svetlov "Arşın mal alan" filmini çəkib. Əsgər rolunda H.Sarabski, Gülçöhrə rolunda Q.Ağdamski, Süleyman rolunda M.A.Əliyev, Soltan bəy rolunda Ə.Hüseynzadə, Vəli rolunda H.Terequlov, Gülcahan rolunda Ç.Nərimanova çəkilsə də, film uğur qazanmayıb. Bu durum əsərin müəllifi Üzeyir Hacıbəylinin və bir sıra Azərbaycan ziyalılarını narahat edib. "Sovqat" və "Kaspi" qəzetlərində yazılıb ki, 1917-ci il yanvarın 1-də ekrana buraxılan "Arşın mal alan" əsəri bir neçə gündən sonra ekrandan çıxarılıb.

Daha sonra kino sənəti ilə heç bir əlaqəsi olmayan Belyakov soyadlı birisi və erməni rejissor Ruben Mamulyan "Arşın mal alan"ı ekranlaşdırıb pul və şöhrət qazanmaq istəyiblər. Erməninin Amerikada hasilə yetirdiyi filmdə nəinki müəllifin, heç Azərbaycanın adı çəkilməyib (Göründüyü kimi, nankor qonşularımız özlərinə xas "mədəniyyət"i hələ o vaxtlardan nümayiş etdiriblər). Hər iki film uğursuz alınıb. Beləliklə, kino yolu heç də hamar olmayan "Arşın mal alan" əsərinin üzü yalnız 1945-ci ildə gülüb… İkinci Dünya müharibəsindən sonra – oktyabrın 1-də ilk tamaşası reallaşan klassik əsəri görkəmli kinorejissor Rza Təhmasib ekranlaşdırıb. Burada Üzeyir Hacıbəyli məşhur operettasında yaratdığı qəhrəmanları keçmişin adət-ənənələrinə qarşı qoymuşdur. Onlar azad sevgi uğrunda mübarizə aparır və qalib gəlirlər. Bütün bunlar yüksək səviyyədə ekran həllini tapıb.

Onu da deyək ki, 1965-ci ildə bu populyar film Mərkəzi televiziyanın sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında Tofiq Tağızadə tərəfindən yenidən çəkilib və texniki imkanlar baxımından "cavanlaşdırılıb". Sonralar da bu proses davam etdirilib. Tacir Əsgəri (Rəşid Behbudov–Həsən Məmmədov), Gülçöhrəsi (Leyla Bədirbəyli–Leyla Şıxlinskaya), Asyası (Fatma Mehrəliyeva–Xuraman Hacıyeva), Soltan bəyi (Ələkdər Hüseynzadə–Ağadadaş Qurbanov), Süleymanı (İsmayıl Əfəndiyev), Cahan xalası (Münəvvər Kələntərli–Nəcibə Məlikova), Vəlisi (Lütfəli Abdullayev), Tellisi (Fatma Mehrəliyeva–Səfurə İbrahimova) və digər obrazları seyrçi sevgisi qazanıb.

Hələ 1945-ci ildə 16 milyon 270 min tamaşaçı ilə prokat lideri olan "Arşın mal alan" filmi daha sonra dünya üzrə "100 sevimli film" seriyasında "Qızıl siyahı"ya salınıb. Növbəti ildə bəstəkar Üzeyir Hacıbəyli, rejissor Rza Təhmasib başda olmaqla kinolentin bir qrup yaradıcı heyəti Stalin mükafatına layiq görülüb. Film sovet dövründə 136 ölkədə nümayiş etdirilib, 86 dilə tərcümə edilib. 10 il əvvəl isə Üzeyir Hacıbəylinin anadan olmasının 130, Rəşid Behbudovun 100 və bu məşhur ekran işinin 70 illiyi ilə əlaqədar olaraq, bərpa edilmiş və rənglənmiş variantı Hollivudda uğurla nümayiş olunub…

Bu il 70 yaşı tamam olan tammetrajlı "Bəxtiyar" və "Görüş" bədii filmləri də böyük populyarlıq qazanmış ekran əsərləridir. "Bəxtiyar" filminin ssenarisi yazılan zaman baş qəhrəman, neftçi-müğənni Bəxtiyar Muradovun həyatı elə rolun ifaçısı Rəşid Behbudovun həyatı əsasında qələmə alınıb. Ekran işinin rejissoru Lətif Səfərov, ssenari müəllifləri isə rus sənətçilər Boris Laskin və Nikolay Rojkovdir.

Rəşid Behbudovun arxivində kinorejissor M.Əlilinin müğənniyə göndərdiyi bir teleqram saxlanılır. Öncə teleqramın məzmununu oxucuların nəzərinə çatdıraq: "Stalin mükafatı laureatı, xalq artisti Behbudov Rəşidə. Ad günü münasibətilə bizim Rəşidi… Əsgəri, Kamalı, Sərvəri ürəkdən təbrik edirik. Cansağlığı, uzun məhsuldar həyat, həmçinin yaradıcılıq uğurları arzulayırıq".

Teleqramın arxasındakı möhürdə "14.12.1954" tarixi göstərilib. M.Əlilinin teleqramda adlarını çəkdiyi qəhrəmanlardan biri olan Kamal "Bəxtiyar" filminin qəhrəmanı Bəxtiyarın əvvəlki adıdır. Yəni rejissor ssenarisində filmin adı "Ən xoşbəxt gün" idi. Baş qəhrəmanın adı isə Kamal yazılmışdı. Çəkiliş prosesində filmin və qəhrəmanın adı yenidən dəyişdirilir. Bu dəfə filmin adı "Sevimli mahnı", qəhrəmanın adı isə Əsgər olaraq seçilir. Sonrakı proseslərdə "Mahnı ilə eldən-elə" adının üzərində dayanılır. Hazır materialda isə yenidən yaradıcı heyət bir araya gələrək fikir mübadiləsi aparır və Azərbaycan variantında film "Bəxtiyar", rus variantında isə "Sevimli mahnı" adlandırılır. Baş qəhrəmana isə Bəxtiyar adı verilir.

…Hələ uşaq ikən Bəxtiyar öz məlahətli səsi ilə konservatoriyanın professoru Rəcəbovun (Məmmədrza Şeyxzamanov) diqqətini cəlb edir. Lakin Bəxtiyar xüsusi musiqi təhsili almaq haqda ona verilən məsləhətlərə məhəl qoymur və valideynlərinin yolu ilə gedib neftçi olur. İş elə gətirir ki, o, hər şeydə mənfəət axtaran fırıldaqçı, əsl incəsənətdən uzaq olan klub müdiri Ağabala (Ağasadıq Gəraybəyli) ilə rastlaşır. Ağabala Bəxtiyarın estrada müğənnisi kimi konsertlərini təşkil edir və bu yolla çoxlu pul qazanır. Nəticədə Bəxtiyarın səsi tutulur. Nəhayət, o, müğənniliyin böyük sənət olduğunu başa düşüb, bu işlə ciddi məşğul olmağa başlayır. Dostları Bəxtiyarın ondan küsmüş sevgilisi Saşa ilə barışmasına kömək edirlər. Digər rollarda Tamara Çernova, Faiq Mustafayev və başqaları çəkiliblər. Filmin bəstəkarı Tofiq Quliyevdir.

Filmdə Yusifin (Faiq Mustafayev), Gülzar və Zəhra Hüseynova bacılarının (Münəvvər Kələntərli–Sona Hacıyeva) oyunları da təsirlidir. Xüsusilə, Bəxtiyarın uşaqlıq dostu Yusifin Saşanı ələ almaq cəhdləri yaddaqalandır, bacıların "Babam evlənir, 90 yaşında…" dueti könülləri fəth edib.

Tofiq Tağızadənin böyük ekranda ilk sınağı olan "Görüş" filmi də 1955-ci ildə lentə alınıb. Ekran əsəri Azərbaycan və Özbəkistanın bir-biri ilə yarışan pambıqçılarının dostluğundan bəhs edir. Burada xalqımızın məişəti, adət-ənənələri, qonaqpərvərliyi, mənəvi-əxlaqi dəyərləri öz əksini tapıb. Eyni zamanda, nəzərə almağa dəyər ki, SSRİ dövründə kino sənayesi müəyyən mənada diqqət mərkəzində idi və filmin siyasi konteksti komediya janrı ilə vəhdət təşkil edib. Ona görə də filmdə mənalı gülüş doğuran xeyli yumorlu səhnələr var. Məşhur aktyorların rəngarəng, inandırıcı ifası keçmiş Sovetlər Birliyində böyük uğur qazanmış komik filmin təsir gücünü artırıb.

Filmin süjetinin mərkəzində özbək qızı Lala (Nelya Ataullayeva) və azərbaycanlı Kamilin (Arif Mirzəquliyev – kinosevərlər onu "O olmasın, bu olsun" ekran əsərində Sərvər rolundan tanıyırlar) məhəbbət hekayəsi yer alıb. Kinolentin əsas qəhrəmanının əmək qabaqcılı Lalaya ülvi hissləri onu bivec və tənbəl oğlandan istehsalat ustasına çevirir.

"Görüş"də L.Bədirbəyli, H.Salayev, M.Kələntərli, Ə.Ağayev, A.Cavadov, B.Şəkinskaya və başqa ünlü sənətçilər də gözəl obrazlar yaradıblar.

**(ardı var)**

***Ə.DOSTƏLİ***
***XQ***

# Elm, fəlsəfə və ədəbiyyat

## *6-cı mövzu: Bədii mətnlərdə ehtimal elementləri*



**(əvvəli qəzetin 27 iyul, 3, 24 və 31 avqust tarixli saylarında)**

**Çox zaman istər şifahi nitqdə, istər yazı prosesində kütləvi xarakter almış elmi anlayışlardan tez-tez istifadə olunur. Məsələn, zaman, məkan, hərəkət, sürət, sonsuzluq, təsadüfi hadisə, ehtimal və s. sadaladığımız bu və digər anlayışlar ayrı-ayrı elm sahələrinin və fəlsəfənin anlayışları, istinad etdiyi kateqoriyalardır.**

Bədii mətnlərdə elmi sahələrin rolundan danışarkən, adətən, istifadə olunan elmi anlayışları, elmi faktları aid olduğu elm sahələri fonunda aydınlaşdırmağa çalışırıq. Təbii, bu cür araşdırmalar həmin anlayışların bədii mətnlərdə istifadə olunması texnikasının formalaşmasına xidmət edir.

Bu mövzumuz bədii mətnlərdə bəzi ehtimal elementlərinin (Ehtimal nəzəriyyəsi əsasında) bədii mətnin yaranmasında rolundan, onlardan bədii vasitə olaraq istifadə texnikasından bəhs edir. Bu məqsədlə təsadüfi hadisə və ehtimal anlayışları haqqında məlumat verib, bu məlumatlar əsasında qurulmuş bədii mətnlərlə tanış olacağıq.

### Təsadüfi hadisə və ehtimal

Təsadüfi hadisə nədir? Məncə, bu anlayış çoxlarını düşündürən mübahisəli məsələlərdən biridir. Elmi-fəlsəfi düşüncə tarixində təsadüfi hadisəyə müxtəlif münasibətlər mövcud olmuşdur. İlk növbədə, fəlsəfi yanaşmalara qısa nəzər salaq. Bəzi yanaşmaların aydın olur ki, hadisə, ümumiyyətlə, təsadüfi xarakter daşıya bilməz, çünki hər bir hadisəni doğuran səbəb var və bütün hadisələr qanunauyğun baş verir. Sadəcə, hadisələr arasında səbəb-nəticə əlaqəsi qurula bilmədiyindən, yəni bilməzliyin nəticəsində təsadüfi hadisə anlayışı meydana gəlir. Bir sözlə, təsadüfi hadisə bilməzliyin nəticəsidir. Əgər hər hansı hadisənin başvermə səbəbi bilinsəydi və ya onun aşkarlanması mümkün olsaydı, bu zaman təsadüfilik olmazdı, hadisə zəruri hadisə sayılardı. Böyük Azərbaycan filosofu Bəhmənyar yazır ki, heç bir hadisə və predmet insan biliyindən kənarda qalmasaydı, onun üçün heç nə təsadüfi olmazdı, hər şey zəruri olardı. O, bir nümunə göstərir: bir adam yol ilə gedərkən xəzinə tapır. Onun xəzinə tapması təsadüfi sayılır. Amma onu xəzinəyə aparan səbəb olmuşdur. Onu xəzinəyə aparan səbəb olduğu üçün təsadüfi sayılan hadisə (adamın xəzinə tapması), əslində, zərurətdən baş vermişdir.

Deməli, təsadüfi hadisə sırf subyektiv xarakter daşıyır və insan bilməzliyinin nəticəsi olaraq ortaya çıxır. Həyatda hər şey qanunauyğun baş verir. Təsadüfi hadisə anlayışı təkcə fəlsəfi düşüncəni deyil, elmi təfəkkürü də məşğul edən anlayışlardan biridir. Ehtimal nəzəriyyəsi təsadüfi hadisələrin riyazi modelini öyrənən elmdir. Bu elm sahəsi elə təsadüfi hadisələri öyrənir ki, onlar hər hansı qanunauyğunluqlara tabe olur və bu qanunauyğunluqlar ehtimal qanunauyğunluqları adlandırılır. Deməli, təsadüfi hadisələr də hər hansı bir qanunauyğunluğa tabe olur. Ehtimal nəzəriyyəsinə görə, təsadüfi hadisə o hadisədir ki, eyni şərtlər hər dəfə ödəndikdə baş verə də bilər, verməyə də. Zəruri hadisə isə eyni şərtlər ödəndikdə hər dəfə baş verən hadisədir. Hadisənin ehtimalı bu nəzəriyyənin əsas anlayışlarından biridir və hadisənin başvermə mümkünlüyünün dərəcəsini ifadə edir.

Ümumiyyətlə, Ehtimal nəzəriyyəsinin bir çox anlayışları və məsələləri fəlsəfi düşüncəni işə salır, maraqlı olduğu qədər də gözlənilməz yozumlar ərsəyə gətirir. Hər bir hadisə ətrafında fərziyyələr, eyni zamanda nəticələr şəbəkəsi yaradır. Məsələn, hər hansı bir hadisə ilə üzləşən şəxs onu bu hadisəyə düçar edən səbəblər barədə düşünür, nəticəni dəyişə bilən müxtəlif variasiyalar ağlından keçir, müxtəlif ehtimallar qurur.

Təsadüfi hadisə anlayışı barədə əldə etdiyimiz məlumatlar bədii mətnin yaranmasına nə kimi üstünlük verir? Məsələn, hər hansı əsərdə təsvir olunan hadisə haqqında bir var adi informasiya verəsən, bir də var o hadisəni təsadüf və zərurət kateqoriyaları fonunda, eyni zamanda, elmi təfəkkür vasitəsilə təsvir edəsən. İkinci halda mətnin düşüncə yükünün artması faktı isə danılmazdır.

Bir növ, nəsrdə elmi-fəlsəfi informasiyalardan istifadə məsələsi nisbətən asandır. Bu, nəsrdə təsvir zamanı ifadələrin istifadə imkanlarının daha geniş olması ilə bağlıdır. Çünki nəsrdə fikri daha sərbəst ifadə etmək mümkündür. Lakin poeziyanın özünəməxsus cəhətləri fikri istənilən qədər sərbəst ifadə etməyə imkan vermir. Bu səbəbdən elmi informasiyaları “şeir dilinə” çevirməyin bəzi çətinlikləri var.

### Təsadüf

*Hər şey o qədər təsadüfən oldu ki:*
*Mən bu şəhərə gəldim,*
*sən bu şəhərdə yaşayırdın.*
*O küçədən keçəsi oldum,*
*evinizo küçədə.*
*O evin qarşısında dayandım -*
*sən o evdən çıxırdın.*

*Bunlar hamısı təsadüfən oldu:*
*mən bu şəhərə gəldim,*
*o küçədən keçdim,*
*bu şəhərdə o küçədəki o evin*
*qarşısında dayandım -*
*sən çıxdın.*

*Bütün bunlar o qədər təsadüfən oldu ki.*

*Təsadüfən mən*
*başqa şəhərə gedə bilərdim,*
*o şəhərdə hansısa küçədən keçərkən*
*hansısa evdən biri çıxardı və*
*onunla rastlaşardım.*

*Təsadüfən başqa biri*
*sizin şəhərə gələr,*
*sizin küçədən keçərkən*
*sən evdən çıxardın və...*

*Bunlar hamısı təsadüfən ola bilərdi.*

*Amma sən bu şəhərdə, o küçədə, o evdə təsadüfən yaşamırdın.*

### Bu şəhərə tale gətirib məni?!

Göründüyü kimi, sırf lirik-fəlsəfi növə aid mətndə insanı əzəli düşündürən suallardan biri: tale təsadüfidir, ya zərurət?! Nəticə: nə qədər çalışsan da, taledən qaça bilməzsən, yalnız bəzi xırda dəyişikliklərə nail ola bilərsən. Burada təsadüfi hadisə haqqında bilik bədii mətnə xidmət edib, ona intellektual səciyyə bəxş edir. Təsadüfi hadisə haqqında informasiya sadəcə sadalanmır, o hadisə üzərində bədii mətn qurulur. Düşünürük ki, hadisəyə elmi-fəlsəfi düşüncə ilə yanaşmanın nəticəsi mövzuya çevrilmiş hadisənin bədii mətn qurma prosesində fərqli tərəflərini görməyə imkan verir.

Ehtimal nəzəriyyəsinin başqa bir çox anlayışlarını və ayrı-ayrı məsələlərini şərh etməklə, onların bədii mətnlərdə bədii vasitə, bədii model olaraq istifadəsi texnikasından söz açmaq mümkündür, lakin bünlar bu sahə barədə bir qədər dərin məlumatlara malik olmağı tələb edir. Belə olan halda, həmin məsələlər üzərində qurulmuş bədii mətnlər daha yaxşı anlaşılar və onlardan bədii həzz alınması mümkün olar. Əks halda, o mətnlər yalnız oxucunu düşünməyə vadar edər ki, əslində, bu da heç də səmərəsiz deyil.

Ehtimal nəzəriyyəsinin bəzi maraqlı məsələləri üzərində elmi-bədii təfəkkürün sayəsində bədii mətnlər qurmaq və onları intellektual bədii mətnlərə yaxşı nümunə adlandırmaq olar. Hətta bunlardan bəzi poeziya nümunələrinə çəkinmədən “elmi şeir” də deyə bilərik.

İşi asanlaşdıraq deyə, məqsədimiz bu nəzəriyyə haqqında ümumi məlumat verməklə bu elm sahəsinin əsas iki anlayışı – təsadüfi hadisə və ehtimal anlayışlarının intellektual bədii mətnlərlə doğmalığını aydınlaşdırmaqdan ibarət idi. Belə cəhdlər isə, hesab edirik, təkcə bu elm sahəsinin deyil, ümumiyyətlə, elm sahələrinin “düşüncə ədəbiyyatında” istifadə texnikası barədə müəyyən bilik və səriştə qazanmağa vasitə ola bilər.

Bir də Ehtimal nəzəriyyəsinə bələd olmaqla müşahidə oluna bilən hər hansı bir hadisənin baş verməsi haqqında bütün mümkün fərziyyələri (ehtimalları) bir araya gətirmək olar. Məsələn:

### 3 fərziyyə

Bir neçə günlük yoxluğun
bir həqiqəti anlatdı mənə:
varlığın yox olması deyilmiş ölüm,
ölüm – yoxolmanın varlığı imiş.

Sonra 3 fərziyyə gəlir ağlıma:

I fərziyyə: mən yoxam.
Sən gözləyirsən. Qadın daha çox gözləntili axı.
Çox gözləyirsən dönüşümü, lap çox.
Anlayanda dönüşüm hər dəfə dönüşüdü yoxluğumun, uzun-uzadı şəkillərimə baxmağa başlayırsan gözüyaşlı, sığal çəkirsən bəzən paltarlarıma. Gecələr bağrına basıb yastığımı hönkürürsən, – belə olur, adətən. Sonra yavaş-yavaş yoxluğumla danışmağa, dərdləşməyə alışırsan... hər nəsə.
Əməlli-başlı öyrəşirsən Yoxluğuma.

II fərziyyə: sən yoxsan, daha doğrusu, varsan yoxluq şəklində.
Qayıdıram haradansa, fərqi yox, işdən, gəzintidən və sairə. Kişi də ki, daha çox qayıdışdı axı – bunu deməmişəm, deyəsən. Açarı uzadıram qapının kilidinə... yoxluğun açır qapını, əlimi uzadıram – yoxluğun yandırır işığı.
Masanın arxasına keçmirəm. Hələ bir müddət alışa bilmirəm yad olan Yoxluğuna – isinişmək lazımdı, görünür, onunla.
Yatağıma uzanıram, qollarım çarpazlanır sinəmdə məsafə olmadığından sinəmlə qollarım arasında; yoxluğunu qucaqlayıram hər gecə beləcə.

III fərziyyə: mən də yoxam, sən də.
Nə sən gözləyirsən dönüşünü
yoxluğumun,
nə də mən qucaqlayıram yoxluğunu.
Ya əbədi itiririk bir-birimizi,
ya da əbədi qovuşur bir-birinə
varlığı yoxluğumuzun.

Hər üç fərziyyə bu qədər bəsit, sadəcə; bütün yoxluqlarla olduğu kimi. Amma anladığım həqiqət çox dahiyanə idi, əzizlərim:
varlığın yox olması deyilmiş ölüm,
ölüm – yoxolmanın varlığı imiş.

**(ardı var)**

***Əli Şirin ŞÜKÜRLÜ,***
***riyaziyyat üzrə fəlsəfə doktoru, şair-publisist***

# Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı yazılı müsabiqə




**Noyabrın 14-də prokurorluq orqanlarında qulluğa qəbul olunmaq arzusunda olan şəxslər üçün vakant ştat vahidləri üzrə elan edilmiş növbəti - 27-ci müsabiqənin yazılı imtahan mərhələsi keçirilib.**

Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən imtahanın tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında keçirilməsi üçün bütün zəruri tədbirlərin görülməsi təmin edilmişdir. İmtahanı müvafiq qurumların, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri müşahidə edib.

Hazırkı müsabiqənin yazılı imtahan mərhələsində iştirak etmiş 171 namizəd (o cümlədən 48 qadın) Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Naxçıvan Dövlət Universitetinin, Milli Aviasiya Akademiyasının və xarici ali təhsil müəssisələrinin məzunlarıdır.

Baş Prokurorluğun “İşin Təşkili Qaydaları”na müvafiq olaraq yazılı imtahan işləri “ikiqat yoxlama” üsulu ilə Baş Prokurorluğun Müsabiqə Komissiyası və dəvət olunmuş mütəxəssis tərəfindən yoxlanıldıqdan sonra yekun nəticələr media vasitəsilə ictimailəşdiriləcək, eyni zamanda, bu barədə Prokurorluğun rəsmi internet səhifəsində (www.genprosecutor.gov.az) və sosial şəbəkə hesablarında məlumat yerləşdiriləcəkdir.

***XQ***

# Naxçıvanda “III Beynəlxalq Duzdağ Araşdırmaları Konqresi”

**Dünən Naxçıvan Dövlət Universiteti, Muxtar Respublika Həmkarlar İttifaqları Şurası, AMEA Naxçıvan Bölməsi, ETN-in Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Türkiyənin Çankırı Karatekin və İğdır universitetləri və Polşanın Rzeszovski Universitetinin birgə təşkilatçılığı ilə “III Beynəlxalq Duzdağ Araşdırmaları Konqresi” keçirilib.**



Əvvəlcə iştirakçılar Duzdağ Müalicə Mərkəzinin yeni infrastrukturu ilə tanış olublar. Qeyd olunub ki, dəniz səviyyəsindən 1100 metr dərinlikdə yerləşən, ümumi uzunluğu 46 kilometr olan duz mağarasında hazırda 440 çarpayı mövcuddur. Sonra “Təbiətin Duzdağ möcüzəsi” adlı videoçarx nümayiş olunub.

NDU-nun rektoru Elbrus İsayev açılış nitqində bildirib ki, ali məktəbdə önəmli elmi məclislərin davamı olan bu konqres Duzdağın yerli və beynəlxalq səviyyədə tanıdılmasını hədəfə alıb. Elmi məclisdə səsləndirilən materiallar nəşr edilərək Duzdağın təbii sərvət kimi daha geniş auditoriyaya çatdırılmasına xidmət edəcək.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev isə qeyd edib ki, Duzdağın sistemli elmi tədqiqi Naxçıvan elminin prioritet istiqamətlərindəndir. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev Duzdağın tarixi və müalicəvi əhəmiyyəti barədə təqdimatla çıxış edərək burada aparılan araşdırmalar haqqında məlumat verib.

İğdır Universitetinin rektoru, professor Ekrem Gürel, Muxtar Respublika Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev, Çankırı Karatekin Universitetinin professoru Tamer Keçeli bildiriblər ki, Duzdağ Müalicə Mərkəzi təkcə sağlamlığın bərpası üçün deyil, həm də mədəni tədbirlər, elmi tədqiqatlar və maraqlı sosial həyat məkanı kimi fəaliyyətini genişləndirir.



Konqres NDU-da keçirilən bölmə iclasları ilə davam etdirilib, 5 ölkədən, 21 elm və təhsil müəssisəsindən olan alimlərin 60-dan çox məruzəsi dinlənilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Məktəbdə “Konstitusiya və Suverenlik İli” şənliyi

**Bakının Neftçi Qurban adına 288 nömrəli tam orta məktəbində “Konstitusiya və Suverenlik İli” çərçivəsində tədbir keçirilib.**



Tədbirdə məktəbin şagird və müəllim kollektivi ilə yanaşı, şəhid məzunlarının anaları – Ataməli Musaoğlunun anası Leyla Musayeva, Ceyhun Əhmədxanovun anası Rəqibə Seyidova, Pərviz Məmmədovun anası Güllər Məmmədova, Səməndər İsmayılzadənin anası Fəridə İsmayılova, Qaradağ Rayon İcra Hakimiyyətinin məsul əməkdaşı Abbas Hüseynov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Aygün Hüseynova müstəqil Azərbaycan Respublikasının hüquqi əsaslarının formalaşmasında ümummilli lider Heydər Əliyevin müstəsna rolundan söz açıb, 1995-ci ildə qəbul edilmiş ilk Konstitusiyamızın dahi rəhbərin dövlət idarəçiliyindəki uzaqgörənliyinin, xalqına və dövlətinə olan sarsılmaz sədaqətinin təzahürü olduğunu vurğulayıb. Qeyd edib ki, bu ali sənəd Azərbaycanın müstəqil inkişaf yolunu müəyyən edən, insanların hüquq və azadlıqlarının təminatını prioritet kimi göstərən tarixi sənəddir.

Sonra çıxış edən Qaradağ Rayon İcra Hakimiyyətinin məsul nümayəndəsi Abbas Hüseynov 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsinin əhəmiyyətindən danışıb. 2 “Ç” sinif şagirdlərinin ifasında milli rəqslər, vətənpərvər ruhda şeir və mahnılar səsləndirilib, səhnəciklər nümayiş olunub.

***XQ***

# “TV və canlı jurnalistika” təlimi başa çatıb



**“Euronews Academy” beynəlxalq tədris proqramı çərçivəsində noyabrın 11-dən 14-dək davam edən növbəti təlim modulu bu gün yekunlaşıb.**

Medianın İnkişafı Agentliyi və Avropanın nüfuzlu media qurumlarından biri olan “Euronews” telekanalının birgə əməkdaşlığı ilə həyata keçirilən layihə çərçivəsində iştirakçılar 4 gündə televiziya jurnalistikasının müxtəlif istiqamətləri üzrə nəzəri və təcrübi biliklər əldə ediblər.

Kursu uğurla başa vuran iştirakçılara sertifikat təqdim olunub.

***XQ***




# AHİK heyəti Daşkənddə

**Daşkənddə Özbəkistan həmkarlar ittifaqlarının yaranmasının 120 illiyi münasibətilə yubiley mərasimi keçirilib. Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası, Beynəlxalq Əmək Təşkilatı, müxtəlif ölkələrin həmkarlar ittifaqlarının təmsilçiləri, eləcə də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) nümayəndə heyəti mərasimdə iştirak ediblər.**

Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının sədri Qudratulla Rafiqov həmkarlar ittifaqlarının üzvlərini yubiley münasibətilə təbrik edib, rəhbərlik etdiyi qurumun tarixi, keçdiyi inkişaf yolu, ölkənin ictimai həyatındakı rolu və xidmətləri barədə danışıb, işçilərin hüquqlarının qorunması, əmək münasibətlərinin tənzimlənməsi və layiqli iş şəraitinin yaradılması istiqamətində görülən işləri diqqətə çatdırıb.

AHİK nümayəndələri özbəkistanlı həmkarlarını təbrik edib, Azərbaycan və Özbəkistan arasında dostluq və qardaşlıq münasibətlərindən danışıb, bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində dövlət başçılarının müstəsna rolunu vurğulayıblar.

Qeyd olunub ki, Azərbaycan və Özbəkistan həmkarlar ittifaqları arasında əməkdaşlıq yeni layihələr və birgə təşəbbüslər vasitəsilə genişlənir, qarşılıqlı təcrübə mübadiləsi daha effektiv və əhatəli xarakter alır.

AHİK nümayəndələri Azərbaycan və Özbəkistan həmkarlar ittifaqları arasında əlaqələrin dərinləşdirilməsinin önəmini qeyd edib, əməkdaşlığın daha da möhkəmlənməsi üçün səylərin artırılacağını bildiriblər.

***Q.YUSİFOĞLU***
***XQ***

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 9 oktyabr 2025-ci il tarixli 3-28/3-1-563/2025 nömrəli əmrinə əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki aşağıdakı müəssisələrin ləğv olunması haqqında qərar qəbul edilmişdir:**

1) Gəncə Şəhər Təsərrüfathesablı Ailə və Nikah Məsləhətxanası
2) Gəncə Şəhər Təsərrüfathesablı Reproduktiv Sağlamlıq və Ailə Planlaması Mərkəzi
3) Gəncə Şəhər Körpələr Evi.

Bu məqsədlə ləğvetmə komissiyası yaradılmış və adıçəkilən müəssisələrin bütün maliyyə, hüquqi və təşkilati məsələlərinin tənzimlənməsi üçün fəaliyyətə başlanılmışdır.

Müəssisələrin kreditorlarından mövcud borc tələblərini təqdim etmələri, debitorlarından isə müəssisələrə olan borclarını tam şəkildə ödəmələri xahiş olunur.

Müraciətlər bu elan dərc olunduğu gündən etibarən 2 (iki) ay müddətində yazılı şəkildə aşağıdakı ünvana təqdim edilməlidir:

**Əlaqə:** 012-441-26-03
**E-mail:** office@health.gov.az
**Ünvan:** Bakı şəhəri, M.Mirqasımov küçəsi 1A.

*Biz deməsək...*

# İnsanlığın əzəli dostu düşmənə çevrilir

## *Yaxud paytaxtda sahibsiz itlərə sahib tapılacaqmı?*

**Bu gün paytaxt Bakıda, xüsusilə, şəhərətrafı qəsəbələrdə sahibsiz itlərin sayının günbəgün artması sakinləri ciddi narahat edir. Parklarda, təhsil müəssisələrinin, uşaq bağçalarının ətrafında, supermarketlərin, ictimai-iaşə obyektlərinin yaxınlığında dolaşan bu sahibsiz heyvanların baxışlarından həm qorxu, həm aclıq, həm də insanların laqeydliyinə qarşı bir təəccüb, təəssüf oxunur. Qışın şaxtasında donan, yayın istisində ləhləyən itlər, sanki ətrafdakılardan mərhəmət istəyirlər.**

### Səssiz sakinlər və görünməz ağrı

Bu emosional mənzərə ictimai, ekoloji və sanitar problem olmaqla bərabər, eyni zamanda, insan təhlükəsizliyi, şəhər estetikasının qorunması, eləcə də heyvanlara sahib çıxılması baxımından kompleks yanaşma və həll tələb edir. Yeri gəlmişkən, sahibsiz itlərin getdikcə artması təkcə Azərbaycana aid məsələ deyil. Hazırda dünyada milyonlarla küçə iti var və bir çox dövlətlər bu problemlə uzun illərdir ki, üz-üzədir. Lakin hər ölkə özünün sosial-iqtisadi, hüquqi və mədəni xüsusiyyətlərinə əsaslanaraq bu çətinliyin aradan qaldırılmasına çalışır və əksər hallarda buna nail olur.

Azərbaycanda isə sahibsiz itlərin sayı getdikcə çoxalsa da, problemin həlli istiqamətində elə bir ciddi tədbir görülmür. Düzdür, paytaxtda Heydər Əliyev Fondunun və Bakı Şəhər İcra Hakimiyyətinin birgə layihəsi əsasında yaradılan "Toplan" Sahibsiz İtlərə Qayğı Mərkəzi səmərəli fəaliyyət göstərir. Qurum paytaxt ərazisində tutulmuş itlərin qısırlaşdırılması, peyvəndlənməsi və xəstə itlərin evtanaziyasını həyata keçirir. Hazırda belə mərkəzlərin sayının artırılmasına ciddi ehtiyac duyulur.

Qeyd edək ki, respublikamızda heyvanların mühafizəsi ilə bağlı indiyədək bir sıra normativ-hüquqi sənədlər hazırlanıb. Azərbaycan "Ev heyvanlarının mühafizəsi haqqında" 1987-ci il noyabrın 13-də Strasburq şəhərində imzalanan Avropa Konvensiyasına qoşulub, 2007-ci il mayın 31-də "Ev heyvanlarının mühafizəsi haqqında" Avropa Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul olunub. Bununla yanaşı, Nazirlər Kabinetinin 9 mart 2011-ci il tarixli qərarı ilə "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları" təsdiq edilib.

Adıçəkilən qaydalara görə, heç bir şəxs ev heyvanı ilə qəddar davranmamalı, onlara ağrı, yaxud zərər verməməli və heyvanları müvafiq orqanlara xəbər vermədən sahibsiz vəziyyətə salmamalıdır. İnzibati Xətalar Məcəlləsinin 274-cü maddəsinə əsasən, Azərbaycanda heyvanlarla rəhmsiz davranmaqla onların şikəst və ya tələf edilməsinə görə 500 manat məbləğində cərimə tətbiq edilir. Lakin buna baxmayaraq, problemin həllində hələ də elə bir ciddi irəliləyiş nəzərə çarpmır. Ekspertlərin fikrincə, çətinliyin aradan qaldırılması təkcə hökumətin öhdəsinə buraxılmamalıdır.

Bu məsələdə əsas vəzifə cəmiyyətin üzərinə düşür. Belə ki, ailələrin bir çoxu balaca, sevimli itlərini övlad kimi saxlayır, lakin heyvan böyüyüb baxılması çətinləşəndə, ya da yer-ünvan dəyişiləndə o, küçəyə buraxılır. Bu isə yeni "sahibsizlər" ordusunun yaranmasına gətirib çıxarır. Belə bir problemi həm də qanunvericilikdə boşluqların mövcudluğu və icra mexanizminin zəifliyi daha da ağırlaşdırır. Yuxarıda ev heyvanlarının mühafizəsi ilə bağlı imzalanan müəyyən qanun və qaydaların müsbət addım olduğunu diqqətə çatdırdıq, lakin həmin sənədlərin icrası, qeydiyyat sisteminin formalaşmaması və cərimələrin tətbiqi zamanı qeyri-səmərəlilik sözügedən problemin həllini çətinləşdirir.

Sahibsiz itlərin sayının davamlı artmasına paytaxt ərazisinin genişlənməsi və urbanizasiya amili də təsir göstərir. Bakıətrafı kəndlərdə və digər yaxın ərazilərdə yaşayan heyvanlar şəhər sərhədlərinin böyüməsi ilə sığınacaqsız qalır və yeni mühitə – insan axınına uyğunlaşmağa məcbur olur. Əlbəttə, bu məsələdə ictimai maariflƏndirmənin zəifliyi də ciddi narahatlıq doğurur. Belə ki, bir çox insan sahibsiz itləri "təhlükə" kimi görür, lakin problemin kökünə varmır, məsuliyyət və mərhəmət hissinin cəmiyyətin inkişafının ölçülərindən biri olduğunu unudur.

### Xarici təcrübə

Qeyd edək ki, bir çox xarici dövlətlərdə sahibsiz itlərlə davranışa dair təqdir olunası təcrübə var. Həmin ölkələrdə küçə itləri müvafiq qurumlar tərəfindən mütəmadi olaraq toplanılır, qısırlaşdırılır, vaksinasiya prosesi keçirilir və yenidən küçələrə, onlar üçün doğma olan yerlərə buraxılır. Belə olduqda həm heyvanların, həm də insanların həyatına heç bir təhlükə gözlənilmir.

Dünyada bu sahədə uğurlu təcrübə kimi Türkiyə, Almaniya və Niderland modelləri göstərilir. Xüsusilə, Niderlandın küçə itlərinin insanyönümlü metodlarla tədricən sığınacaqlara yerləşdirilməsi və sterilizasiya ilə nəzarət altına alınması örnək kimi qəbul edilir. Azərbaycan da bu modelin bəzi elementlərini tətbiq etməyə başlayır.



Burada bir məqama da diqqət çəkmək istərdik. Belə ki, bir sıra hallarda küçə itləri ilə bağlı cəmiyyət iki hissəyə bölünür: bir tərəf onları şəhərin "sevgi simvolu" sayır, digər tərəf isə "təhlükə mənbəyi" kimi görür. Əslində, hər iki baxışda müəyyən həqiqət payı var. Sahibsiz itlərin "təhlükə mənbəyi" olması fikrinə gəldikdə qeyd edək ki, tibbi-sanitariya baxımından hər bir küçə iti istənilən vaxt müəyyən risk yarada bilər. Burada itlərdən insana quduzluq viruslarının keçməsi, parazitlərə yoluxmaların baş verməsi və hücum hallarının yaşanması kimi faktlar misal ola bilər. Xüsusilə, uşaqlar və yaşlılar üçün belə təhlükələrin qarşısı vaxtında alınmalıdır. Lakin bu, heç də küçə itlərinin "yox edilməsi" anlamına gəlmir, bu, sahibsiz itlərin idarə olunmasını və nəzarət mexanizminin gücləndirilməsini tələb edir.

### Bizdə də "Toplan" var

Ekspertlərin fikrincə, küçə itlərinin aqressiv davranışının əsas səbəbi aclıq, qorxu və pis münasibətdir. Başqa sözlə, problemin yaranması insan amili ilə bağlıdır. Çünki insan mərhəmət göstərəndə, heyvan aqressiyanı itirir. Deməli, təhlükənin kökünü yox etmək üçün, ilk növbədə, məsuliyyət və qayğı mədəniyyətini formalaşdırmaq lazımdır. Son illər Azərbaycanda bu istiqamətdə müsbət addımlar atılır. Bir sıra şəhər və rayonlarda sahibsiz heyvanların sterilizasiyası və vaksinasiya proqramları həyata keçirilir. "Toplan" Sahibsiz İtlərə Qayğı Mərkəzində fəaliyyət göstərən sığınacaqlar bu sahədə əsas rol oynayır.

Vətəndaşlar mərkəzə zəng edib hansı ərazidə sahibsiz itlərin olduğunu bildirir, əməkdaşlar isə həmin yerə gedib sahibsiz heyvanları toplayırlar. Qayğı Mərkəzində itlərə quduzluğa qarşı peyvənd vurulur, lazım gəldikdə sterilizasiya aparılır, qısırlaşdırılır, belə itlərin qulağına xüsusi birkalar taxılır. İtə birka taxılıbsa, bu, onun təhlükəsiz olması deməkdir. Belə itlər sonradan təbiətə təkrar buraxılır.

Eyni zamanda, bir neçə bələdiyyə və qeyri-hökumət təşkilatı heyvanların sahiblənməsi təşəbbüslərini irəli sürür, məktəblərdə və ictimai yerlərdə maarifləndirici aksiyalar təşkil edir. Bununla yanaşı, Dövlət proqramlarında artıq heyvanların qorunmasının ekoloji siyasətin tərkib hissəsinə çevrilməsi diqqət çəkir. Qanunvericilik səviyyəsində "insan – təbiət – heyvan" münasibətlərində balanslı yanaşma prinsipinin diqqətdə saxlanılmasına xüsusi önəm verilir.

İt təlimçisi Anar Cahanbəxşin sözlərinə görə, sahibsiz itlər bir çox Avropa ölkəsində sistemli şəkildə peyvəndlənir və sığınacaqlara yerləşdirilir. Orada müəyyən müddət qaldıqdan, sahiblənilmədikləri müəyyən edildikdən sonra bəzi hallarda evtanaziya (yunan mənşəli söz olub, hərfən mənası "yaxşı ölüm" deməkdir) tətbiq olunur. Təəssüf ki, Azərbaycanda sahibsiz itlərin sayı hələ də çoxdur. Onlar tez-tez toplanır, qısırlaşdırılır və peyvəndlənir, lakin bir çox halda yenidən küçəyə buraxılmaları bu tədbirlərin səmərəliliyini məhdudlaşdırır.

Hazırkı yanaşma kifayət qədər nəticə vermir, bu sahədə daha ciddi, sistemli və davamlı işlər görülməlidir. Təkbaşına dolaşan bir küçə iti adətən o qədər də təhlükəli olmur. Ancaq vurulan, döyülən və ya şimşək, avtomobil, fişəng və digər kəskin səslərdən travma alan itlər bəzi hallarda təhlükə yaradır. Qorxaq itlər sürü halında olduğu zaman aqressivləşə və hücuma meyilli ola bilir. Bu isə xüsusən itlərdən qorxan insanlar üçün daha təhlükəlidir. Çünki itlər insan jestlərindən qorxu və zəiflik hiss etdiklərini anlaya bilirlər. Belə vəziyyətdə it hücumuna məruz qalan biri hərəkətsiz dayanmalı, ayaqlarını və əllərini birləşdirərək "ağac vəziyyəti"ndə qalmalıdır.

### İnsanlıq borcumuz

Ekspert A.Cahanbəxşin fikrincə, sahibsiz heyvanlar insanlar tərəfindən qıcıqlandırılır, sonra isə onlardan şikayət edilir. Mənim hazırda 4 itim var və onların hər birinin sosiallaşmasına, insanlara və digər itlərə qarşı mehriban olmalarına xüsusi diqqət yetirirəm. İtlərlə bu qədər yaxın təmasda olmaq mənə küçə itlərini daha yaxşı anlamağa kömək edir. Bir itin sahibsiz qalmasının, sahibindən ayrı düşməsinin, yuvasız və ac-susuz yaşamağın nə demək olduğunu yaxşı başa düşürəm. Bəzən öz itlərimlə küçədən keçərkən diqqətimi çəkən bir baxış görürəm – həmin küçə itininki həqiqətə tam uyğun olmasa da, dərindən həsrət və kədər ifadə edir.

Maşınların və insanların qabağından quyruğunu və qulaqlarını qısaraq keçən bir it diqqətimi çəkən zaman onun əvvəlcə nə gördüyünü, nə yaşadığını xəyalımdan keçirir və bu mənə dərin təsir edir. Bəlkə inanmazsınız, amma bu dünyada ən çox kömək etmək istədiyim, tək-tək hər birinə yardım etmək istədiyim itlərdir. Yağışda büzüşüb hasarın dibinə sığınan, günəşin altında uzanan, ümidsiz halda zibil qutularını qarışdıran, asfaltda toplanan çirkli sudan içməyə çalışan bir itin döyülməsi onun nə vaxtsa insana hücumunu istisna etmir.

Sonda bildirək ki, ibtidai cəmiyyətdən itlər insanlara sığınmış, min illər boyu onunla bir ocağın istisinə qızınmış ilk heyvanlardır. Bu "dostluq" bu gün də davam edir, çox sayda insan mənzilində "nəcib" itlər saxlayır, onunla dilbirlik yaradır. Deməli, insanlara sadiqliyini bu gün də qoruyub saxlayan bu canlıların qayğıkeş sahibi olmalıdır.

İtləri dostluğumuzda saxlamaq hamımızın borcudur. İlk növbədə isə bu işə məsul qurum olmalıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 243 (30937) 15 noyabr 2025-ci il, şənbə

# İDMAN

## DÇ–2026 – V turun oyunları

**DÇ–2026-nın Avropa zonası üzrə seçmə mərhələsinin D qrupunda V tur çərçivəsində Azərbaycan – İslandiya oyunu keçirilib. Bakıdakı 8-ci kilometr qəsəbə stadionunda təşkil olunan görüş rəqibin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.**



Qolları 20-ci dəqiqədə Albert Qudmundsson, 39-cu dəqiqədə isə Sverrir İnqason vurublar.

Qrupun digər qarşılaşması Fransada Park de Prens stadionunda baş tutub. Fransızlar Ukrayna millisinin qapısından 4 cavabsız top keçiriblər. Qolları 55 və 83-cü dəqiqələrdə penaltidən Kilian Mbappe, 76-cı dəqiqədə Maykl Olise, 88-ci dəqiqədə isə Uqo Ekitike qonaqların qapısından keçiriblər.

Son oyun ərəfəsində Fransa 13 xalla 1-ci, Ukrayna və İslandiya isə 7 xalla 2-3-cü yerləri bölüşürlər. Azərbaycan millisi 1 xalla sonuncu – 4-cü pillədə yer alıb.

Qeyd edək ki, Azərbaycan millisi seçmə mərhələdə sonuncu görüşünü noyabrın 16-da Bakıda Fransaya qarşı keçirəcək.

## U-18 voleybol millilərimiz EEVZA çempionatında

**Azərbaycanın 18 yaşadək (U-18) voleybolçulardan ibarət yığmaları Şərqi Avropa Voleybol Zonal Assosiasiyasının (EEVZA) çempionatında iştirak edəcəklər. Azərbaycan Voleybol Federasiyasından verilən məlumata görə, qızlardan ibarət milli 20-23 noyabrda Gürcüstanın Telavi şəhərində keçiriləcək turnirdə mübarizə aparacaq.**




Yarışda Gürcüstan, Ermənistan, Ukrayna, Estoniya və Polşa seçmələri də iştirak edəcəklər. A qrupunda yer alan komandamız Gürcüstan və Polşa yığmaları ilə qarşılaşacaq.

Oğlanlardan ibarət komanda isə Latviyanın Daugavpils şəhərində təşkil olunacaq çempionatda Gürcüstan, Latviya, Ukrayna, Estoniya və Polşa yığmaları ilə birgə mübarizə aparacaq. B qrupunda yer alan kollektivimiz Estoniya və Ukrayna yığmaları ilə üz-üzə gələcək. Bu yarış da 20-23 noyabrda təşkil olunacaq.

"AVRO-2026"ya seçmə xarakteri daşıyan yarışın qaydalarına görə, qrup liderlərinin qarşılaşmasının (A1-B1) qalibi Avropa çempionatının final mərhələsinə vəsiqə qazanacaq.

## Azərbaycan–Fransa oyununun hakimləri

**Azərbaycan milli komandasının Fransa yığması ilə Bakıda keçirəcəyi DÇ–2026-nın seçmə mərhələ oyununu Latviya və Niderlanddan olan hakimlər briqadası idarə edəcək.**



Tofiq Bəhramov adına Respublika Stadionunda baş tutacaq görüşdə baş hakim Andris Treimanisə Haralds Gudermanis və Aleksey Spasennikovs kömək edəcəklər. Dördüncü hakim funksiyasını Vitalis Spasyoņņikovs yerinə yetirəcək.

Kley Ruperti VAR-da Kristaps Ratnieks isə AVAR-da təmsil olunacaqlar.

Qeyd edək ki, Azərbaycan – Fransa qarşılaşması sabah saat 21:00-da Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

✓ **"Mebel-Nəqliyyat" ASC (VÖEN 2009173761) ləğv olunması ilə əlaqədar 18469 ədəd adi, adlı səhmlərin dövriy-yədən çıxarıldığını elan edir.**

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**XALQ QƏZETİ**

**Abunə yazılışını davam etdirir!**

***Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:***

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.


5 il əvvəl biz hamımız Vətən dedik!
Xalq qəzeti
Prezident İlham ƏLİYEV:
Ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik!
Üç dövlət, üç qardaş – tək ürək

**Hörmətli abunəçilər!**
**Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Zəngəzurda bəbirlər çoxalır

**Zəngəzur Milli Parkında bəbir balaları görüntülənib. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayıb.**



Bildirilib ki, Zəngəzur Milli Parkında aparılan 13 illik kamera monitorinqlərinin nəticələrinə görə, əvvəllər hər iki ildən bir qeydə alınan bəbir balaları son illərdə artıq hər il müşahidə edilməyə başlayıb. Parkda doğulan bəbir balaları böyüyərək region ölkələrinin ərazilərinə yayılır. Bir fərdin isə Türkiyənin Qara dəniz bölgəsinə qədər hərəkət trayektoriyası təsdiqlənib.

Monitorinq dövründə Zəngəzur dağlarında 15-dən çox bəbir balası doğulub və yetkinlik yaşına çatıb.

*XQ*

*İslam Həmrəyliyi Oyunları*

# Güləş millimizin İslamiada hazırlığı başa çatıb




**Güləş üzrə milli komandalarımız bu gün İslamiadada iştirak etmək üçün Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyada yollanacaq. Səfər ərəfəsində yığmaların baş məşqçiləri ilin son mötəbər yarışına hazırlığı dəyərləndirib.**

**Xetaq QAZYUMOV, sərbəst güləş üzrə baş məşqçi:**



–Hazırlıq plan üzrə gedir. Dünya çempionatından sonra 2 təlim-məşq toplanışı keçdik. Fiziki hazırlıq və gücə dayalı toplanışın ardınca taktiki-texniki çalışmalara üstünlük verdik. Yoxlama görüşləri keçirdik. Milli üzvlərinin hazırlıq səviyyəsini nəzərdən keçirdik. Allaha şükür, zədəli güləşçilərimiz yoxdur. Ümid edirik ki, azarkeşlərin etimadını doğruldacağıq. Təbii ki, idmançı ilboyu pik səviyyədə ola bilməz. Ancaq İslam Oyunları böyük yarışdır. Bu baxımdan xüsusi motivasiyaya ehtiyac yoxdur. İdmançılar dincəlib və bərpa prosesi keçib. Eşitdiyimə görə, orada indi çox istidir. Deməli, biz həm də hava şəraitilə də mübarizə aparmalıyıq. Sözsüz ki, əsas rəqib İran güləşçiləridir. Legionerlərdən təşkil edilmiş Bəhreyn və Albaniya komandalarını, həmçinin Türkiyə millisini də ciddi rəqib görürük. Rəqibləri fərdi qaydada təhlil edirik. Ümid edirik ki, hər şey yaxşı olacaq.

**Aleksandr TARAKANOV, yunan-Roma güləşi üzrə baş məşqçi:**



–Dünya çempionatından sonra komandaya istirahət verildi. Bu müddət ərzində zədəsi olanlar bərpa prosesi keçdilər. Daha sonra ümumi fiziki hazırlıq prosesi baş tutdu. Noyabrın 1-də isə iki həftəlik taktiki-texniki çalışmalara başladıq. Milli üzvləri ilboyu təlim-məşq proseslərində iştirak etdikləri üçün hazırlıq səviyyəsi ilə bağlı problem yoxdur. Düzdür, ilin sonu olduğu üçün yorğunluq var. Ona görə də artıq yüngül və qısamüddətli məşqlərə keçmişik ki, yüklənmə olmasın. Bu yarışda əsas rəqibimiz İran olacaq. Onlar əsas heyətlə iştirak edəcəklər. Özbəkistan, Qırğızıstan, Qazaxıstan və Türkiyə güləşçilərini də bu siyahıya əlavə etmək olar. Fikrimcə, İslamiadada bizi ciddi rəqabət gözləyir. Sözsüz ki, bütün rəqibləri keçirdikləri görüşlərin görüntülərinə baxaraq təhlil edirik. Səhvlərin üzərində işləyirik. Əlbəttə, rəqiblər də bizi təhlil edir və bizə qarşı xüsusi köklənirlər. Ona görə də maksimum hazırlıqlı olmalıyıq.

**Toğrul ƏSGƏROV, qadın güləşi üzrə baş məşqçi əvəzi:**



–İslam Oyunlarına hazırlığı başa vururuq. Əvvəlcə fiziki, daha sonra isə taktiki-texniki hazırlıq üzrə məşqlər keçdik. Toplanış Göygöldə baş tutdu. Hədəfimiz ən azı 1 dəst medal qazanmaqdır. Bütün güləşçilərimizin medala sahib çıxmasını arzulayıram. İdman sürprizlərlə doludur. Hər şey ola bilər. Favorit sayılmayan idmançı çempion ola və ya iddialı güləşçi medalsız qala bilər. Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan komandaları əsas rəqiblərdir. Nigeriya da bir neçə çəkidə yaxşı güləşçilərə sahibdir. Məşqçilər heyəti olaraq milli üzvlərinin maksimal hazırlıq səviyyəsinə çatmaları üçün əlimizdən gələni etmişik.

Xatırladaq ki, İslam Oyunlarında güləş yarışları noyabrın 18-dən 21-dək keçiriləcək. İslamiadada I dərəcəli hakim Bəşir İsazadə ədaləti qoruyacaq.

*XQ*

## HAVA

## Bakıda yağmursuz, bəzi bölgələrdə yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə zəif duman müşahidə ediləcəyi, çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 10-13, gündüz 16-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 7-10, gündüz 15-19, dağlarda gecə 2-5, gündüz 5-9 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyev və qurumun kollektivi tanınmış jurnalist

**EMİN İBRAHİMOVUN**

faciəli surətdə həlak olmasından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi tanınmış jurnalist

**EMİN İBRAHİMOVUN**

faciəli surətdə həlak olmasından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3481
SİFARİŞ 2323
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00